**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU**

ISSN 2219-9810 (Print)

# ELMİ ƏSƏRLƏR

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ JURNAL

**2024, №1/42**

**SCIENTIFIC WORKS**

**Jurnalın indeksləməsi / Indexed by**

Azərbaycan Respublikasının
Prezidenti yanında Ali Attestasiya
Komissiyası

INTERNET ARCHIVE

Academia.edu
share research

calameo

Directory of Research Journal Indexing
DRJI

CiteFactor
Academic Scientific Journals

SCRIBD

**International index COPERNICUS**

**(https://journals.indexcopernicus.com/search/detail?id=65528&lang-pl)**

**ELMİ ƏSƏRLƏR**

Beynəlxalq elmi-nəzəri jurnal. 2006-cı ildən nəşr edilir.
ISSN (Print) 2219-9810

Jurnal 17 fevral 2006-cı ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (№ 1704).

«Elmi əsərlər» beynəlxalq elmi-nəzəri jurnal öz fəaliyyətini Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın qərarları, öz əsasnaməsi və beynəlxalq standartların tələblərinə əsasən təşkil edib. Jurnalın əsas məqsədi Azərbaycan elminin inkişaf etməsi üçün layiqli töhfələr vermək, fəlsəfə, politologiya, siyasi elmlər, psixologiya və sosiologiya üzrə aparılan tədqiqatları öz səhifələrində işıqlandıraraq dünya elmini onlarla tanış etmək, geniş elmi müzakirələrə səbəb ola biləcək problemlərin fənlərarası yanaşma müstəvisində araşdırılmasının nəticələrinin, alim və tədqiqatçılar arasında elmi diskussiya yaradacaq postneoklassik elmin paradiqmaları, yenilikləri barədə araşdırmaların geniş yayılmasına vəsilə olmaqdır.
Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində, ildə 2 dəfə dərc olunur. Jurnalda müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-nəzəri, praktik nəticəsi olmayan məqalələr qəbul edilmir.
Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının **fəlsəfə, sosiologiya və siyasi elmlər** üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

---

© Elmi əsərlər, 2024

**SCIENTIFIC WORKS**

International scientific-theoretical journal. Published since 2006.
ISSN (Print) 2219-9810

The journal was registered at the Ministry of Justice of the Republic of Azerbaijan on February 17, 2006 (№ 1704).

«Scientific works» international scientific-theoretical journal has organized its activity in accordance with the decisions, regulations and international standards of the Supreme Attestation Commission Under the President of the Republic of Azerbaijan. The main purpose of the journal is to make a worthy contribution to the development of Azerbaijani science, to acquaint the world science with them by publishing research on philosophy, political science, psychology and sociology on its pages, disseminating the results of the investigation of problems that will create a scientific debate between scientists and researchers, lead to broad scientific debates in the interdisciplinary approach, research into the paradigms and innovations of post- neoclassical science. Articles are published twice a year in Azerbaijani, Russian, Turkish and English. The journal does not accept articles that reflect the personal interests of the authors and do not have scientific- theoretical or practical results. The journal is among the scientific publications recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan.

---

© Scientific works, 2024

**Təsisçi**
**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU**

**Baş redaktor**
İlham Məmmədzadə - fəlsəfə elmləri doktoru, professor
**Baş redaktorun müavini**
Eynulla Mədətli - tarix elmləri doktoru, dosent
**Məsul katiblər**
Həbib Hüseynov - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Zeynəddin Şabanov - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Redaksiya heyəti**
Bəxtiyar Əliyev - AMEA-nın müxbir üzvü (Azərbaycan)
Aleksandr Çumakov - fəlsəfə elmləri doktoru, professor (Rusiya)
Doğan Özləm – professor (Türkiyə)
Rəfiqə Əzimova - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Əli Abasov - fəlsəfə elmləri doktoru, professor(Azərbaycan)
Hüseyn Qaraşov – sosiologiya elmləri doktoru, professor (Azərbaycan)
Əbülhəsən Abbasov - fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)
Rəna Mirzəzadə - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Füzuli Qurbanov - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Adil Əsədov- fəlsəfə elmləri doktoru (Azərbaycan)
Arzu Hacıyeva - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Rafail Əhmədli - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Taxir Mahamatov - fəlsəfə elmləri doktoru professor (Rusiya)
Şaban Teoman Durali - professor (Türkiyə)
Nizami Məmmədov - fəlsəfə elmləri doktoru, professor (Rusiya)
Kerem Karabulut- professor (Türkiyə)
Ramiz Sevdimalıyev – siyasət elmləri doktoru, professor (Azərbaycan)
Sakit Hüseynov- fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)
Aydın Əlizadə -fəlsəfə elmləri doktoru (Azərbaycan)
Səadət Məmmədova –sosiologiya elmləri doktoru (Azərbaycan)
Lea Razo - Dr. prof. (Fransa)
Larussi Mizuri - Dr. prof. (Tunis)
Bogdana Todorova - Dr. prof. (Bolqarıstan)
Leyla Xəlifə - Dr. prof. (İordaniya)
Alessandro Fiqus - Dr. prof. (İtaliya)
Quido Amoretti - Dr. prof. (İtaliya)
Zöhrə Əliyeva - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent (Azərbaycan)
Abdulrəhim əl Aləmi - Dr. prof. (Mərakeş)
Zaim Xənşələvi - Dr. prof. (Əlcəzair)
Mahmud Haydar - Dr. prof. (Livan)
Arif Bünyadov – fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)
Anar Qafarov - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent (Azərbaycan)
Anar Bağırov - siyasi elmlər üzrə fəlsəfə doktoru (Azərbaycan)

**Founder**
**NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN INSTITUTE OF PHILOSOPHY AND SOCIOLOGY**

**Editor-in-Chief**
Ilham Mammadzade - Doctor of philosophical sciences, professor
**Deputies Editor-in-Chief**
Eynullah Madatli - Doctor of historical sciences, associate professor
**Executive Editors**
Habib Huseynov – Ph.D in Philosophy, associate professor;
Zeynaddin Shabanov – Ph.D in Philosophy, associate professor
**Editorial Board**
Bakhtiyar Aliyev - Associate Member of the ANAS (Azerbaijan)
Alexander Chumakov – professor (Russia)
Doghan Ozlem – professor (Turkey)
Rafiga Azimova - doctor of philosophical sciences (Azerbaijan)
Ali Abasov – professor, doctor of philosophical sciences (Azerbaijan)
Husein Garashov - professor (Azerbaijan)
Abulhasan Abbasov- professor (Azerbaijan)
Rana Mirzazada - professor (Azerbaijan)
Fuzuli Gurbanov- doctor of philosophical sciences (Azerbaijan)
Adil Asadov - doctor of philosophical sciences (Azerbaijan)
Arzu Hajiyeva - doctor of philosophical sciences (Azerbaijan)
Rafail Ahmadli - doctor of philosophical sciences (Azerbaijan)
Takhir Makhamatov – professor (Russia)
Shaban Teoman Duraly – professor (Turkey)
Nizami Mammadov – professor (Russia)
Kerem Karabulut - professor (Turkey)
Ramiz Sevdimaliyev - doctor of political sciences (Azerbaijan)
Sakit Huseinov - doctor of philosophical sciences (Azerbaijan)
Aydin Alizadeh - doctor of philosophical sciences (Azerbaijan)
Saadet Mammadova- doctor of sociological sciences (Azerbaijan)
Lea Razo- Dr. professor (France)
Laroussi Mizuri– professor (Tunisia)
Bogdana Todorova – professor (Bulgaria)
Leyla Khalifa – Dr. professor (Jordan)
Alessandro Figus - professor (Italy)
Quido Amoretti - professor (Italy)
Zohra Aliyeva - associate professor (Azerbaijan)
Abdurrahimal-Alami- professor (Morocco)
Zaim Khanshelevi - professor (Algeria)
Mahmud Haydar - professor (Lebanon)
Arif Bunyatov - professor (Azerbaijan)
Valentina Fedotova - professor (Russia)
Ahmad Gashamoglu - associate professor (Azerbaijan)
Anar Gafarov - associate professor (Azerbaijan)
Anar Bagirov - doctor of philosophy (Azerbaijan)

# İÇİNDƏKİLƏR

## SOSİOLOJİ ARAŞDIRMALAR VƏ DAVAMLI İNKİŞAF

**İlham Məmmədzadə (Azərbaycan)**
Azərbaycan sosiologiyasının inkişaf perspektivləri ........ 9
**Müslüm Nəzərov, Polad Mədədov (Azərbaycan)**
Fundamental təhsilin inkişafının qiymətləndirilməsinə akmeoloji yanaşma ........ 17

## FƏLSƏFİ BAXIŞ VƏ YANAŞMALAR

**Али Абасов, Светлана Адыгезалова (Азербайджан)**
Трилингвизм творчества Мухаммеда Физули ........ 25
**Adil Əsədov, Nailə Əsədova (Azərbaycan)**
İmmanuel Kant və postmodernizm ........ 39
**Тейюб Муталлимов (Россия)**
Пехлеванство как школа силы и духа в зеркале философского осмысления ........ 50
**Nicat Məmmədov (Azərbaycan)**
Cənubi Azərbaycanda məşrutə inqilabı və Ş.M.Xiyabani hərəkatı dövründə ictimai-fəlsəfi fikrin inkişafı ........ 58
**Эмир Ашшурский (Украина)**
Религия и наука - против ложных идей и верхоглядства
*(Еще раз о реальных и по-настоящему эффективных механизмах эволюции)* ........ 67
**Ясмина Меликова (Азербайджан)**
Лирический персонаж в литературе и на сцене: сквозь призму эстетики ........ 74
**Джамиля Гашимова (Азербайджан)**
Низами Гянджеви и его национальная идентичность ........ 79
**Тамерлан Гаджиев (Азербайджан)**
Этика искусственного интеллекта: тенденции, вызовы, решения ........ 84

## EPİSTEMOLOGİYA VƏ MƏNTİQ

**Əbülhəsən Abbasov (Azərbaycan)**
İctimai meqatrend və islahat: postneoklassik təhlil ........ 89
**Kerem Karabulut (Türkiye)**
Türkiye ve Azerbaycan’ın yapay zeka çağına hazırlanması ........ 110
**Əlişirin Şükürov (Azərbaycan)**
Entropiya və qeyri-səlis çoxluqlar nəzəriyyəsi — xaosdan harmoniyaya: sinergetik aspektlər ........ 116
**Pərvanə Yusifova (Azərbaycan)**
Sillogistika nəzəriyyəsinin formal deduktiv-məntiqi sistemlərdə tətbiqinin xüsusiyyətləri ........ 125

## SİYASİ ELMLƏR: NƏZƏRİYYƏ VƏ REALLIQLAR

**Гюнель Меликли (Азербайджан)**
Азербайджано-Российские отношения: основные тенденции развития ........ 131
**Əsədullah Süleymanov (Azərbaycan)**
Azərbaycan — Cənubi Qafqazda və Xəzəryanı bölgədə yeni reallıqların aktoru kimi ........ 136
**Elmar İsmayılzadə (Azərbaycan)**
Bosniya və Herseqovinada hibrid sülh quruculuğu proseslərində ali nümayəndənin iştirakı ........ 141

# CONTENS

## SOCIOLOGICAL STUDIES AND SUSTAINABLE DEVELOPMENT

**Ilham Mammadzada (Azerbaijan)**
Development perspectıves of Azerbaıjan socıology ........................ 9
**Muslim Nazarov, Polad Madadov (Azerbaijan)**
Acmeological approach to the evaluation of the development of fundamental education ................ 17

## PHILOSOPHICAL VIEW AND APPROACHES

**Ali Abasov, Svetlana Adigezalova (Azerbaijan)**
Trilingualism of the creativity of Muhammad Fuzuli ........................ 25
**Adil Asadov, Naila Asadova (Azerbaijan)**
İmmanuel Kant and postmodernısm ........................ 39
**Mutallimov Teyyub (Russia)**
Pahlavanism as a school of strength and spirit in the mirror of philosophical reflection ................ 50
**Nijat Mammadov (Azerbaijan)**
Development of social and philosophical thought during the period of the mashrutah revolution and the movement of Sheikh M. Khiyabani in Southern Azerbaijan ........................ 58
**Emir Ashursky (Ukraine)**
Science and church - against false ideas and superficiality. (Once again about real and truly effective mechanisms of evolution) ........................ 67
**Yasmina Malikova (Azerbaijan)**
Lyrical character in literature and on stage: through the prism of aesthetics ........................ 74
**Jamila Hashimova (Azerbaijan)**
Nizami Ganjavi and its national identity ........................ 79
**Tamerlan Hajiyev (Azerbaijan)**
The ethics of artificial intelligence: trends, challenges and solutions ........................ 84

## EPISTEMOLOGY AND LOGIC

**Abulhasan Abbasov (Azerbaijan)**
Public megatrend and reform: post-neoclassıcal analysıs ........................ 89
**Kerem Karabulut (Turkiye)**
Preparing Turkiye and Azerbaijan for the age of artificial intelligence ........................ 110
**Alishirin Shukurov (Azerbaijan)**
Entropy and fuzzy set theory – from chaos to harmony: synergetic aspects ........................ 116
**Parvana Yusifova (Azerbaijan)**
The features of the application of syllogistics theory in formal deductive logical systems ............ 125

## POLITICAL SCIENCES: THEORY AND REALITIES

**Gunel Malikli (Azerbaijan)**
Azerbaijani - Russian relations: stages and trends of development ........................ 131
**Asadullah Suleymanov (Azerbaijan)**
Azerbaıjan as an actor of new realıtıes ın the South Caucasus and the Caspıan regıon ................ 136
**Elmar Ismayilzadeh (Azerbaijan)**
The participation of the high representative in hybrid peacebuilding processes in Bosnia and Herzegovina ........................ 141

## SOSİOLOJİ ARAŞDIRMALAR VƏ DAVAMLI İNKİŞAF

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2024.1(42).001**

# AZƏRBAYCAN SOSİOLOGİYASININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**İlham Məmmədzadə**
Fəlsəfə elmləri doktoru, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
ilham_mamedzade@mail.ru

**Xülasə.** Azərbaycanda sosiologiya necə inkişaf edir, süni intellekt (Sİ) dövründə onun hansı tərəqqi perspektivləri mövcuddur, o necə transformasiya edilir və sosial gerçəkliyə necə təsir göstərə bilər – bütün bunlar yalnız bizim üçün deyil, başqaları üçün də böyük maraq kəsb edən məsələlər sırasına aiddir. Sözsüz ki, onları aydınlaşdırmaq üçün, həm sosiologiyanın respublikamızda necə təşəkkül tapdığını, həm də bu sahədəki təcrübəmizin Qərb sosiologiyasında baş verən hadisələrlə hansı münasibətlərdə olduğunu nəzərdən keçirmək lazımdır. Müəllif belə bir qənaətə gəlir ki, inkişaf perspektivləri vaxtilə cəmiyyətin sosial yeniliyi haqqında müəyyən dərəcəyə qədər əhatəli təsəvvür təqdim etmək və ya təqdim edə bilmək iddiasında olan dissiplinar sosiologiyanın inkişaf impulsunun tükənməsinin etirafı ilə şərtləndirilir. O, israr edir ki, sosiologiyanın, eləcə də digər sosial elmlərin inkişafı üçün fənlərarası tədqiqatlar dövrü gəlib çatmışdır: bu zaman sosiologiya bütün sosial tədqiqat konseptinin, o cümlədən Sİ sahəsindəki elmlərin məlumat və nəticələrindən faydalanaraq müasir gerçəkliyin ona pozitiv təsir göstərməyə və neqativ təsirlərin qarşısını almağa qadir bir hissəsinə çevirilir. Bu prosesdə çox şey sosioloqların peşəkarlıq səviyyəsindən, onların peşə etikasından, fənlərarası kollektivdə işləmək hazırlığı və qabiliyyətindən asılıdır. Aydındır ki, Azərbaycan təcrübəsinə gəldikdə söhbət, ilk növbədə filosoflarla birlikdə işləməkdən gedir.

**Açar sözlər:** sosiologiya, fəlsəfə, böhran, süni intellekt, sosiologiyanın fəlsəfəsi

### Azərbaycanda sosiologiyanın təşəkkülünün ilkin mərhələsi haqqında

Azərbaycanda elmi sosiologiyanın təşəkkülünün başlanğıcını XX əsrin 60-cı illərinə aid etmək olar. O zaman Sovet İttifaqında fəal surətdə konkret sosioloji tədqiqatlar aparılmağa başladı, amma sosiologiya nəzəriyyəsinə münasibət daha soyuq və sxolastik idi. Çünki hesab olunurdu ki, tarixi materializm elminin özü elə məhz tədqiqat nəzəriyyəsi, metodologiyası və məntiqidir. Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunda sosioloji nəzəriyyə sahəsində tədqiqatların aparılması istiqaməti üzrə bəzi cəhdlər olmuşdur. O dövrdə və sonralar bu sahədə müəyyən işlər görülmüş, lakin indiyə kimi nəzəri cəlb edən heç bir əsər qalmamışdır. Bir qayda olaraq Azərbaycanda ilk sosioloqlar filosoflar arasından çıxmışdır. Yalnız 80-ci illərdə ictimai rəyin öyrənilməsi sahəsində fəal surətdə konkret sosioloji tədqiqatlar aparılmağa başladı və Bakı Kondisioner Zavodunda ədalət və müasir əxlaq, millətlərarası münasibətlər və beynəlmiləlçilik tərbiyəsi, ailə münasibətləri, burjua təsiri ilə mübarizə və s. bu kimi müxtəlif aktual mövzu və problemlərə dair fərqli işçi qruplar arasında sorğular keçirilirdi. Xatırlayırıq ki, sorğu və onun nəticələrinin öyrənilməsi kimi başa düşülən sosiologiyaya bu cür münasibət etikada da mövcud idi. Belə ki, 1983-cü ildə "Bilik" cəmiyyəti bu məqalə müəllifinin Qərbdə sorğuların və ictimai rəyin özünün hakim sinif, kapitalizm və s. tərəfindən manipulyasiya obyekti kimi istifadə olunduğunu göstərən "Burjua əxlaqının böhranı" («Кризис буржуазной морали») adlı broşür nəşr etmişdi. O illərdə ərsəyə gətirilmiş əsərlərin pozitiv əhəmiyyətinin dəyərləndirilməsində mübaliğəyə varmayaq və qeyd edək ki, həmin əsərlərdə XX əsr Qərb sosioloqlarının baxış və yanaşmaları, sorğuların

keçirilməsi metodologiyası və məlumatların təhlili, siyasət və əxlaq sahələrində aparılan sorğuların qarşılıqlı əlaqəsinin, bazar sosiologiyası, burjua, vətəndaş cəmiyyəti və orta sinfin mahiyyətinin dərki və s. öz əksini tapmışdı. Güman etmirik ki, bunu sosiologiyanın başlanğıcı hesab etmək olar, zira məlumatlar çox vaxt elmdə deyil, partiya təbliğatında tətbiq olunurdu. Azərbaycanın o dövrdəki Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda çalışanların çoxu sorğuların nəticələrindən rayon partiya və komsomol komitələrində istifadə edildiyini xatırlayır. Bununla belə, fəlsəfə ilə sosiologiyanın bir-birindən nə ilə fərqləndiyi, fəlsəfənin daha ümumi qəbildən olan metodologiyası, məntiq və nəzəriyyə, sosiologiyanın isə cəmiyyət, ictimai tərəqqi haqqında nəzəriyyə olduğu (bu zaman sorğu və statistik məlumatlar cəmiyyətin konkret vəziyyəti xüsusunda ümumiləşdirmələr üçün yalnız material olur) barədə o dövrdə aparılan diskussiya yadda qalmışdır. O zaman biz sosiologiyanın fəlsəfəsi və ya fənlərarası tədqiqatlar məfhumlarından istifadə etmirdik, fəqət, görünür, anlayırdıq ki, fəlsəfə və sosiologiya bir növ vəhdət təşkil edir, daha doğrusu, sosiumun inkişafı üçün zəruri olan sosial bir elmlərdir. F.Fukuyamanın 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində məşhurlaşmış “Tarixin sonu və sonuncu insan” adlı məqaləsində, sonra isə kitabında fəlsəfə ilə sosiologiyanın vəhdəti ideyası araşdırılırdı və həmin ideya öz təsdiqini tapdı. Halbuki, bütün başqalarına yalnız göstərişlərə əməl etmək qaldı. Fukuyama yazırdı ki, müasir sosial elm “...iqtisadi məhsuldarlığın artması üçün vahid şəklə salınmış geniş meydan yaradır...Bu proses tarixi köklərindən və mədəni irsindən asılı olmayaraq, bütün bəşər cəmiyyətlərinin homogenliyinin artmasına təminat verir. İqtisadi modernləşməyə məruz qalmış bütün ölkələr bir-birinə son dərəcə oxşar olmalıdır: onlarda mərkəzləşdirilmiş dövlət əsasında milli birlik mövcud olmalıdır, onlar urbanizasiyalaşır, cəmiyyətin qəbilə, təriqət və klan kimi ənənəvi təşkilat formalarını funksiya və səmərəlilik üzərində təsbit olunmuş iqtisadi cəhətdən rasional formalarla əvəz edir və öz vətəndaşlarını universal təhsillə təmin edirlər. Qlobal bazarlar vasitəsilə bu cür cəmiyyətlərin qarşılıqlı əlaqəsi və universal istehlak mədəniyyətinin yayılması artır”. (14, s.12-13).

Bu səbəbdən Sovet İttifaqı süqut etdikdən sonra Qərb sosial elmi məşhurlaşdı, sosiologiya, sosioloji tədqiqatlar nəzəriyyəsi və metodologiyası da oradan nüfuz etməyə başladı. Q. Almond, S.Verba, D.Bell, Z.Bauman, E.Giddens, T.Parsons və başqalarının adları isə artıq o dövrdə hamının dilində idi. Heç O.Kontu demirik, fəqət bizim alimlərə elə yenə də konkret sosioloji tədqiqatlarla məşğul olmaq, yəni bu və ya digər dərəcədə dəqiqliklə əhalinin müxtəlif təbəqələrinin ictimai rəyini öyrənmək qaldı. XX əsrin 90-cı illərində ozamankı Fəlsəfə və Hüquq İnstitutunda gender üzrə tədqiqatlar aparılırdı, analoji adda jurnal nəşr olunurdu və orada ilk rolları Azərbaycan filosofları Ə.Abasov, Z.Quluzadə, R.Mirzəzadə ifa edirdilər. Onu da qeyd edim ki, həmin dövrdə Etika şöbəsində əxlaq sosiologiyası, siyasi sosiologiya və s. sahələrə aid məqalələr dərc olunurdu. Amma yenə də nəzəri sosiologiya sahəsində əldə olunmuş xüsusi nailiyyətlər yox idi. Qeyd edə bilərik ki, gender sosiologiyası, əxlaq və gənclik sosiologiyası, vətəndaş cəmiyyətinin sosioloji problemləri artıq o dövrdə formalaşmışdı və aydın oldu ki, liberal yönəliklərə cavab olaraq milli ideologiya, ölkə mədəniyyətinin özgünlüyü məsələlərinə maraq formalaşacaqdır. O zaman Fəlsəfə və Hüquq İnstitutunda, misal üçün, «Гражданское общество и национальная идеология: философия политического процесса в Азербайджане» (“Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi proses fəlsəfəsi”, Bakı, 1995) (1) adlı kiçikhəcmli əsər nəşr olunmuşdu. Elə məhz həmin illərdə İnstitutda Sosiologiya şöbəsi yaradıldı. Fəlsəfə və Sosiologiya İnstitutunda sosiologiyanın formalaşmasının ilkin qısa tarixi və fəlsəfəsi belədir və bu, respublikada da təkrar olundu. Təbii ki, o dövrdə Azərbaycanda olan çoxsaylı Qərb emissarları əhalinin əsas qruplarının, o cümlədən gənclərin ən aktual məsələlərlə bağlı rəyi ilə maraqlanırdılar, fəqət, görünür, bu maraq inkişaf üçün deyil, onların şüuru ilə manipulyasiya etmək məqsədi daşıyırdı. Elə bu səbəbdən də Qərb qrantları ilə ictimai rəyin öyrənilməsi üzrə müxtəlif mərkəzlər təşkil edilirdi. Öyrənə bildilər, ya yox – indiki halda bu, tədqiqatımız üçün bir o qədər də maraq və əhəmiyyət kəsb etmir. Düşünürük ki, onlar öyrənmədilər, zira aydın oldu ki, onların tamamilə başqa, ölkə və onun inkişafı ilə bağlı olmayan vəzifələri var idi. Bundan əlavə, Azərbaycanın modernləşməsi nəzəriyyəsi lap əzəldən öz gücü, ənənələri və elminə əsaslanaraq müasirləşmə kimi başa düşülürdü. Vurğulayırıq ki, bu modernləşmədə Heydər Əliyevin liderlik xüsusiyyətləri, onun inkişafın yalnız mentalitet və ənənələrə, mədəniyyət və tarixə istinad edilən zaman gerçəkləşdiyini və uğurlu olduğunu anlaması

xüsusi rol oynamışdır. Bu ən mühüm direktivin həyata keçirilməsi İlham Əliyevin ölkənin modernləşdirilməsi üzrə fəaliyyətində də davam etdirildi.

**Sosioloji tədqiqatlar və müasir təmayüllər haqqında**

İndi isə fəlsəfəsiz konkret sosioloji tədqiqat metodologiyasının, ikinci tərtib nəzəriyyəsinin heç də sadə məsələ olmadığı və ona yiyələnməyin zəruriyyəti barədə. Bütün ölkələrdə iqtidar və cəmiyyət ictimai rəylə maraqlanır, fəqət onu tədqiq etmək heç də sadə iş deyil. Bu, ciddi məsələdir, onsuz həm idarəetmə və qərarların qəbulu, həm də gələcəyin proqnozlaşdırılması işi çətinləşir. İctimai rəy sorğularını bir qayda olaraq, İctimai Rəyi Öyrənmə Mərkəzləri aparırdı və təbii ki, Akademik İnstitut bu məsələnin nəzəriyyəsinin hazırlanması ilə məşğul olmalı idi. Belə ki, bu sahədə müəyyən işlər görülmüşdü, hərçənd onların – Mərkəzlərin işə təsirinin kifayət qədər şərti olduğunu qeyd edərək vurğulamaq lazımdır ki, həmin Mərkəzlərin işində məhz o dövrdəki Fəlsəfə və Hüquq İnstitutunda və ya indiki Fəlsəfə və Sosiologiya İnstitutunda püxtələşmiş sosioloqlar iştirak edirdilər. Onlardan bir neçəsinin adını çəkək: Ə.Əliyev, T.Fərəcov və başqaları. Onların Azərbaycanda ictimai rəyin öyrənilməsi metodologiyası sahəsində ayrı-ayrı uğurlu əsərləri olmuş, Ə.Əliyevin sonuncu kitabı isə lap bu yaxınlarda işıq üzü görmüşdür. (Bax: Али Алиев, Ризван Абасов. Глас народа: мифы и реальность, Баку, 2024 – Əli Əliyev, Rizvan Abasov. Xalqın səsi: miflər və gerçəklik, Bakı, 2024) (10). Beləliklə, indi aydın oldu ki, yalnız sorğu-sualların tərtib edilməsi metodikası və qabiliyyətinin, cavabların hesablanması və təhlilin mövcudluğu kifayət deyil, çünki Sİ-nin inkişafı ilə əlaqədar elə bir durum yaranmışdır ki, ictimai rəy sorğuları onu bütün zənginliyi ilə göstərmir. Artıq medianın sosiologiyasını öyrənmək zərurəti yaranmış və bu sahə üzrə İnstitutda əsərlər yazılmışdır. Təəssüflər olsun ki, bu əsərlər bir qayda olaraq kiçik tirajla nəşr olunduğundan onların təsiri də əhəmiyyətli dərəcədə olmur. Bundan əlavə, artıq rəqəmsal sosiologiya təşəkkül tapmağa başlayır ki, bu zaman əhalinin müxtəlif qrupları, cürbəcür mədəni oriyentirlər və s. xüsusunda ayrı-ayrı mənbələrdən olan fərqli məlumatları müqayisə etmək lazım gəlir. Məlumatların bolluğu sosiologiyanın metodologiyasını, daha doğrusu, sosiologiya fəlsəfəsini, elm və bilik sosiologiyasını, mədəniyyət sosiologiyasını yenidən işləyib hazırlamaq zərurətini şərtləndirir, hərçənd bu, siyasət, beynəlxalq münasibətlər, mədəniyyət, gender, gənclər və bir çox başqa sferalar sosiologiyası sahəsində tədqiqatların aparılması zərurətini inkar etmir. Bu gün Azərbaycan ictimai rəyi qəlizləşib; yeni qruplar, yeni şüur tipləri yaranıb və bu qrupların bir-birilə necə təmasda olduğunu, onların rəyində, şüurunda təbəddülatlara nələrin təsir göstərdiyini, onların hansı qiymətləndirmə və tələb meyarlarının mövcud olduğunu və s. müəyyən etmək əhəmiyyət kəsb edir. Lakin sosioloqlar arasında metodologiyanın Qərb sosiologiyasından, onların “ağıllı beyinlərindən” gəldiyi haqda fikir hələ də üstünlük təşkil edir. Məlumat almaq mümkündür və lazımdır, lakin onları yalnız öz yanaşma və həllərimizi işləyib hazırlamaqla, inkişaf etdirməklə, müxtəlif məlumat və motivasiyaları tutuşdurub yoxlamaqla (hesablayan və müqayisələndirənlər də əhatə olunmaqla) tətbiq etmək olar.

Qeyd edək ki, İnstitutda sosiologiya problemlərinin bu və ya digər dərəcədə tədqiq edildiyi dörd şöbə fəaliyyət göstərir. Məs., sosiologiya elmləri doktoru S.Məmmədova sosiologiya üzrə (həmmüəlliflik ilə) dərs vəsaiti hazırlamışdır. O, həmçinin rəqəmsal sosiologiya problemləri üzərində işləyir; fəlsəfə elmləri doktoru A.Əlizadənin əmək sosiologiyasına aid kitabı və fəlsəfə doktoru İ.Abbasovun müharibələrin tarixi və sosiologiyasına dair məqalələri haqqında xeyli pozitiv fikirlər söyləmək olar. Şöbələr yaradılarkən nəzərdə tutulurdu ki, filosof və sosioloqlar siyasət, davamlı inkişaf, informasiya ilə bağlı birgə tədqiqatlar həyata keçirəcəklər, yəni sosiologiya fəlsəfəsi təşəkkül tapacaq, alimlər arasında, təbii ki, süni intellektdən istifadə etməklə, birgə tədqiqatların aparılması təcrübəsi yaranacaq. Nəzəriyyə sahəsində, təəssüf ki, hələlik heç bir əsər hazırlanmayıb. Əsasən hazırda və keçmişdə görülmüş işlər, gedən proseslər haqqında məlumatlar vardır. Fəqət sosioloji nəzəriyyə, sosiologiya fəlsəfəsi – tarix deyil və ya yalnız tarix deyil, bu, cəmiyyətin təfəkkürünün xüsusiyyəti və sosial özgünlüyünü, sosial düşüncə tərzinin necəliyini, (“xalqın səsi” adlanan) ictimai rəyin ondan nə ilə fərqləndiyini, onun təbəddülatlarının və təfəkkür keyfiyyəti artımının mümkün təmayüllərinin proqnozlaşdırılmasının hansı məlumatlar və ideyalar əsasında mümkün olduğunu aşkar etmək bacarığıdır. Fəlsəfə doktoru E.Rüstəmovun rəhbərlik etdiyi bir qrup sosial psixoloqlarımızın bir neçə məqaləsi də yüksək reytinqli xarici jurnallarda dərc olunmuşdur. Bu

əsərlər bizim və xarici sosioloji mərkəzlərin pozitiv rəyini qazanmışdır. Fəqət bu işlərdə yenə də gənclərin şüurunda və davranışındakı dəyişiklik təmayülləri aşkar edilməmiş, əvəzində onların indi yalnız müxtəlif şeylər haqqında nə və necə düşündükləri barədə məlumat verilir. Bundan sonra isə nələrin olacağı xüsusunda suallara məqalələrdə cavab verilmir. Biz bu problemlərlə ona görə məşğul olduq ki, artıq nəinki sosiologiyanın, hətta bütövlükdə sosial elmlərin inkişaf dövrü gəlib çatmışdır. Biz fəlsəfədə transformasiyaların zəruriliyi, tətbiqi fəlsəfənin inkişafı barədə yazmışıq, kulturologiya, mədəni-tarixi epistemologiya və politologiyaya həsr olunmuş əsərlərimiz vardır. Başqa sözlə, sosial elmlərdəki təbəddülatların fənlərarası yanaşmanı tətbiq etmək bacarığından asılı olduğunu üzə çıxarmağın, yəni sosiologiya fəlsəfəsinə, mədəniyyət fəlsəfəsinə, siyasət fəlsəfəsinə və i.a. qayıtmağın, fənlərarası tədqiqat dilini yaratmağın, məlumatları əlaqələndirmək, onları müqayisə etmək və ictimai şüurun nə olduğu və necə fəaliyyət göstərdiyi, özünü necə dərk və ifadə etməyin qərar qəbul edilməsinə necə təsir göstərdiyi barədə ümumi nəticələrə gəlməyi bacarmağın vaxtı çatmışdır.

Qeyd etmək lazımdır ki, ictimai rəyi məhz onu öyrənmək üçün yaradılmış xüsusi mərkəzlər tədqiq edir, fəqət, fikrimizcə, təbii olaraq belə bir sual meydana çıxır: bəs biz onu nə üçün öyrənirik, o, şüurumuza, həyatımıza necə təsir göstərir? Zənn edirik ki, bütün bu fəlsəfi-sosioloji məsələlər kompleksi bizə yaşadığımız cəmiyyəti dərk etmək üçün lazımdır. Bunun üçün isə yalnız rəyin özünü bilmək yetərli deyil. İctimai şüur, sosiumda cəmiyyətə aid, idarəetmənin xüsusiyyətləri və nəhayət, mədəniyyət, siyasi və iqtisadi maraqlar və s. – bütün bunlar haqqında bilikləri müəyyən etmək gərəkdir. Amma ictimai elmlərdə ayırıcı xətlər o qədər böyükdür ki, yalnız ayrı-ayrı alimlərin onları dəf edəcəyinə ümid etmək qalır. Nəzərə almaq lazımdır ki, Sİ, rəqəmsal şüur və elektron elmin hökm sürdüyü dövrdə bizim müstəqil sosioloji tədqiqatların meydana çıxmasını gözləmək imkanımız yoxdur və sosial elmlərin inkişafına, müasir sosial gerçəkliyin dərk edilməsinə, onun siyasi həyat və dövlətlərarası münasibətlərdə istifadəsinə və s. tələbat vardır.

Müharibədə çaldığımız qələbə, “yaşıl” energetikaya keçiddə fəallaşma, Cənubi Qafqazda geosiyasi gerçəkliyin yeni dərki, COP-29-un keçirilməsi – bütün bunlar sosial elmlərin yeni roluna, ekoloji əxlaqın təsbit edilməsinə, rəqəmsal “yaşıl” şüurun əxlaqla əlaqələndirilməsinə tələbatın olduğuna dəlalət edir. Azərbaycan Prezidentinin bütün bu və bir çox digər istiqamətlərdəki fəaliyyəti onu təsdiq edir ki, o, təkcə siyasi, dövlətlərarası, geosiyasi deyil, sosial gerçəkliyi dəyişdirir. Amma bu kursu ictimai rəy və şüur, elitanın və siyasi qrupların şüuru və s. tərəfindən dərk olunması ilə qüvvətləndirmək zəruridir. Xatırlayaq ki, ölkə Prezidenti milli ideyanın yeni anlayışının, onun öz tarixi anlayışı çərçivəsindən kənara çıxmasının zəruri olduğunu bəyan etmişdir. Başqa sözlə, bütün bu məsələlər üzərində etnosiyasət və etnososiologiya ideologiya ilə birlikdə işləməlidir. Həmin sahədə ayrı-ayrı əsərlər yazılmış və onlarda, bir qayda olaraq, fəlsəfi-sosioloji və tarixi, fənlərarası qovuşuq baş verir (İlham Məmmədzadə, Sənan Həsənov. “Heydər Əliyev və İlham Əliyev: Güclu Dövlət, Qələbənin Fəlsəfəsi, Böyük Qayıdış”, Bakı, 2023) (6). Bu işdə KİV-dən materiallar toplanmış, respublika Prezidentinin həm yerli, həm də xarici mətbuat və televiziya kanallarına verdiyi müsahibələr təhlil edilmiş, İnternet kanallarından götürülmüş məlumatlardan istifadə olunmuş və nəhayət, nəticə olaraq qələbəmizin düsturu çıxarılmışdır. Bununla əlaqədar vurğulamaq lazımdır ki, azərbaycançılıq ideologiyası ilə bağlı xeyli əsər yazılmış, fəqət onlardakı məlumatlar çox vaxt kitablardan, daha az hallarda (görünür, hələlik) internet mediasından əldə edilmiş, nadir hallarda isə YouTube kanalının resurslarından əldə olunmuşdur. Başqa sözlə, filosof və sosioloqlar ideoloji problemlərin təhlilində ümumiləşdirmələrdən ideologiya və tərbiyənin konkret məsələlərinə keçməyə cəhd göstərirlər. Və bu, ayrıca tədqiqat mövzusudur.

Məqaləmiz sosioloji nəzəriyyə məsələlərinin dərindən tədqiq edilməsi, Qərb sosioloqlarının əsərlərinin başqalarının həqiqətlərinin təkrarlanmasına deyil, dərk olunmasına və konkret material və məlumatlar əsasında tədqiqatlara və ümumiləşdirmələrə təkan verməsinə nail olma üsullarına həsr edilmişdir. Əgər respondentlərin 50%-inin “lehinə”, 50%-inin isə “əleyhinə” olduğu tipli ümumiləşdirmələr aparmaq asan olsun deyə, kiçikhəcmli sorğular keçirilsə, o zaman sosial gerçəkliyi, sosial varlığı dərketmə nəzəriyyəsinin yaradılmasına, nəzəriyyədən perspektiv reallığın dərkinə və qabaqcadan görülməsinə keçid üçün istifadə etmək yollarının tapılmasına doğru sıçrayış baş verəcəkmi? Onu da qeyd edim ki, biz vaxtilə siyasi sosiologiyanın problemlərini tədqiq etmişik

(Ильхам Мамедзаде. «Кризис буржуазной морали», Баку, 1983; Ильхам Мамедзаде. «Политика и мораль» Баку, 1988 и др. - İlham Məmmədzadə. “Burjua əxlaqının böhranı”, Bakı, 1983; İlham Məmmədzadə. “Siyasət və əxlaq”, Bakı, 1988 və b.) (4). Və artıq həmin işlərdə bizə aydın oldu ki, sorğular cəmiyyətdə dominant şüuru, yeni tranzitiv şüur tiplərinə keçidi müəyyən etmək üçün sosial şüur, davranış və hərəkət növlərini anlamaq, həmçinin bu gün hansı tip gənclərin üstünlük təşkil etdiyini və inkişafın keçmişdən bu günə hərəkətini və onun cəmiyyətdə şüur növlərinin dəyişməsi ilə bağlılığını və məsələn, Sİ-nin ona təsir tərzini aşkar və izah etmək məqsədilə aparılır. Bizdə bir çoxları süni intellekti tənqid edir, onsuz inkişafın atrıq mümkün olmayacağının fərqinə varmayaraq onun istifadəsini məhdudlaşdırmaq, gəncləri ondan çəkindirmək istəyirlər. Onu da qeyd edək ki, biz Azərbaycanın modernləşdirilməsinin təhlili üzrə bir neçə əsər hazırlamışıq və onlarda yuxarıda qeyd olunan şüur tiplərinin təbəddülatı məsələlərinə bu və ya digər dərəcədə toxunmuşuq (Ильхам Мамедзаде. «Опыт интерпретации морали» Баку, 2006; «Вместо предисловия. Ильхам Мамедзаде. «От кризиса к взаимодействию культур и будущему миропорядку» - bax: «Философия взаимодействия культур и новый «шелковый путь», Баку, 2020, «ELM VƏ Təhsil» C.8-17 kitabında – İlham Məmmədzadə. “Əxlaqın təfsiri təcrübəsi”, Bakı, 2006; “Ön söz əvəzi. İlham Məmmədzadə. “Böhrandan mədəniyyətlərin qarşılıqlı təsiri və gələcək dünya düzəninə doğru”, Bax: «Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və yeni “İpək Yolu”», Bakı, 2020, “Elm və Təhsil”, səh.8-17) (5) Bu əsərlərdə biz şüur növlərinin dəyər əsasları, cəmiyyət və əxlaqi sistemlərin transformasiyasının səbəbləri, ailə problemi və şəxsi “mən”in azadlığı məsələlərini, həmçinin bu məsələlərin siyasət, iqtisadiyyat, beynəlxalq düzən və texnoloji tərəqqidə təbəddülatlarla necə bağlı olduğunu nəzərdən keçiririk.

## Qərb sosioloji fikrinin böhranı haqqında

Bəzi alimlərimizin fikrincə, Azərbaycan sosiologiyasının problemləri dilimizə tərcümə edilmiş sosiologiyaya dair ədəbiyyatın az olmasından irəli gəlir və bu sahədə təhsil verilməsi zəruridir. Bu yalnız maarifçilikdir. Etiraf etmək lazımdır ki, bizdə çox vaxt elmlə, həqiqət axtarışı ilə maarifçiliyi, bilik öyrətməyi qarışıq salırlar. Əlbəttə, görünür, müxtəlif bilik növləri mövcuddur. Lazım olan yalnız kitab, sitat və tövsiyələr deyil, metodologiyaları, metodikaları tətbiq etmək və nəticə əldə etmək qabiliyyətinin olması gərəkdir, başlıcası ən əsası isə bizim cəmiyyətin Qərb və həmçinin Şərq cəmiyyətlərindən nə ilə fərqləndiyini dərk etməkdir. Fəqət bu, başqa bir mövzu və geniş tədqiqat tələb edən məsələdir. Hələlik isə qeyd edək ki, getdikcə artan informasiya axını XXI əsrdə sosiologiyanı gözlənildiyinə rəğmən, aparıcı sosial elm kimi təsbit etmək əvəzinə, onun böhranına gətirib çıxardı. Bir çoxları hesab edir ki, böhran guya Sİ-nin inkişafı ilə şərtləndirilmişdir. Lakin, əslində, (bunu bizdə də hiss edirik), həm sosiologiya barədə refleksiyanın tətbiqi biliklərdən ayrılması, həm də elmlər arasında səddlərin çəkilməsi ilə birlikdə prosesi izah etməyin onu anlamaq və qabaqcadan görmək demək olmadığının, elmin bilik əldəetmə prosesi olduğunun və biliyin onun yoxlanılması ilə qırılmaz surətdə bağlılığının, həqiqətin mütləq olmadığının və s. dərki itirildi. Yeri gəlmişkən, Qərb sosiologiyasında təkcə böhrandan deyil, həm də sosiologiyanın sonundan bəhc edirlər, çünki Sİ-nin inkişafı süni intellekt fəlsəfəsi və sosiologiyasını, fənlərarası tədqiqatlar fəlsəfəsi və sosiologiyasını yaratmağı şərtləndirdi. Ölkəmizdə bu gün bəzi sosioloqlar, o cümlədən O.Kont və E. Dürkheym, sosiologiyanın hər yerdə fəlsəfəni sıxışdırıb çıxarmağa başlayacağını düşünürlər, lakin gördüyümüz kimi, bu, heç də belə olmadı. Qeyd edək ki, bu cür düşünənlər unudurlar ki, O. Kont özünün şah əsərini “Pozitiv fəlsəfənin ruhu” («Дух позитивной философии», СПб, 2001) (2) adlandırmışdır. Elmlər və biliklər arasında maneələr aradan qalxır, həqiqəti tapmaq və dərhal yoxlamaq və yeni həqiqət axtarmaq üçün müxtəlif materiallar və məlumat bazalarından, metodologiya və məntiqdən istifadə etmək bacarığı ilə birlikdə tədqiqatlar qalır. Elm deyil, biliklər, qnoseologiya deyil, epistemologiya, təkcə formal deyil, həm də riyazi məntiq dövrüdür.

Buna görə də Qərbdə sosiologiya ilə nə baş verdiyini, sosial elmlərin böhranının mahiyyətini dərk etmək, həmçinin sosiologiya və digər sosial elmlərin ölkəmizdə inkişaf etməyə başlaması üçün nə etmək lazım olduğunu anlamağa cəhd göstərmək maraq kəsb edir. Prinsipcə, bu gün elmdəki böhran Sİ ilə bağlıdır və bu, təkcə sosioloqların deyil, həm də riyaziyyatçıların, bioloqların, mühəndislərin və s. qarşısında problemlər qoyur. Bu məsələlər yalnız Qərb elmində deyil, bizdə də

tədqiq edilir. İ. Məmmədzadənin redaktorluğu ilə «Философия искусственного интеллекта и прообразы науки будущего» (“Süni intellekt fəlsəfəsi və gələcəyin elminin ilk obrazları”, Bakı, 2024) (3) kitabını qeyd edək. Və bu, dörd müəllifin süni intellekt fəlsəfəsi haqqında kitabı olsa da, onda araşdırılan problem digər elmlərə də, xüsusən sosiologiyaya da aiddir. Sİ özü mühit yaradır və çox ehtimal, tezliklə özü də onu yeni intellektual texnologiyaların vasitəsilə dərk etməyə başlayacaqır. Aydındır ki, elmin gələcəyi ondan və onun istifadə edilməsindən asılıdır, amma o, həm də bu gün üçün xeyli problem yaradır. Məsələn, sosiologiyaya müraciət etsək, Sİ sosiallığa, insanın rəqəmsal gerçəkliyi anlamasına və onun özü ilə nəyin baş verdiyinin, onu nələrin əhatə etdiyinin və onun özü üçün hansı əhəmiyyət kəsb etdiyinin dərkində necə iştirak etdiyinə təsir göstərən əlavə reallıq yaradır. Bu xüsusda A.A.Tanyuşinin “Bizim gerçəkliyi tamamlayaraq: AR-texnologiyasının fəlsəfi əsasları” // “Fəlsəfə məsələləri” № 8, 2023, s.129 (13) məqaləsini qeyd edək. Bu məqalə «AR-texnologiyalarının (ing.augmented reality – tamamlanmış, artırılmış gerçəklik) fəlsəfi əsasları” adlansa da, əslində, o, sosial elmlərin bütün palitrasına aiddir, çünki artırılmış reallıq olmadan indi, hətta daha sonra, gündəlik həyatı, cəmiyyət və fərdi tədqiq edən heç bir sferanı anlamaq mümkün deyil. Yeri gəlmişkən, artırılmış gerçəkliyi fəlsəfə və sosiologiya və ya bəlkə də yalnız koqnitiv elmlər yarada bilər və biz tamamilə başqa gerçəklik, gələcək və perspektiv əldə edəcəyik.

Bir dəfə 2000-ci illərin əvvəllərində məşhur alim, sosioloq İ. Vallerştayn çox obrazlı şəkildə demişdir: “...intellektual mənada sosiologiya yoxdur”[1] (9). Sonrakı 20 il ərzində bir çox müəlliflər bu fikri təkrarlayırdı. Məsələn, 2019-cu ildə bu haqda F.Vanderberq və S.Fuks həmmüəllifi olduqları məqalədə yazırlar ki, “...dövrlə birlikdə sosiologiya da keçıb gedir, sosiologiya nə akademik fəaliyyət, nə də bir elm olmayaraq yoxa çıxır...Bir müddətdən sonra başlayaraq sahənin özü mahiyyətini, özəyini və identikliyini itirir, boş və səthi olur...”. Qeyd edilir ki, jurnalistika və digər elmlərlə sərhədlərin yuyulması baş verir. Sosiologiya əvəzinə, jurnalist etikası, politologiya və kulturologiya inkişaf edir (8). Analoji proses, fikrimizcə, bizdə də müşahidə olunur. Sosiologiyanın “sahəsi” o səbəbdən duyulur ki, insan şüuru və davranışının Sİ ilə yeni qarşılıqlı təsiri (əlaqəsi) yaranır, fərdin seçimi isə yeni təsirlərlə və deməli, sosiallıq (sahə) və s. adlandırdığımız fenomenin məzmununun genişlənməsi ilə müəyyən edilir.

Görünür, bu səbəbdən sosial elmlərin alimləri ilə sosioloqların konseptual birliyi arxada qalır, o cümlədən fənlər daxilində fraqmentarlıq artır. Bir çoxları iddia edir ki, elmdə dissiplinar bölgü tükənib və yeni şeylər elmlərin qovuşuğunda əldə olunur. Belə çıxır ki, əgər tətbiqi sosiologiya və ümumiyyətlə, sosiologiya bu prosesi sezmirsə, cəmiyyət və ya cəmiyyətlərdə baş verənləri izah etməkdə problemlərlə üzləşir və onun, yaxud onların keçirdiyi böhran bundan ibarətdir. Bəzi sosioloq və filosoflar isə bu böhranı müəyyən edirlər. Qeyd edək ki, A.Bünyadovla birgə hazırladığımız «Milliliyin, milli özünüdərkin qeyri-səlis məntiq kontekstində epistemoloji xüsusiyyətləri» (Bakı, 2023) adlı kitabda biz kifayət qədər uzun müddət ərzində cəmiyyətin dəyərlərinin seçiminin dərki və izahında müəyyən bir dövrün dəyər məzmunundan ümumiləşdirmələrə keçiddə epistemologiya və məntiqin əhəmiyyətini müəyyən edən konseptin rolunu anlamaq zərurətini göstərməyə cəhd etmişik. Başqa sözlə, siyasi sosiologiya, gender araşdırmaları və ümumiyyətlə, hər bir sosioloji tədqiqatın məntiq və epistemologiyaya tələbatı var, əks təqdirdə uzun müddət ərzində ümumiləşdirmələr etmək və konkret məlumatlar dinamikasından faydalanmaq mümkün olmayacaqdır. Sosiologiya fəlsəfəsinin inkişafında amerikalı sosioloq R.Kollinzin mahiyyətcə elmdə fəlsəfi-sosioloji və ya sosioloji-fəlsəfi istiqamət yaratmış (11) əsərinin rolunu qeyd edək. Bəzi rus tədqiqatçıları da bu tezislə razıdırlar. Məsələn, Y.V.Popkov qeyd edir ki, “Sosial fəlsəfədə və nəzəri sosiologiyada qloballaşma və milli fraqmentləşmə təmayüllərinin qarşılıqlı surətdə şərtləndirilmiş proseslər kimi anlamaq zərurəti dərk edilib”. (12). Bu mövzuda İnternetin rus seqmentində xeyli məqalə yerləşdirilmişdir. Biz həmin məsələyə İnstitutumuzda nəşr olunmuş “Pandemiya dövründə fəlsəfə və Lütfi-zadənin qeyri-səlis

[1] «The truth is that we have no clear domain of our own. Intellectually, sociology does not exist. Of course, there are sociologists, but this is an organizational and cultural reality, which is quite different from a valid intellectual claim» – «Həqiqət budur ki, bizim özümüzə aid heç bir aydın sahə yoxdur. İntellektual mənada sosiologiya mövcud deyil. Əlbəttə, sosioloqlar var, lakin bu, etibarlı intellektual iddiadan tamamilə fərqli olan təşkilati və mədəni reallıqdır».

məntiqi” (7) adlı kollektiv əsərimizdə toxunaraq anoloji proseslər və fəlsəfə, əxlaq və etikanın, siyasi fəlsəfə, metafizika və refleksiv sosiologiyanın əməkdaşlığının zəruriliyi barədə yazmışıq. Lakin etiraf edək ki, bu əsərlərdə hələ belə bir fənlərarası diskursun təşəkkülü problemləri, mürəkkəblikləri və ziddiyyətləri nəzərdən keçirilmir. Fikrimizcə, sosiologiya fəlsəfəsi, ilk növbədə, vahid fənlərarası sintez sahəsinin dərindən tədqiq edilməsidir; fəlsəfə və sosiologiya isə təşəkküldə olan sosial nəzəriyyə və bunu etmək üçün Sİ nin imkanlarından faydalanan elmdir. Və nəhayət, onlar birlikdə ümummetodoloji və epistemoloji dəyər kəsb edirlər. Sosiologiyanın fəlsəfə çərçivəsində təşəkkülü tarixini nəzərə aldıqda bizim üçün ən başlıcası – bunun tamamilə mümkün olduğu və fikrimizcə, prosesin hətta artıq başlanğıcıdır.

Aydındır ki, fəlsəfə ilə sosiologiyanın vəhdəti, əlbəttə, onu gerçəkləşdirən alimlərdən səylər, müəyyən elmi etika və biliklər, aydın diskurs, tədqiqat və onun nəticələrinin tətbiqinin bütün mərhələlərini təsvir edən fəlsəfi və sosioloji dil tələb edən prosesdir. Bu məsələdə bilik əldə etməyin mədəniyyətdə hansı funksiyanı yerinə yetirməsi və onun dəyərinin necə dərk edilməsi müəyyən rol oynayır.

## Nəticə

Sosiologiyanın, çoxları isə hesab edir ki, ümumiyyətlə, sosial elmlərin böhran vəziyyəti həm Qərbdə, həm də Şərqdə bir çox alimlər tərəfindən qeyd olunmuşdur. Buna görə də, aydındır ki, vəziyyətdən çıxış yolu axtarılır. Adətən hesab edilir ki, böhran süni intellekt və rəqəmsal şüurun konkret sosial məlumatların əldə edilməsi yollarını çətinləşdirən və dəyişdirən inkişafı ilə bağlıdır. Fikrimizcə, Azərbaycanda fəlsəfə və sosiologiyanın təşəkkülü tarixi vəziyyətdən fənlərarası çıxış yolunun axtarışını nəzərdə tutur və bunu təşviq edir. Fəqət həmin bu axtarış müəyyən təşkilati qərarların qəbul edilməsini, fəlsəfi metodologiyanın bilik hasil edilməsi epistemologiyası, məntiq və onun cəmiyyət haqqında məlumatların əldə edilməsində tətbiq olunması kimi təsvir edilməsini, fəlsəfə və sosiologiyanın ümumi diskursunu təsvir edə biləcək ümumi fəlsəfi və sosioloji dilin yaradılmasını nəzərdə tutur. Sosioloji bilik və bütövlükdə sosial elmin perspektivləri bu məsələlərin həllindən çox cəhətdən asılıdır.

## İstifadə olunmuş ədəbiyyat


1. “Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi proses fəlsəfəsi”, Bakı, 1995.
2. Kont O. «Дух позитивной философии», СПб, 2001.
3. Məmmədzadə İ. R. “Süni intellekt fəlsəfəsi və gələcəyin elminin ilk obrazları”, Bakı, 2024.
4. Məmmədzadə İ.R. “Burjua əxlaqının böhranı”, Bakı, 1983; Məmmədzadə İ.R. “Siyasət və əxlaq”, Bakı, 1988 və b.
5. Məmmədzadə İ.R. “Əxlaqın təfsiri təcrübəsi”, Bakı, 2006; “Ön söz əvəzi. Məmmədzadə İ.R. “Böhrandan mədəniyyətlərin qarşılıqlı təsiri və gələcək dünya düzəninə doğru”, Bax: «Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və yeni “İpək Yolu”», Bakı, 2020, “Elm və Təhsil”, səh.8-17.
6. Məmmədzadə İ.R., Həsənov S. “Heydər Əliyev və İlham Əliyev: Güclu Dövlət, Qələbənin Fəlsəfəsi, Böyük Qayıdış”, Bakı, 2023.
7. Pandemiya dövründə fəlsəfə və Lütfizadənin qeyri-səlis məntiqi”. Bakı, 2021, s.29.
8. Vandenberghe F., Fuchs S. On the Coming End of Sociology // Canadian Review of Sociology. Cild 56, № 1, s. 138-143.
9. Wallerstein, Where Should Sociologists be Heading // «Contemporary Sociology», Vol. 29 # 2 , 2000, P. 306.
10. Али Алиев, Ризван Абасов. Глас народа: мифы и реальность, Баку, 2024 – Əli Əliyev, Rizvan Abasov. Xalqın səsi: miflər və gerçəklik, Bakı, 2024.
11. Коллинз Р. «Социология философии» (М.2003 – “Fəlsəfənin sosiologiyası”, M. 2003.
12. Попков Ю.В. «Интернационализация в традиционном и современном обществах», Новосибирск, 2000, с. 3- Y.V. Popkov. “Ənənəvi və müasir cəmiyyətlərdə beynəlmiləlləşmə”, Novosibirsk, 2000, s. 3.
13. Танюшин А.А. «Дополняя нашу реальность: философские основания AR-технологии» // «Вопросы философии» № 8, 2023, с.129.

14. Фукуяма Ф. «Конец истории и последний человек», «АСТ» М. 2015, с.12-13 – F.Fukuyama “Tarixin sonu və sonuncu insan”, “AST” M. 2015, səh. 12-13.

## DEVELOPMENT PERSPECTIVES OF AZERBAIJAN SOCIOLOGY

**Ilham Mammadzada**

**Abstract.** How sociology is developing in Azerbaijan, what prospects for its progress exist in the era of artificial intelligence (AI), how it transforms and how it can affect social reality - all these are among the issues that are of great interest not only to us, but also to others. It is clear that in order to clarify them, it is necessary to consider both how sociology was formed in our republic, and what kind of relationship our experience in this field has with the events taking place in Western sociology. The author comes to the conclusion that the development perspectives are conditioned by the recognition of the exhaustion of the development impulse of the disciplinary sociology, which at one time claimed to present or was able to present a comprehensive picture of the social innovation of the society. He insists that the era of interdisciplinary research has arrived for the development of sociology, as well as other social sciences: at this time, sociology will benefit from the information and results of the entire social research concept, including the sciences in the field of Sİ, to help modern reality positively influence it and prevent negative influences that becomes a capable part of it. In this process, a lot depends on the professional quality of sociologists, their professional ethics, willingness and ability to work in an interdisciplinary team. It is clear that when it comes to the experience of Azerbaijan, it is primarily about working together with philosophers.

**Keywords:** sociology, philosophy, crisis, artificial intelligence, philosophy of sociology

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ СОЦИОЛОГИИ

**Ильхам Маммедзаде**

**Резюме.** Вопрос развития социологии в Азербайджане, перспективы ее развития в эпоху ИИ, как она меняется и как она может воздействовать на социальную реальность один из интереснейших вопросов и не только для философов. Понятно, что необходимо разобраться для этого и с тем, как социология становилась у нас и соотнести наш опыт с тем, что происходит в западной социологии. Автор приходит к выводу, что перспективы развития дисциплинарной социологии, исчерпала свой импульс с признанием того, что дает или может дать более или менее исчерпывающее представление о социальной современности общества. Автор утверждает, что для развития социологии, как и других социальных наук, настал период междисциплинарных исследований, когда социология, используя данные и выводы всего концепта социальных исследований, в том числе наук в сфере ИИ, становится частью современной реальности, способной также повлиять на ее позитивное изменение и предупредить негативное воздействие. В этом процессе многое зависит и от качества социологов, и от их профессиональной этики, готовности и способности работать в междисциплинарном коллективе. Понятно, что, когда речь идет об опыте работы социологов в Азербайджане, в первую очередь речь идет о работе и связи их с философами.

**Ключевые слова:** социология, философия, кризис, искусственный интеллект, философия социологии

**Rəyçi: f.e.d. Dilarə Müslümzadə**

**UOT 1. (3.37)**
**https://doi.org/10.30546/ifs.2024.1(42).003**

# FUNDAMENTAL TƏHSİLİN İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİNƏ AKMEOLOJİ YANAŞMA

**Müslüm Nəzərov**
fəlsəfə elmləri doktoru, dosent, **Azərbaycan**
**Polad Mədədov**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent, **Azərbaycan**
muslimnazarov@mail.ru
https://orcid.orq/0000-0001-6549-6831

Bu baxımdan postmodernizmi modernizmin inkarı kimi deyil, davamı kimi qiymətləndirmək daha məntiqi olmuş olardı.

Burada, sözsüz ki, modernizm və postmodernizm arasındakı münasibətlərə dair digər yanaşmaların da yaşama hüququ vardır. Heç də təsadüfi deyildir ki, müasir Qərb estetiklərinin fikirlərində postmodernizm estetikasının mahiyyətinə yanaşmada bir sıra ziddiyyətli məqamlar özünü göstərir. Əgər estetik nəzəriyyələrdə postmodernizm mərhələsinə bir tərəfdən modernizmin davamı kimi yanaşılırsa, digər tərəfdən ona modernizm estetikasından fərqli və ya ona əks olan yeni bir məzmun kimi yanaşılır. Bu, bilavasitə postmodernist incəsənətdə və postmodernizm estetikasında özünə yer almış eklektik fikirlərlə izah oluna bilər. Belə ki, postmodernizm estetikasında gözəlliyin modernizmə xas olan mücərrəd qavrayış formaları davamlı şəkildə inkişaf etdirilmişdirsə, digər tərəfdən, modernizm estetikasına əks olaraq gözəlliyin ənənəvi estetikada qəbul edilmiş həddlərinin yenidən postmodernist incəsənətə tətbiq edilməsi tendensiyaları müşahidəolunmağa başlamışdır. Müqayisəli təhlil prosesində postmodernist estetik təfəkkürün modernist estetik düşüncə ilə bir sıra ümumi cəhətlərini göstərmək də mümkündür, həmçinin onları fərqləndirmək də. Onların hər ikisi üçün ümumi cəhətlər sırasına sistemlilikdən yayınma, sintetiklik, elmi biliyə skeptik münasibət, estetik dəyərlərin tənəzzülü ilə bağlı pessimist nəzəriyyələr aid edilə bilər. Lakin müasir dövrdə bir sıra tədqiqatçılar estetik təfəkkürün postmodernist izahına çox zaman müstəqil, yeni bir epoxanın düşüncə tərzi kimi yanaşaraq, onun sadəcə modernizm ənənələrinin davamı kimi qəbul edilməsini məqsədəuyğun hesab etmirlər [18; 19].

İngilis tarixçisi və filosofu Arnold Toynbi (1889-1975) özünün məşhur «Tarixin tədqiqi» (1947) əsərində modernizmi və postmodernizmi faktiki olaraq eyniləşdirərək, postmodernizmi Qərb sivilizasiyasında yeni mərhələ kimi qiymətləndirmişdir. Bu mərhələnin əsas əlamətlərinə isə Toynbi millət, dövlət və humanizm kimi ənənəvi anlayışların şübhə altına alınmasını, sistemliliyin və harmonikliyin itirilməsini, sənət əsərlərinin bir əmtəəyə çevrilməsini, dinin və ənənəvi Qərb mədəniyyətinin öz əvvəlki əhəmiyyətini itirərək sona yetişməsini aid etmişdir [14, s. 39].

Zənnimizcə, modernizmin və postmodernizmin bu şəkildə eyniləşdirilməsi və bu eyniləşdirilmə əsasında modernizmə qarşı formalaşmış mənfi münasibətin postmodernizmə də aid edilməsi etiraz doğurmalı bir haldır.

Modernizm və postmodernizm arasındakı mühüm fərq isə ondan ibarətdir ki, modernizm postmodernizmin sadəcə olaraq təşəkkül mərhələsi, formalaşma mərhələsi olmuşdur. Əgər belə demək mümkündürsə, modernizm hələki tam formalaşmamış postmodernizmdir, postmodernizm isə tam formalaşmış modernizmdir. Onların hər ikisi isə modernin, yəni Yeni dövr təfəkkür üslubunun əleyhinədir.

Modernin, Yeni dövr təfəkkür üslubunun əleyhinə olan başqa bir düşüncə tərzinə ehtiyac isə yeni ictimai-mədəni vəziyyətlə əlaqədar idi. Qərb dünyasında yaranmağa başlayan yeni ictimai-mədəni vəziyyət bilavasitə modern dəyərlərinin inkarı üzərində qurulmağa başlanmış və bu tendensiya özünü modernizmə və sonradan postmodernizmə keçiddə göstərmişdir.

Estetik təfəkkürdə postmodernizm epoxası sözün tam mənasında əsasən XX əsrin 60-cı illərindən başlamışdır. Ötən əsrin 60-cı illərindən bəri Qərb dünyasında yaşanan yeni ictimai-siyasi-mədəni vəziyyət təkcə analitik-estetik təfəkkür stereotiplərinin inkarını deyil, həm də yeni təfəkkür stereotiplərinin, yeni paradiqmanın - postmodernist paradiqmanın yaranmasını şərtləndirdi.

Postmodernist estetik paradiqmanın yaradıcıları fransız strukturalistlərindən və poststrukturalistlərindən, formalizmdən, freydizm ənənələrindən və postfreydizmdən, habelə linqivistik təhlil və semantik estetikadan xeyli bəhrələnmişlər.

Postmodernizm estetikasının bilavasitə nəzəri əsaslarını isə poststrukturalizm və postfreydizm təşkil edir. Ötən əsrin 50-60-cı illərində meydana gələn bu nəzəriyyələr 90-cı illərədək müasir Qərb estetikasında aparıcı mövqeyə malik olmuşlar.

Görkəmli fransız filosofu, etnoqrafı, sosioloqu, strukturalizmin ən nüfuzlu nümayəndəsi, struktur antropologiya nəzəriyyəsinin banisi ***Klod Levi-Stross***un (1908-2009) irəli sürdüyü «mental struktur» anlayışı postmodernist paradiqmanın yaranmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Levi-Stross kollektiv qeyri-şüuri mental strukturları ibtidaidən aliyə doğru bütün cəmiyyətləri idarə edən universal qanun kimi dəyərləndirmişdi. Mental struktur ideyasının tam müfəssəl təsvirini Levi-Stross həyatının yetkin çağlarında, 1958-ci ildə “*Struktur antropologiya*” adlı kitabında vermişdir ***[***11***].***

Strukturalizm mövqeyində olan digər bir fransız, poststrukturalizmin banisi hesab edilən filosof, estetik və semiotik ***Rolan Bart*** (1915-1980) 1953-cü ildə çap etdirdiyi "*Yazının sıfır səviyyəsi*" adlı əsərində struktur anlayışını bilavasitə estetikaya daxil edir və bədii formanın *üçölçülü* olduğunu vurğulayır: *dil, üslub* və *yazı.* Bart *dil*i ümumicbari norma kimi dəyərləndirir və bədii yaradıcılıqda *dil*in yazıçının fərdi *üslub*u ilə və üçüncü ölçü kimi səciyyələndirdiyi *yazı* ilə yanaşı durduğunu diqqət mərkəzinə gətirir. *Yazı* Bartın baxış bucağında fərd və gerçəklik arasında elə bir səddir ki, bu sədd fərdi bu və ya digər dəyər oriyentasiyasını qəbul etməyə məcbur edir *[**3**, s.* 306-349*].*

*Yazı*nın Bart tərəfindən linqvistik təhlil əsasında strukturalizm kontekstində mənalandırılması semantik estetikanın inkişafı üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, həm də postmodernizmin təşəkkülü üçün mühüm mənbə olmuşdur.

Postmodernizmin digər mühüm mənbəyi isə artıq qeyd olunduğu kimi, postfreydizm estetikası idi.

Müasir Qərb estetikasında xüsusi yeri olan postfreydizm estetikası 1964-1980-ci illər ərzində «*Paris estetik məktəbi*» adı altında geniş fəaliyyət göstərmişdir.

«*Paris estetik məktəbi*»nin bir tədqiqat mərkəzi olaraq fəaliyyətə başlamasından daha öncə öz məxsusi nəzəriyyəsini irəli sürən və bununla da postfreydist estetikanın və bütövlükdə postfreydizmin əsasını qoyan fransız filosofu ***Jak Lakan***ın (1901-1981) postmodernist estetik təfəkkürün təşəkkül prosesində xüsusi rolu olmuşdur. Postfreydizmin yaradıcısı olan Lakan **1953**-cü il 26 və 27 sentyabr tarixlərində Roma Universitetinin Psixologiya İnstitutunda keçirilən Roma Konqresində oxuduğu məruzədə və bu məruzənin materialları əsasında çap etdirdiyi “*Psixoanalizdə nitqin və dilin funksiyası və sahəsi*” adlı əsas əsərində estetik təfəkkürün psixoanalitik struktur əsasında təhlilini apararaq bədii yaradıcılıqda qeyri-şüuri motivlərə, transpsixoloji subyektiv təəssüratlara geniş yer vermişdir *[*10*].*

Fransız filosofu, Fransada ilk psixoanaliz kafedrasının yaradıcısı, «*Paris estetik məktəbi*»nin əslində banisi, XX əsrin ən tanınmış simalarından biri hesab olunan ***Mişel Fuko*** (1926-1984) strukturalizmə *diskurs* (mühakimə) anlayışını tətbiq etmişdir. Estetik təfəkkürün diskursiv təhlili onun «*Sözlər və əşyalar*» (**1966**) və «*Elmin arxeologiyası*» (1969) adlı əsərlərində öz əksini tapmışdır.

Fukonun «*Sözlər və əşyalar*» əsəri, ümumiyyətlə, postmodernizmin başlanğıcı hesab edilə bilər. Postmodernizm termini hələ 1917-ci ildə yaradılmasına baxmayaraq, bir düşüncə tərzi olaraq məhz Fukonun «*Sözlər və əşyalar*» əsərində öz ilkin mücəssəməsini tapmışdır.

Bu əsərdə Fuko müxtəlif təfəkkür tiplərini “*epistema*” və “*bilik konfiqurasiyası*” terminləri ilə ifadə edir və üç tarixi təfəkkür tipini qeyd edir:

▪ Renessans mərhələsi *(Fuko Renessans mərhələsi dedikdə XVI əsri nəzərdə tuturdu)* üçün səciyyəvi olan təfəkkür tipi oxşarlıq episteması ilə xarakterizə olunur. Bu təfəkkür tipində dil hələki müstəqil sistem deyildir. O, təbii əşyalar içərisində səpələnmiş şəkildədir, əşyalarla iç-içədir və onlara qarışmışdır.

▪ Klassik mərhələ *(Klassik mərhələ Fukonun baxış bucağında XVII-XVIII əsrləri əhatə edir)* üçün təqdimat epistеması səciyyəvidir. Dil işarələrin avtonom sisteminə çevrilir, təfəkkür və biliklə

demək olar ki üst-üstə düşür. Dilin ümumi qrammatikası həm elmləri, həm də bütövlükdə mədəniyyəti anlamaq üçün əsas verir.

▪ Müasir mərhələ *(Müasir mərhələ dedikdə Fuko öz başlanğıcını XIX əsrin əvvəlindən götürən tarixi nəzərdə tutur)* sistem və təşkilat epistеması səciyyəvidir. Bu mərhələdə əvvəllər mövcud olan elmlərlə heç bir əlaqəsi olmayan yeni elmlər meydana çıxır. Dil idrakın adi obyektinə çevrilir, özünə qapanır, öz tarixini yaradır, təfəkkür ənənələrinin və üslublarının saxlanc yerinə çevrilir ***[15].***

«*Elmin arxeologiyası*» əsərində isə Fuko cəmiyyətin hər bir mərhələsinin özünəməxsus dil, düşüncə tərzi və incəsənətə malik olmasını bir daha qeyd edərək, hər bir yeni mədəni dövrün öz bazasını əvvəlki dövrlərə məxsus mədəni normaların təkrarlanmaması üzərində qurmasını vurğulamışdır.

1970-ci illərin əvvəllərində Fuko öz yaradıcılıq fəaliyyətində strukturalizmdən poststrukturalizmə keçid etmişdir. «*Nitsşe, genealogiya, tarix*» (1971) əsərində tarixə bir istehza kimi yanaşan Fuko, bəşəriyyətin tarixinin əksər hallarda heç də humanizmdən deyil, alçaq mənbələrdən qaynaqlandığını vurğulayaraq, insanlıq tarixini “ağılsızlıq tarixi” kimi qiymətləndirir. Təfəkkür tiplərini və sistemlərini özünəməxsus bir şəkildə təhlilə məruz qoyan Fuko, ümumiyytlə, təfəkkürün, o cümlədən estetik təfəkkürün irrasional mahiyyətinə toxunaraq insanın gözəlliklə bağlı təsəvvürlərinin tarixi yanılmalar üzərində qurulduğunu iddia etmişdir.

Postmodernizm Fukonun ardınca fransız filosofları Derrida, Delöz, Qvattari, Liotar və Bodriyar, Amerikan memarı və filosofu Cenks, Amerikan filosofu Rorti, italyan yazıçısı və filosofu Eko və digərləri tərəfindən inkilşaf etdirilmişdir. Ümumiyyətlə, postfreydizm nümayəndələrinin tədqiqatları müasir estetikada, incəsənət və bədii yaradıcılıqda təhtəlşüurun hansı səviyyədə özünü göstərməsinin öyrənilməsinə yönəlmişdir [18].

Postmodernizm cərəyanının ən mühüm ideyalarından biri olan dekonstruksiya ideyasının müəllifi ***Jak Derrida*** (1910-1995) özünün “*Qrammatologiya*[1] *haqqında*” ***[9]*** (1967) adlı əsərində estetik təfəkkürü və incəsənəti dekonstruktivlik konsepsiyası əsasında təhlil etmişdir. Dekonstruktivist yanaşma bədii yaradıcılığın və incəsənətin ənənəvi izah üsullarından imtina edərək, onların yeni bir qavrayış modelini təklif edir. Bu model isə *stereotiplərin dağıdılması vavitəsilə anlama* modelidir. Derrida belə hesab edir ki, məna mətni oxuyarkən konstruksiya olunur. Derridaya görə, dekonstruksiya ideyası müasir dövrdə bədii yaradıcılıq və incəsənətdəki qeyri-ənənəvi tərəqqiyə, estetikanın bütövlükdə mahiyyətinin qavranılmasına yenilik gətirəcəkdir.

Fransız filosofları olan ***Jil Delöz*** (1925-1995) və ***Feliks Qvattari*** (1930-1992) də postmodernizm estetikasının inkişafında mühüm fəaliyyətləri ilə xüsusilə fərqlənmişlər.

Lakan, Fuko və Derrida kimi, Delöz və Qvattari də, freydizm ideyalarını poststrukturalist elementlərlə zənginləşdirmişlər. Onlar postmodernist estetik təfəkkür zəminində incəsənətin strukturalist və paralel olaraq psixoanalitik tədqiqini həyata keçirmişlər. Poststrukturalizm dövründə onların estetik araşdırmaları əsasən, freydizmin psixoanalitik konsepsiyasında şəxsiyyətin simvolik strukturunun yeni ictimai-mədəni normalarla əlaqələndirilməsinin bir sıra xüsusiyyətləri və motivləri ətrafında aparılmışdır.

Delöz və Qvattarinin birgə müəllifliyi ilə yazılan «*Kapitalizm və şizofreniya*» ikicildliyinin birinci cildi olan «*Anti-Edip*» (1972) ***[7]*** əsərində postmodernist incəsənətin bir sıra maraqlı təhlilləri aparılmışdır.

Delöz və Qvattari Freydin ardınca belə hesab etmişlər ki, incəsənət məhsulları qeyri-şüuri istəklərin sənətdə realizə olunmasıdır. Lakin Freydin psixoanalitik konsepsiyasından və həmçinin Lakanın təhtəlşüurluluğun simvolik strukturoloji təhlilindən fərqli olaraq, Delöz və Qvattari incəsənətin təhlilini şizoanaliz metodu vasitəsilə həyata keçirmişlər. Şizofreniya burada psixoloji hadisə kimi deyil, kütləvi ictimai-siyasi hadisə kimi məna kəsb edir.

Delöz və Qvattari «*Anti-Edip*» əsərində həmçinin *rizoma* adlı digər bir anlayışı da irəli sürmüş və bu anlayışı məxsusi olaraq “*Rizoma*” (1976) adlı əsərdə ***[8]*** geniş təhlil etmişlər.

[1] Qrammatologiya - əlifbanın hərfləri ilə danışıq səsləri arasındakı əlaqəni öyrənən dilçilik sahəsidir.

Delöz və Qvattarinin irəli sürdükləri *rizoma* anlayışı postmodernizmin açar anlayışlarından biri olduğu üçün ona xüsusi diqqət ayırmaq istərdik.

*Rizoma* sözü fransız dilindən tərcümədə *kökümsov* mənasını verir. *Kökümsov* ağacdan fərqli olaraq, bütövlükdən, konkretlikdən və müəyyənlikdən məhrumdur, başlanğıcı yoxdur, sonu yoxdur, mərkəzi yoxdur və mərkəzləşdirici prinsipi yoxdur. Rizoma cəmiyyət həyatında da, beləcə, konkretlikdən və müəyyənlikdən məhrum olan hadisədir. Rizoma azadlığın ifadəçisi olaraq cəmiyyətin izahında determinizm prinsipini kənarlaşdırmaq meyilindən irəli gəlir və cəmiyyətdə ayrı-ayrı qrupların fərqli dünyagörüşə malik olmaları, özlərini cəmiyyətin bütövlüyünə qarşı qoymaları, özünəməxsus simvollar və mərasimlər irəli sürmələri, köçərilərə məxsus azadlıq nümayiş etdirmələri ilə diqqət mərkəzinə gətirilir. Elə bu səbəbdən də postmodernizmin Delöz və Qvattari tərəfindən təqdim olunan forması nomadologiya kimi dəyərləndirilir. Bu da təsadüfi deyildir. Nomadologiya nomadlar haqqında təlim mənasını, nomad sözü isə *köçəri* mənasını verir. Rizoma anlayışı daha çox köçərilərə məxsus azad davranış tərzini ifadə etdiyindən Delöz və Qvattari tərəfindən irəli sürülən nomadologiya konsepsiyasının başlıca anlayışı da elə rizoma anlayışıdır.

Delöz və Qvattarinin nomadologiya konsepsiyasının və bütövlükdə postmodernizmin mənbələrindən biri isə artıq yuxarıda qeyd olunduğu kimi freydizmdir.

İstər Lakan, istərsə də Delöz Freydin psixoanalitik konsepsiyasındakı Edip kompleksini bilavasitə müasir postmodernist incəsənətinə tətbiq etmişlər. Onlara görə, gözəllik başlıca estetik kateqoriya kimi postmodernizmdə öz mövqeyini ortaya qoysa da, estetik təfəkkür öz ənənəvi məzmununu dəyişərək, qeyri-ənənəvi mahiyyət kəsb etməyə başlayır. Modernizmdən fərqli olaraq, postmodernizm incəsənəti yeni texniki tərəqqi çərçivəsində inkişaf edən kütləvi şizofreniyalı şüur axını kimi çıxış edir.

Yeni texniki tərəqqi sayəsində postmodernizm yalnız şüur axınında deyil, yalnız cəmiyyət həyatının mənəvi sahəsində deyil, cəmiyyət həyatının həm də maddi strukturlarında – memarlıqda və şəhərsalmada dəyişikliklərə səbəb olmuşdur.

Memarlıqda və şəhərsalmada postmodernizm prinsiplərini görkəmli Amerikan memarı, memarlıq tarixçisi və tənqidçisi ***Çarlz Cenks*** (1939-cu ildə anadan olmuşdur) işləyib hazırlamış və özünün məşhur “*Memarlığın dili və postmodern*” (1977) əsərində təsvir və şərh etmişdir. Belə bir məqama da diqqət yetirmək lazım gəlir ki, postmodernizm termini elə həmin 1977-ci ildən sonra, Cenks qələmə aldığı bu əsəri çap etdirdikdən sonra məşhurluq qazandı.

Cenksin sözügedən həmin əsəri, ümumiyyətlə, postmodern tarixi və praktikası üçün müstəsna əhəmiyyət kəsb etdiyindən, nəzəri dəyərliliyi ilə yanaşı, həm də müstəsna dərəcədə tətbiqi xarakter daşıdığı üçün onun üzərində xüsusi olaraq dayanmağı zəruri hesab edirik. Əsər üç hissədən ibarət tərtib olunmuşdur: “*Yeni memarlığın ölümü*”, “*Memarlıq kommunikasiyası üsulları*” və “*Postmodernizm memarlığı*”. Kitabın birinci hissəsində Cenks modernizmin ən başlıca müddəalarını tənqidi təhlilə məruz qoyur. Kitabın ikinci hissəsində o, memarlığı bir dil statusunda nəzərdən keçirir, memarlığın metafora, söz, sintaksis, semantika kimi səciyyələrini aşkara çıxarır. Üçüncü hissə postmodernizmin təsiri altında memarlıqda meydana çıxan yeni nəzəriyyələrin təhlilinə həsr olunmuşdur ***[21]***.

Cenks sonradan öz postmodernist memarlıq nəzəriyyəsini daha da təkmilləşdirmiş və postmodernist memarlığın 13 prinsipdən ibarət yığcam, lakin ağır tutumlu fəlsəfəsini yaratmışdır və bu fəlsəfəni 1997-ci ildə “*Postmodern memarlığa dair 13 mülahizə*” adlı məqaləsində çap etdirərək yaymışdır. Həmin 13 prinsipdən 4-ü əsas dəyərlərlə bağlı prinsiplər, 3-ü linqvistikaya və 2-si estetikaya dair prinsiplər, 4-ü isə urbanistikaya, siyasətə və ekologiyaya dair prinsiplərdir. Bir qədər də konkretləşdirilsə, son dördlüyə daxil olan prinsiplərdən birincisi urbanistikaya, ikincisi siyasətə, üçüncüsü ekologiyaya və nəhayət dördüncüsü hətta kosmoqoniyaya aiddir.

Həmin 13 prinsipi ayrılıqda nəzərdən keçirək. Öncə birinci dördlüyə, əsas dəyərlər dördlüyünə aid olan prinsiplərə diqqət yetirək:

1) Ambivalentlik birvalentlilikdən, təxəyyül zövqdən daha üstündür.

2) “Mürəkkəblik və ziddiyyətlilik” fövqəlsadəlikdən və minimalizmdən daha üstündür.

3) Mürəkkəblik nəzəriyyəsi və xaos nəzəriyyəsi təbiət hadisələrinin izahında xətti dinamikadan daha əsaslıdır, çünki həqiqi təbii olan hər şey öz davranışında xətti deyil, qeyri-xəttidir.

4) Yaddaş və tarix bizim genetik kodumuzla, bizim dilimizlə, bizim üslubumuzla və bizim şəhərlərimizlə üzvi surətdə bağlıdır və buna görə də bizim ixtiraçılıq qabiliyyətimizin sürətləndiriciləridir.

Linqvistikaya dair üçlüyə aid prinsiplər aşağıdakılardır:

1) Bütün memarlıq kodların köməyi ilə ixtira olunur və qavranılır, həm memarlığın dilləri, həm də simvolik memarlıq öz başlanğıcını elə buradan götürür.

2) Bütün kodlar semiotik ümumiliyin təsirinə məruz qalırlar.

3) Memarlıq – publika üçün “dildir”.

Estetikaya dair prinsiplər isə bunlardır:

1) Memarlıq ornamentalizasiyanı, yəni obrazlı cizgilərin daxil edilməsini və patternalizasiyanı, yəni patternlərdən, təkrarlanan nümunələrdən istifadə olunmasını tələb edir. Bu halda müasir informasiya texnologiyalarına müraciət də yer alır.

2) Memarlıq metaforikliyi, məcaziliyi tələb edir, bu isə bizi həm təbii, həm də mədəni problemlərə yaxınlaşdırır. Zoomorf və antromorf obrazlılıqdan, məsələn “insan simalı” evlərdən istifadə də öz başlanğıcını buradan götürür. Bütün bunlar birlikdə “yaşayış üçün maşın”ın metaforalarıdır.

İndi isə ikinci dördlüyə, yəni urbanistikaya, siyasətə, ekologiyaya və kosmoqoniyaya aid prinsiplər dördlüyünə diqqət yetirək.

1) Memarlıq şəhəri formalaşdırmalıdır. Kontekstualizm, kollajlıq, rasionalizm, xırdamənzilli planlaşdirma, istifadəçi tipləri ilə tikinti tiplərinin qarışdırılması da elə buradan doğulur.

2) Memarlıq qlobal tipli müasir şəhərdə - heteropolisdə sosial reallığı kristallaşdırmalıdır, bu isə etnik qrupların plyuralizmi üçün çox vacibdir.

3) Memarlıq bizim zəmanənin ekoloji reallığını nəzərə almalıdır və öz inkişafını, yaşıl arxitekturanı və kosmik simvolizmi saxlamağı bacarmalıdır.

4) Biz möcüzəvi, yaradıcı, özünü təşkil edən kainatda yaşayırıq, o kainatda ki, müəyyənliyin müxtəlif variasiyalarına yenicə hazırlaşır. Buradan alınan nəticə isə kritisizmi, prosessuallığı və ironiyanı şöhrətləndirən kosmogen memarlığa olan zərurətdən ibarətdir ***[20]***.

Göründüyü kimi, Cenksin irəli sürdüyü postmodernizm modeli praktiki olduğu qədər, nəzəri olaraq da möhtəşəmdir.

Postmodernizm ideyasının geniş yayılması da məhz bu möhtəşəmliklə bağlı idi.

Amma postmodernizm ideyası o zaman Avropada Cenksin vətəni Amerikada olduğu qədər məşhur deyildi. Postmodernizmə Avropada məşhurluğu fransız estetiki ***Jan Fransua Liotar*** (1924-1998) qazandırdı. Postmodernizm termininin və əlbəttə ki hadisəsinin Avropada geniş şöhrət tapması Liotarın adı ilə bağlı oldu.

Liotar özünün «*Postmodernin vəziyyəti. Elmlər haqqında məruzələr*» (1979) adlı əsərində müasir elmi biliklərin qeyri-müəyyənliyi, natamamlığı və ziddiyyətli paradokslarla zənginliyindən narahatlığını bildirərək, estetik təfəkkürün elmiləşməsi sahəsində bir sıra addımların atılmasını zəruri saymışdır. Postmoderni metanarrativlərin böhranı kimi dəyərləndirən Liotar müasir incəsənətin elmi əsaslarının hazırlanması istiqamətində fəaliyyətin gücləndirilməsi zəruriliyini vurğulamışdır.

Postmodernizmin digər nümayəndələrinə oxşar olaraq, Liotar da ümumiyyətlə, incəsənətin elmi əsaslarını freydizmdə axtardığından, həmçinin müasir incəsənətin də elmi zəmin üzərində mənalandırılmasının əsaslarını freydizm ənənələrində axtarırdı. Postfreydizmin nümayəndəsi kimi, o, incəsənət və bədii yaradıcılığın psixoanalitik təhlillərini verməyə çalışaraq, onların həyat enerjisindən qaynaqlanması qənaətində olmuşdur.

İncəsənətin və bədii yaradıcılığın Liotar tərəfindən təhlilinin digər bir çaları ondan ibarət olmuşdur ki, incəsənət həyat enerjisinin məhsulu kimi meydana çıxdığından, estetik təfəkkür maddi səmərəlilik baxımından qiymətləndirilməli və incəsənətin ən ciddi məqsədlərindən biri onun iqdisadi estetikaya yönəldilməsi hesab edilmişdir.

Praktikliyə və iqdisadi səmərəliliyə meyil Liotardan daha çox ***Riçard Rorti***yə (1931–2007) aid idi. Liotardan və bir çox digər fransız postmodernistlərdən fərqli olaraq Rorti bir amerikan olaraq incəsənətdən daha çox, praqmatizmə meyilli idi. Onun nöqteyi-nəzərincə, bilik fəaliyyətə xidmət etməlidir, fəlsəfə dünyanın hansısa mahiyyətinin, başlanğıcının axtarışında olmamalıdır, insan fəaliyyəti üçün vasitələr axtarıb tapmalıdır ***[13].***

Bir sıra tənqidçilər və müəlliflər Rortinun praqmatizm yönlü fəlsəfəsini Qərb sivilizasiyasının fundamental dəyərlərinə və rasionalist ənənələrinə qarşı üsyan kimi qiymətləndirsələr də, Rorti müasir fəlsəfənin klassiklərindən biri olaraq qalmaqdadır, təbii ki, özünün amerikansayağı düşüncə üslubu ilə.

Amma postmodernizm, təbii ki, yalnız fransızların və amerikanların intellektual fəaliyyət məkanı deyildir. Bu intellektual fəaliyyət məkanında digər xalqların mütəfəkkirləri də yer alır. Həmin mütəfəkkirlər içərisində məşhur İtaliya yazıçısı, filosofu və estetiki ***Umberto Eko*** (1932-2016) xüsusi yer tutur.

Lakin bu heç də o demək deyildir ki, italyan mütəfəkkiri olan Eko öz postmodernist əsərlərini fransızlardan və amerikanlardan asılı olmadan yaratmışdır. Eko “*“Qızılgülün adı”nda səhifələrin ağ kənarlarında qeydlər*” adlı əsərində göstərmişdir ki, özünün başlıca əsəri olan «*Qızılgülün adı*» (1980) romanının ümumi strukturunu qurarkən bütövlükdə Delöz və Qvattarinin irəli sürdükləri *rizoma* anlayışına istinad etmişdir ***[16, s. 629].***

Ekonun postmodernist baxışları bədii şəkildə əsasən onun «*Qızılgülün adı*» və digər romanlarında, elmi-fəlsəfi şəkildə isə “*Orta əsr estetikasında incəsənət və gözəllik*”, “*Etika mövzusunda beş esse*”, “*Ədəbiyyat meşələrində altı gəzinti*”, “*Orta əsr estetikasının təkamülü*” adlı əsərlərində verilmişdir.

Bu əsərlərdə estetik dəyərlərin postmodernist semiotik təhlili aparılmışdır. Postmodernist semiotik təhlil ənənəvi estetik dəyərlərin yenidən qiymətləndirilməsi, mənalandırılması üzərində qurulmuşdur. Eko tarixin əvvəlki mərhələlərinə aid olan bir sıra incəsənət nümunəsini və ya gözəllik obyekti kimi qəbul edilmiş dəyərləri postmodernist semiotik təhlil zəminində mənalandırır.

Ekoya görə, estetik mühakimələr zamanı gözəllik hissinin semiotik təhlilini aparmaq üçün bilavasitə obyektiv xüsusiyyətlər və fərdi subyektiv psixoloji təəssüratlar kimi bir-biri ilə sıx əlaqədə olan iki substansional amilə diqqət yetirmək vacibdir. Bunlardan birincisi ontoloji səciyyə kəsb edir və gözəlliyin bilavasitə obyektiv xarakterli imkanlarını əhatə edir, digər məqam isə gözəlliyin bilavasitə psixoloji qavrayışı ilə bağlı subyektiv keyfiyyətlərlə əlaqəlidir. Başqa sözlə, gözəlliyin fəlsəfəsi ilə bağlı estetik tədqiqatlarda gözəllik, həm predmetlərin xalis özünəməxsus təbiəti, qanunauyğunluğu kimi, həm də gözəlliyin qavrayışı prosesində fərdi subyektiv təəssüratların məhsulu kimi çıxış edir. Ekoya görə, ilk öncə gözəllik problemi ilə bağlı ontoloji məsələlərin tədqiqinin aparılması vacib olan amillərdəndir. Gözəllik ontoloji əsasa malikdirmi? Özlüyündə real surətdə mövcud olan ontoloji mahiyyətli reallıq kimi başa düşülməlidirmi? Gözəllik qavranıldığı zaman insanlarda yüksək məmnunluq, zövq hissi yaratması onun obyektiv təbiətindənmi irəli gəlir, yoxsa bu məmnunluq, zövq duyğuları subyektivdir, subyektdə baş verən mental proseslərin simvolik hallarıdır? Eko bu məsələdə gözəlliyin obyektiv təbiətinə geniş yer versə də, əsas etibarilə onun simvolik, işarəli dərki formalarını və ya semantik ifadəliliyini qəbul edir ***[17].***

Qərb fəlsəfəsində postmodernizmin son klassik nümayəndəsi kimi, ***Jan Bodriyar***ın (1929-2007) adını çəkmək olar. “*Bis artıq həmin o dünyada yaşamırıq ki, işarələr və simvollar bizə həqiqəti göstərirlər, indi onlar özləri həqiqət oldular*” ideyasından çıxış edən Bodriyar özünün “*Simulyakrlar və simulyasiya*” (1981) adlı məşhur əsərində maraqlı bir sual qarşıya qoyur: *həqiqətdən o tərəfdə nə dayanır?* Və dərhal qarşıya qoyduğu bu suala dəqiqləşmə verir: *burada söhbət həqiqətin əks tərəfində olan yalandan getmir, həqiqətin digər tərəfində nə dayanır, yəni həqiqidən daha həqiqi olan, realdan daha real olan nəsə varmı?* Bodriyar qarşıya qoyduğu bu suala simulyasiya və simulyakr anlayışları vasitəsilə cavab verir. Simulyasiya özünü bilə-bilə başqa cür göstərmək cəhdidir. Simulyakr – insanın özü barəsində yaratdığı o obrazıdır ki, özünü ətraf insanlara bu obrazda göstərmək, cəmiyyətə özünü bu obrazda təqdim etmək, öz varlığını bu obrazda nümayiş etdirmək istəyir. İnsanın özünü cəmiyyətə göstərmək istədiyi vəziyyət, əksər hallarda olmaq istədiyi vəziyyətin obrazıdır. Amma bu, heç də bütün hallara aid deyil. Bir çox hallarda insan özünü cəmiyyətə elə göstərmək istəyir ki, özü barəsində ətraf insanlarda yaratdığı obrazdan faydalana bilsin, bunun üçün isə bəzən özünü cəmiyyətə hətta olduğundan da daha pis görkəmdə təqdim etmək üçün səylər göstərir, məsələn, hərbi xidmətdən yayınmaq üçün özü barəsində ətraf insanlarda xəstə obrazını yaradır. Amma bu hal, insanın cəmiyyətə özünü olduğundan daha yaxşı yox, olduğundan daha pis obrazda göstərməyə səy etməsi halı, yuxarıda

qeyd olunduğu kimi, heç də simulyasiya anlayışının bütün həcmini əhatə etmir, simulyasiya hadisəsinin əksər halları, çox böyük hissəsi üçün səciyyəvi deyildir, insan əksər hallarda özünü olduğundan daha pis deyil, olduğundan daha yaxşı göstərməyə meyillidir, özünün olmaq istədiyi vəziyyəti olduğu kimi göstərməyə çalışır ***[5]***. Bu baxımdan simulyakr bir tərəfdən insanın özü barəsində yaratdığı karikatura kimi, digər tərəfdən isə özü barəsində yaratdığı bəzədilmiş obraz kimi dəyərləndirilə bilər.

Bodriyar “*Simulyakrlar və simulyasıya*” əsərində qarşıya qoyduğu yuxarıda xatırlanan fundamental suala - “*Həqiqətdən o tərəfdə nə dayanır, həqiqidən daha həqiqi olan nəsə varmı*?” sualına başqa bir əsərində də cavab verir və bu cavab əvvəlkindən fərqli olaraq, nəzəri xarakter daşımaqdan daha çox, praktik əhəmiyyətə malikdir: *Yalnız təhrif olunmuş həqiqət ideyası ilə yaşamaq olar. Bu yol həqiqətlə yaşamağın yeganə yoludur* ***[4, s.*** 115***]***. Bodriyar belə bir əqidədədir ki, simulyasiya ilə həqiqət arasındakı dəqiq sərhədi göstərmək mümkün deyildir.

**Nəticə**

Son olaraq fikrimizi belə yekunlaşdıraq ki, İmmanuel Kant fəlsəfəsinin əsasını təşkil edən “*özündə şey*” anlayışı Mişel Fukonun “*söz*”, Jan Bodriyarın “*simulyakr*”, Lak Lakanın “*təxəyyüldə canlandırılan*”, Rolan Bartın “*yazı*”, Jak Derridanın “*dekonstruktivlik*”, Jil Delöz və Feliks Qvattarinin “*rizoma*”, Çarlz Cenksin “*memarlığın dili*”, Jan Fransua Liotarın “*metanarrativ*”, Riçard Rortinin “*ironiya*”, Umberto Ekonun “*mətn*” anlayışları ilə eyni epistemoloji sxemin ifadəçiləridir. Həm Kantda, həm də postmodernistlərdə anlayış və onun predmeti arasında kəskin ziddiyyət vardır, hər iki halda anlayış onun predmetinə adekvat məzmunlu deyildir, anlayış onun predmetinin xüsusiyyətlərini deyil, daha çox, insanın öz məxsusi xüsusiyyətlərini əks etdirir. Birinci halda, yəni Kant fəlsəfəsində anlayış insanın idraki qabiliyyətləri ilə müəyyən olunur, ikinci halda isə, yəni postmodernistlərin nümunəsində anlayışların müəyyənləşdiricisi insanın yaratdıqlarıdır, ilk növbədə mədəniyyətdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abdulla K. Yarımçıq əlyazma (roman). Bakı, XXI-YNE, 2004. - 288 s.
2. Əsədov A.İ. Teatr və proto-teatr. Bakı: Elm və təhsil, , 2023, 440s.
3. Барт Р. Нулевая степень письма. Пер. Г. К. Косикова // Семиотика. М.: Радуга, 1983. - С. 306-349.
4. Бодрийяр Ж. Соблазн. Перевод с французского Алексея Гараджи. М.: Ad Marginem, 2000. // http://yanko.lib.ru/books/philosoph/baudrillard-soblazn-l.pdf
5. Бодрийяр Жан. Симулякры и симуляция. (рус. перевод А. Качалова). М.: Рипол-классик, 2015.// http://lit.lib.ru/k/kachalow_a/simulacres_et_simulation.shtml
6. Высочина Ю.Л. Постмодерн как кризис культуры и языка// Вестник Челябинского государственного педагогического университета. 2015 №03. с. 258-259.
7. Делёз Ж., Гваттари Ф. Анти-Эдип: Капитализм и шизофрения. Перевод Д.Кралечкина. Екатеринбург: У-Фактория, 2007. - 672
8. Делёз Жиль, Гваттари Феликс. Ризома. Пер. Яков Свирского. https://vk.com-/doc184482549_189854454?hash=fad6578b6e212adfe0&dl=98694f379ecda7539e
9. Деррида Жак. О грамматологии. Перевод с французского и вступительная статья Наталии Автономовой. М, Ad Marginem, 2000. – 509с.
10. Лакан Ж. Функция и поле речи и языка в психоанализе. — М: Гнозис, 1995. 192с. // http://anthropology.rinet.ru/old/library/lakan-soder.htm
11. Леви-Стросс К. Структурная антропология/ Пер. с фр. В.В. Иванова. — М., 2001. — 512 с.// https://vk.com/doc79189164_307904856?hash=3f35f3cef599450975&dl=c6a7c75016eea-1b810
12. Маньковская Н. Б. Эстетика постмодернизма. — СПб.: Алетейя, 2000. 354с.//https://vk.com/doc5787984_340052037?hash=3ae975a4df34f138bb&dl=cdb63728127902caf8
13. Рорти Р. Философия и зеркало природы / Пер. с англ. науч. ред. В. В. Целищев. — Новосибирск: Изд-во Новосиб. ун-та, 1997. - 320 с.
14. Тойнби А.Дж. Постижение истории Пер. с англ. - М.: Прогресс, 1991. - 736 с.

15. Фуко, Мишель. Слова и вещи. // http://lib.ru/CULTURE//FUKO/weshi.txt

16. Эко У. Заметки на полях «Имени розы». // Эко У. Имя розы. —СПб.:Симпозиум. 1999. - 596–644с.

17. Эко , Умберто. Роль читателя : исслед. по семиотике текста. Пер. с англ. и итал. С. Серебряного. - Санкт-Петербург : Symposium ; Москва : Издательство РГГУ, 2007. - 501 с.

18. Blocker, H. Gene. Bender, John. eds, Contemporary Philosophy of Art: Readings in Analytic Aesthetics, 1997. – www. Aesthetics-online. org/reviews/index. php?reviews_id=15

19. Brown, Lee. Goldblatt, David. eds, Aesthetics: A Reader in Philosophy of the Arts. - 2000. – www. Aesthetics-online. org/reviews/index. php?reviews_id=15

20. Jencks, Charles Alexander. 13 Propositions of Post Modern Architecture // Theories and Manifestoes of Ceontemporary Architecture. Chichester, 1997. P. 131-132.

21. Jencks, Charles Alexander. The Language of Post-Modern Architecture, Rizzoli, NY 1977//https://porqepn.files.wordpress.com/2015/07/charles-jencks-language-postmodern-architecture-pdf.pdf

22. Pannwitz, Rudolf. Die Krisis der europaeischen Kultur. Nuremberg, 1917.

## ИММАНУЕЛ КАНТ И ПОСТМОДЕРНИЗМ

**Адиль Асадов**
**Наила Асадова**

**Резюме.** Авторы, исследуя взаимоотношения между философией Канта и постмодернистской парадигмой, приходят к выводу, что понятие "вещь в себе" (которая широко изучается в сочинении Канта "*Критика чистого разума*") совпадает с понятием «симулякр» (которое мы находим в сочинении Бодрийяра "Симулякры и симуляция") и с понятием "слово" (в "Словах и вещах" Фуко). Как и "вещь в себе" Канта, "симулякр" Бодрийяра и "слово" Фуко, так и "воображаемое" Лакана, "письмо" Барта, "деконструктив" Дерриды, "ризома" Делёза и Гваттари, "язык архитектуры" Дженкса, "метанарратив" Лиотара, "ирония" Рорти, "текст" Эко являются связующим звеном между "вещью" и "ментальной структурой" (Klod Levi-Stross).

**Ключевые слова:** вещь в себе, симулякр, деконструкция, ризома, метанарратив, текст

## IMMANUEL KANT AND POSTMODERNISM

**Adil Asadov**
**Naila Asadova**

**Abstract.** The authors, investigating exploring the relationship between Kant's philosophy and the postmodern paradigm, come to the conclusion that the concept of "thing in itself", which is widely studied in Kant's work "Critique of Pure Reason" coincides with the concept of "simulacrum" that we find in "Simulacra and Simulation" by Baudrillard, or "word" in Foucault's Words and Things. Like Kant's "thing in itself", Baudrillard's "simulacrum" and Foucault's "word", Lakan's "imaginary", Barthes's "letter", Derrida's "deconstructive", Deleuze's and Guattari's "rhizome", Jenks "language of architecture," Lyotard's "meta-narrative," Rorty's "irony", "text" Eco, are also the link between the "thing" and the "mental structure" (Levi-Stross).

**Keywords:** thing in itself, simulacrum, deconstruction, rhizome, metanarrative, text

**Rəyci: f.f.d., dos. Həbib Hüseynov**

**УДК:130.3:796**
**https://doi.org/10.30546/ifs.2024.1(42).010**

# ПЕХЛЕВАНСТВО КАК ШКОЛА СИЛЫ И ДУХА В ЗЕРКАЛЕ ФИЛОСОФСКОГО ОСМЫСЛЕНИЯ

**Тейюб Муталлимов**
Доцент, кандидат философских наук
Башкирский государственный университет,
г. Уфа, Республика Башкортостан, **Россия**
mutallimov1234@yandex.ru
https://orcid.orq/0000-0003-4739-4281

**Резюме.** Статья посвящена теоретическому исследованию. Природа духа исследуется через призму национальной философской мысли, в контексте преемственности исторического прошлого и современного времени. Доказывается, что, если присутствует национальный дух, то даже в спорте можно ожидать высоких достижений, а их взаимосвязь может выступить в качестве движущей силы генезиса всего этноса. «Пехлеванство представляет собой набирающую популярность разновидности национального спорта, возрождение которого будет способствовать укреплению диалога народов», - подчеркивается в исследовании.

**Цель**: привлечь внимание к проблеме возрождения наследия пехлеванства в современном этноспорте, как способа мобилизации национального духа.

**Методология**: статья исследована с использованием научного метода, сравнительного анализа, эмпирического описания, методов исторического анализа.

**Научная инновация**: социофилософский подход к пехлеванству – популярной разновидности национальной борьбы, в интересах укрепления партнерства народов через спортивный и культурный диалог.

**Ключевые слова**: генезис, дух народа, пехлеванство, зорхана, гюлеш, борец – национальный герой, содружество, духовные и традиционные ценности

**Введение**

Национальная философская традиция, раскрывающая на научном методологическом уровне понимание этнического мировоззрения (характерного для определенной эпохи или более ограниченного исторического периода) обращается к мыслям, идеям, символам и образам познания мира, совокупно образующим стержневую основу национального духа в контексте природно-экологической ниши существования этноса. Основное предназначение национального духа в современных условиях — разбудить в этносе и его представителях качества, генетически заложенные испокон веков: мужество, патриотизм, преданность Родине, милосердие и доброту, заботу о старших, верность нравственным идеалам.

Интегративное понятие «этноспорт», вбирающее в себя два взаимосвязанных смысла, применительно к традиционным играм и национальным видам борьбы в контексте глобальных вызовов современности, представляется целесообразным рассматривать через социокультурную призму сохранения и стимулирования культурного многообразия.

Национальные виды спорта становятся наиболее простым и привлекательным способом брендирования наследия исконных территорий коренных народов, возможностью публично заявить о своем уникальном своеобразии, заинтересовать туристов, вдохновить соотечественников, воспитать здоровое поколение и, в целом, консолидировать нацию.

Высокий интерес спортсменов к традиционным видам физической активности объясняется стремлением приобщиться к сакральному наследию предков и обрести чувство национальной идентичности. Вследствие этого обозначилась тенденция спортизации в системе традиционных видов физической активности, проходящие этапы возрождения на современный лад, оформлении правового статуса общественных организаций (федераций,

ассоциаций, союзов), занимающихся пропагандой и продвижением национальных видов спорта.

**Национальные философские традиции и развитие этноспорта**

Проходят столетия, сменяет друг друга череда исторических эпох, неузнаваемо изменяется ландшафт человеческой цивилизации, мир вступает в технологическую эру. В планетарном масштабе за последние 200 лет население планеты достигло уровня в 8 миллиардов человек, при этом на миллиард оно увеличилось за последние 12 лет, так же активно происходит миграционное движение во всем мире. Однако какими бы разительными темпами не происходил прогресс, человечество, для того чтобы выжить и развиваться, обязано следовать духовной системе координат и этнокультурным смыслам.

Китайские ученые справедливо подчеркивают, что отрицание традиционной культуры есть отрицание истории, отрицание *национального духа ведет к «манкуртизму» и* лишению своих исторических корней: «Не страшны страдания, выпадающие на долю какой-либо нации в определенные периоды ее истории - страшно утратить национальный дух. Вопрос сохранения традиционной культуры связывается напрямую с судьбой нации, олицетворением которой является национальный дух. Вот почему возрождение любой нации, ее движение по пути модернизации, в любом случае, начинается с развития национального духа. Поэтому, естественно, что отрицание традиционной культуры неизбежно ведет к утрате национального духа, создает хаос в общественном сознании, лишает правильных идеалов и ориентиров» [1; 129].

Этнос одновременно выступая в роли хранителя и генератора *национального духа*, передает новому поколению язык, культуру, традиции, этнические ориентации, лучшие качества и ценности. Этническая ментальность является социокультурной проекцией национального духа, которая образует «… сверхчувственное начало жизнедеятельности народа, достигшего определенного уровня социокультурного развития, отражающееся в его мировоззренческих принципах и определяющее своеобразие этно-социокультурного бытия на всем протяжении этногенеза» [5; 147].

Национальный дух не может быть архаичной категорией, оставаться и восприниматься как нематериальный рудимент глубокой древности, от которого в наши дни можно отказаться за ненадобностью. Он образует тонкую материю, пронизывающую сущность бытия народа и является фундаментальной основой его аксиологических императивов на века. «Народы, – как подчеркивал друг А.С. Пушкина, мыслитель и публицист П.Я. Чаадаев, – в такой же мере существа нравственные, как и отдельные личности. Их воспитывают века подобно тому, как людей воспитывают годы» [6; 84]. Ввиду этого народ динамичен, находится в процессе постоянного саморазвития, обогащаясь на своем пути в ходе коммуникационного взаимодействия с другими этносами. Подтвердим этот тезис исследовательской позицией выдающегося философа и психолога Г.Г. Шпета, который писал: «Дух — конкретный стиль, тип или тон. Не кратковременное состояние, а пребывающая форма. Дух — эхо жизненного многообразия. Дух отображает действительность, структуру переживаний коллективной организации. Дух — собрание, связка характерных черт поведения народа. Дух рыцарства, дух мещанства — суть части целого. Будучи предметом психологии, дух изучается ею не в объяснительной — устанавливающей абстрактные законы психологии, но и не в индивидуально-описательной психологии, а является предметом коллективной психологии, которая только описывает и не идет дальше построения типических структур. Объяснения можно найти в анализе исторического целого, из расовой биологии, антропологии, социологии, и все-таки не из отвлеченной психологии» [7; 112].

Авторитетный социолог и педагог Б.Т. Лихачев, исследовавший смыслы влияния этнического на формирование социокультурного «портрета» личности, отмечает: «Подлинная народность, ментальность, этническая культурность - активно противостоит в сознании цивилизованных людей национализму, идеям национальной избранности и исключитель-

ности, расизма, эгоистической замкнутости, сепаратизма, национального эгоизма, враждебности и агрессивности по отношению к другим народам. Народность, как явление национального духа, выражает уникальное своеобразие индивидуальности каждого народа, которая обусловлена природными особенностями жизни, всей историей существования и борьбы народа, его культуры, религии, а также генетического и социально-ментального наследия, воплощенного в национальных чертах и свойствах характера» [3; 156].

А.В. Кыласов, разработчик и популяризатор отечественной теории этноспорта определяет ее сущность как «… новую институциональную форму, объединяющую традиционные виды физической активности, в том числе национальные виды спорта, и повсеместно возрождающие в качестве исторических реконструкций традиционных коренных народов. Расширяет представления о спорте, как о социокультурном явлении, в контексте обретения им новой функции – поощрения и сохранения этнокультурного многообразия» [2; 42].

Таким образом, наблюдается разрыв между философией и спортом, обусловленный тем, что за последние полтора столетия пошел сильный уклон в сторону достижения спортивных побед практически любой ценой, которые бы прославили страну на международной арене, а также излишней коммерциализации достигаемых результатов, их информационной публичности, универсализации и унификации видов спорта с уходом от национальных форматов. Из-за этого искажаются этнокультурная мотивация, матрицы проведения состязаний и психофизиологические ритмы спортсмена настраиваются не на национальную атрибутику, а на прагматическое стремление достижения успеха и формальное признание.

## Возрождение традиций национальных состязаний

Предупредить потерю этнической самобытности возможно путем реализации социокультурных технологий, доказывающих свою эффективность преимущественно на примере национальных республик Российской Федерации, ряда стран Кавказа и Азии. Прежде всего, реализация различных моделей национального образования; организация культурно-просветительской, досугово-семейной жизнедеятельности; возрождение народных промыслов и ремесел, художественной самодеятельности и традиционных праздников; развитие этноспорта – имеет большое значение для формирования национального духа каждого этноса.

Формирование социального благополучия общества напрямую зависит не только от сильной результативной экономики или наличия развитых промышленных центров и ресурсных ископаемых, но и от укрепления духа нации. Достижение такого оптимального баланса возможно только в этнокультурном, богатом и нравственно развитом обществе, а самая лучшая и эффективная профилактика от всех социальных недугов – выработанные в недрах вековой народной культуры способы физического совершенствования и спорт.

Этноспорт приоткрывает занавесу сакральной сущности духа каждого народа. В контексте рассмотрения спорта, как социально-этнического феномена интегративно объединяющего в себе физкультурно-оздоровительную платформу и этноорнаментальную и культурно-эстетическую окраску для философии спорта, важнейшей задачей стоит проблема воздействия глобальных процессов на национальные начала. Этот весьма проблематичный дискурс современности затрагивает спорт как социальное явление, которое с одной стороны не знает географических границ и имея этнические истоки, интернационален по своей сущности, служит идее гармонизации отношений между народами, а с другой стороны, проецирует спортивный дух на национально-патриотической почве. Борцам национальных сборных из разных стран, участвующих на международных спортивных соревнованиях, к сожалению, не позволяют демонстрировать этнокультурные особенности (одежда, ритуалы, обряды), так как существует нормативно-правовой спортивный регламент.

Утрата яркого этнонационального колорита в массовом спорте, в контексте глобализации может нивелировать присущую ему духовную составляющую, традиционные особенности, лишить духовной «подпитки» и поддержки народа, который спортсмен олицетворяет на спортивной арене, а это значит, что спортсмен не сможет более выступать в

роли национального героя, а станет лишь «медийным лицом» какой-либо марки транснациональной компании на какой-то миг, после чего последует полное забвение, а не многовековая память народа.

Традиционные состязания с обилием видов национального спорта выходят на уровень этнокультурных фестивалей, которые из собственно внутриэтнических календарных событий или религиозных обрядовых церемоний коренных этносов становятся многонациональными праздниками, собирают множество поклонников национальной самобытности. Под эгидой ЮНЕСКО они становятся неотъемлемой составной частью всемирного культурного наследия всего человечества, способствуют формированию этнокультурной идентичности и культурного многообразия.

Так, из глубины седых веков, физическая сила и выносливость, смекалка, умение постоять за себя и за свой род - вызывали глубокое уважение. Идейной платформой возрождения национального духа стала предпосылка в виде богатого культурно-художественного наследия. Широкие горизонты мифов, этнических легенд, преданий и традиций раскрывали мощь силы духа национальных героев, которые воплощали в себе тождественные качества, которыми народ наделял своих героев – сила, храбрость, мужество, благородство, достоинство, честь, искренность, преданность родному народу.

Эпические предания, легенды и былины, талантливо передававшиеся изустно сказителями, обрастали поэтической правдой и даже некоторая гиперболизация воспринималась как естественная, чистая реальность. Имена многих знаменитых силачей прошлых веков донесли до нас исторические хроники и сказители, хранители народной мудрости. Так, через легенды и предания, такие древние эпические сказания как: «Урал-Батыр», «Олонхо», «Китаби-Деде Горгуд» отразили представления о легендарных героях, воплощавших в себе идеал мужественного, преданного родине и народу человека, выступавшего нравственным эталоном, мерилом чести и достоинства. В частности, почти во всех селах на празднествах устраивались состязания борцов, силачей, наездников и т.д. Поэтому одной из отличительных черт национальной психологии многих тюркских народов является физическое воспитание, построенное с элементами традиционной борьбы, истоки которой восходят к глубокой древности. У каждого из этих видов борьбы, имевших между собой много общих черт, был свой нравственно-этический кодекс и своя церемониальная эстетика. Сохраняя свои наиболее типичные национальные ритуальные особенности и техники, они заслуженно стали излюбленным видом спорта, прекрасным средством физического воспитания молодежи, развивающим силу, выносливость, волю, быстроту реакции, ловкость и инициативу.

Необходимо отметить, что этнически коннотированные физические упражнения, игры и состязания, в частности, «куреш», «хапсайгай», «гюлеш», являют собой неотъемлемую часть обширной, тюркской этнической культуры народа, которые чрезвычайно важны и для современности. Они представлены в энциклопедии традиционных видов борьбы народов мира. В рамках ритуальных праздников, в частности, «Новруз байрамы», «Сабантуй», «Гербер», «Ысыах», «Джангариада», «Казачьи Шермиции», состязания бааторов Срединного мира на «Ёрдынских играх» можно успешно проводить национальные спортивные состязания, завещанные предками для всех поколений, популяризация которых возродит национальную самобытность и убережет ее от безвозвратной утраты в будущем.

В качестве иллюстративного примера отметим, что многие тюркские народы (башкиры, татары, казахи и др.), локализованные в Приволжском регионе Российской Федерации, являются поклонниками традиционной борьбы «куреш» (борьба на поясах), которая по праву считается важной составной частью ориентальных этнокультур, имеющих богатое историческое прошлое и которая ныне включена во Всероссийский реестр видов спорта. Сильнейшие борцы республики по этому виду спорта практически ежегодно становятся чемпионами мира. Среди тюркских этносов особо почитаются борцы, являющиеся живыми символами мужества и отваги. Подобные «курешу» виды борьбы хорошо известны у многих тюркских народов. В целом исконно национальные виды спорта широко распространены и пользуются большой

популярностью среди молодежи, способствуют ее лучшему самоопределению, физической закалке, укреплению национального духа этноса.

Hələ Rusiya-Ukrayna müharibəsindən öncə, 2018-ci ildə, C. Fridman “Polska Times”a (Agaton Koziński ilə) olduqca maraqlı bir müsahibə vermişdi. Həmin müsahibədə o deyir: “Rusiya qüvvəsini itirməkdə davam edir. SSRİ-nin dağılması onun üçün son yox, yeni mərhələnin başlanğıcı olmuşdur. Bu gün o, nəzarət etmədiyi neft qiymətlərindən asılı olan böyük qeyri-effektiv ölkə kimi qalaraq son dövr SSRİ-nin səhvlərini təkrarlamaqdadır. Bu, o deməkdir ki, o öz gələcəyinə nəzarət etmir. Rusiyanın fəaliyyət sahələri iş qabiliyyətli deyil, nizam-intizamı dəstəkləyə bilmirlər. Tarix iki dəfə təkrarlanır: birinci dəfə faciə kimi, ikinci dəfə – fars olaraq. Hazırda Rusiya ikinci mərhələdədir. Məsələ konkret şəxslərdə yox, bu dövlətin necə fəaliyyət göstərməsində, funksionallıq üsulundadır” **[5]**. C. Fridman, ümumən, müsahibəsində söyləyir: “Faktlar belədir ki, Rusiya, Çin və Avropa mürəkkəb vəziyyətdədirlər” **[6]**. Onun fikrincə, yaxın gələcəkdə miqyaslı geosiyasi böhran, o cümlədən Rusiyanın parçalanması qaçılmazdır və nəticə olaraq, üç ölkənin daha çox uduş qazanmaq şansı var: Yaponiya, Türkiyə və Polşanın. Həmçinin, Fridman qeyd edir ki, Meksika kimi bəzi ölkələr

öz regionlarında daha çox təsir yükünə malik olacaqlar. Təqdirəlayiqdir ki, politoloq öz proqnozları üçün real faktların təhlilindən çıxış edərək ciddi və inandırıcı əsaslar gətirir.

Türkiyəyə gəldikdə, C. Fridmanın proqnozuna görə, Avropa və Yaxın Şərq arasında sıxılan bu ölkə strateji nöqteyi-nəzərdən getdikcə daha çox əhəmiyyətli mövqe qazanacaq və Birləşmiş Ştatların yaxın müttəfiqinə çevriləcək. Yaxın Şərqin burulğan mərkəzində olan Türkiyə, Rusiyanın basqıları da daxil, başqa ölkələrin həmlələri qarşısında duruş gətirərək mövqelərini möhkəmləndirə biləcək, habelə iqtisadi sahədə ciddi uğurlar qazanacaq. Təsirli güc mərkəzinə çevrilən Türkiyə, politoloqun fikrincə, keçmiş şərəfli tarixinin böyük hissəsini bərpa edərək, dünyanın bu bölgəsində öz ənənəvi liderlik rolunu uğurla daşıyacaq. Bu şərəfli və məsuliyyətli mövqeyə doğru uğurlu irəliləyişdə o, haqlı olaraq, prezident R.T. Ərdoğanın güclü lider kimi rolunun, istedad və zəhmətinin əhəmiyyətini vurğulamağı özünə borc bilir.

Əvvəlcə ABŞ-ın dəstəyi ilə, Türkiyə öz təsir dairəsini artıraraq regional liderə çevriləcək, təxminən Osmanlı imperiyası dövründə olduğu kimi. Onun təsir sahəsi özündə fraqmentləşmiş ərəb dünyasını, şimala doğru Rusiya ərazilərini və keçmiş SSRİ-yə daxil olan respublikaları əhatə edəcək. Bu bölgədə, güman ki, türk təsir dairəsindən kənar qalan yeganə ölkə ABŞ-ın maraqları sahəsində mövcudluğunu saxlayan İsrail dövləti olacaq. Onun da etibarlı mövcudluğu yalnız Türkiyə ilə kompromislərə getmək yolu ilə mümkündür. Düşünürəm ki, Rusiyanın dağılmasından sonra Avrasiyada yaranmış xaosun tədricən yatırılmasında və müəyyən nizamlı vəziyyətin, yeni siyasi arxitekturanın və sosial-iqtisadi trendlərin yaranmasında Türkiyənin kifayət qədər önəmli yeri və rolu olacaq. Həmçinin, Türkiyə, təsiredici nüfuzu və bəşəri missiya yükü artdıqca, Avropaya nəzarət uğrunda mübarizə aparacaq. Ehtimal ki, kosmik uçuşlar, peyklərdən və yeni silah növlərindən istifadə sahəsində də Türkiyə xeyli uğurlar əldə edəcək. Bu ehtimal C. Fridman tərəfindən də qeyd olunur – hər üç (Türkiyə, Yaponiya, Polşa) dövlətə nəzərən. Fikrimcə, Türkiyənin Avrasiya məkanında təsiredici güc mərkəzinə çevrilməsində Çin də maraqlı olacaq. Belə ki, hazırki geosiyasi durumun yeniləşməsi və məqbul bir siyasi arxitekturanın formalaşması istiqamətində Çinin irəli sürdüyü Yeni İpək Yolu layihəsi yalnız Türkiyənin yaxından və fəal iştirakı hesabına uğurla reallaşa bilər. Qeyd edim ki, bu proyekt bir çox başqa ölkələr tərəfindən də real alternativ kimi dəyərləndirilir və dəstəklənir. Həmin layihə ilə bağlı fikirlərimi mən bir sıra yazılarımda bildirmişəm **[7, s. 73-90]**.

Ədalət və məlumat dəqiqliyi naminə deyim ki, onilliklər öncə bir sıra ciddi alim-tədqiqatçılar, futuroloji əsər müəllifləri olmuşdur ki, onlar hazırda baş verən köklü yeniliklərin müjdəsini vermişlər. Müəlliflər sırasında elələri vardır ki, sadəcə müjdələr, proqnozlar verməklə kifayətlənməmiş, çoxları üçün ağlagəlməz və ya mümkün olmayan bu yeniliklərin təbliğatçı-təşviqatçısı kimi çıxış etmişlər. Və onlar, bir qayda olaraq, öz əsərlərində əsaslı surətdə aparılmış təhlil və ümumiləşdirmələrə söykənmiş, mülahizələrini ciddi dəlillərlə sübuta yetirmişlər. Onu da deyim ki, məsələn, vaxtilə Marqaret Tetçer və Ronald Reyqan kimi görkəmli dövlət xadimləri məhz bu sıradan olan zəka sahiblərinin (alim-mütəxəssislərin, analitiklərin, tədqiqatçı jurnalist-publisistlərin) fikirlərinə, təqdim etdikləri bilgi və informasiyaya çox həssas olmuşlar. Və həmin informasiya-bilgilər əsasında düzgün nəticələr əldə edərək, adekvat və effektiv siyasi-geostrateji fəaliyyətlərini qura bilmişlər. SSRİ-nin çökməsində, fikrimcə, bu amilin də xüsusi yeri və rolu olmuşdur.

Uydurma, əsassız və sistemsiz, gercəkliklərlə hesablaşmayan, “bütün dünya üçün yeni təfəkkür”lə fəaliyyət göstərən M.S. Qorbaçovdan fərqli olaraq, bu dövlət xadimləri öz siyasi fəaliyyətlərində ilk növbədə, ciddi elmi bazaya, möhtəşəm fikir sahiblərinin mülahizələrinə, mötəbər elmi-tədqiqat mərkəzlərinin sanballı araşdırmalarının nəticələrinə söykənmişlər. Məhz bu amil, yəni, öncədən kamil bir ictimai və geosiyasi meqatrend üzrə hərəkət etmək onların uğurlu siyasi fəaliyyətlərini şərtləndirmiş, üzərlərinə düşən tarixi missiyanı həyata keçirməyə imkan vermişdir. Qabaqcıl, inqilabi yeniliklərlə zəngin elmə və füsunkar texnoloji nailiyyətlərə söykənmək, azad təfəkkür gücündən istifadə etmək, ümumən, Qərb dünyasını kifayət qədər irəliyə aparmış, onun daha yüksək səviyyədə mövqelənməyinə səbəb olmuşdur. Bu hesabla Qərb keçmiş SSRİ məkanına daxil ölkələri, Rusiya da daxil, xeyli dərəcədə geridə qoymuşdur. Aydındır ki, yaranmış bu durum istər-istəməz yeni dünya nizamına doğru ümumbəşəri gedişatda öz təsirini göstərməli idi və göstərir də. Aqressiyası və destruktiv fəaliyyəti günbəgün artan Rusiyanın bütün çabalarına, hiylə və qəddarlığına baxmayaraq.

İşıqlandırdığım bu kontekstdə düşünərkən, məsələn, görkəmli fikir sahibi, amerikalı tədqiqatçı Con Neysbitin yaradıcılığına, onun hələ 1982-ci ildə ilk dəfə nəşr olunmuş “Meqatrendlər” əsərinə xüsusi diqqət yetirmək istərdim. İngiliscədən rus dilinə bu məşhur elmi mənbə yalnız 2003-cü ildə tərcümə edilmişdir **[8]**. Son dörd onillik gedişat üçün olduqca müstəsna əhəmiyyat kəsb edən həmin əsər barədə mən əvvəllər də yazılarımda müəyyən zəruri məlumat vermişdim. Lakin, əfsuslar ki, bəzi obyektiv və subyektiv səbəblər ucbatından bizim ictimai şüurda, o cümlədən, elmi-fəlsəfi düşüncədə bu fövqəl əhəmiyyətli əsərə qaneedici rezonans, həssas münasibət yaratmaq mümkün olmamışdır. Qısa zaman ərzində bestsellerə çevrilmiş və beynəlxalq etiraf qazanmış “Meqatrendlər” indinin özündə də bizim ictimai şüurda, elmi, fəlsəfi, iqtisadi və siyasi düşüncədə, məfkurə fəzasında naməlum əsər olaraq qalır. Bu, çox üzücü, xoşagəlməz bir haldır. Xüsusən də siyasi, iqtisadi və geosiyasi proses iştirakçılarının məlumatsızlığı ümumi işin ziyanına işləyə bilər ki, bu da son nəticədə aparılan islahatlar üçün bir əngələ çevrilər. Bizim yaxşı yaşamaq istəyimiz xeyli dərəcədə sahib olduğumuz bilikləri, təfəkkür sərrastlığını, idraki və əməli-praktiki gücümüzü üstələyir. Nəyə layiq və qadir olduğumuzu bilməliyik: dibi deşik qabda su daşımaq mümkün deyil!

C. Neysbitin futuroloji tədqiqat olan “Meqatrendlər” əsəri Amerika cəmiyyətinin XX əsrin sonralarındakı inkişaf tendensiyalarının real, dəqiq və ciddi təhlilinə söykənir. Burada gerçəkliyin yeni anlamı verilir və gələcəyə yeni baxış sərgilənir, Amerika cəmiyyətinin postindustrial mərhələdən informasion dövrə keçidi, səciyyəvi xüsusiyyətləri və zəruri şərtləri işıqlandırılır. Bir-birindən maraqlı, diqqətçəkən fəsillərlə tanış olduqca, istər-istəməz əsərin möhtəşəmliyinə, evristik gücünə, bu günün özündə də nə qədər aktual və əhəmiyyətli olduğuna heyran qalırsan. Məhz həmin əsərdə, ilk dəfə olaraq, C. Neysbit “**Nou-xau**”nu sərvətin yeni növü adlandırmış, izafi dəyərin, əməyin deyil, K. Marksın köhnəlmiş nəzəriyyəsində olduğu kimi, **biliyin** hesabına yaranması nəzəriyyəsinin işlənib hazırlanması zərurətini göstərmiş, bilik istehsalının kütləviləşməsinin və fasiləsiz sistemləşdirilməsinin formalaşan informasiya cəmiyyəti, intellektual potensialın kəmiyyət-keyfiyyətcə gücləndirilməsi üçün əhəmiyyətini vurğulamış, kütləvi bilik istehsalının müasir iqtisadiyyatın hərəkətverici qüvvəsi olduğunu əsaslandırmışdır. Con Neysbit kitabında sonralar məşhurlaşmış belə bir şüar da səsləndirmişdir: “**Güc-qüvvənin mənbəyi – azların əlində olan pul yox, çoxların sahib olduğu informasiyadır**” **[9, s. 29]**.

C. Neysbitə görə, informasiya cəmiyyətində zamanın axarında müəyyənləşmə, nəyə və necə hədəflənmə, yəni, oriyentasiyalar seçiminin özü dəyişir. Məsələn, əgər aqrar dövr üçün – keçmişə, industrial cəmiyyətdə isə – bugünə, yəni, indiki mövcud zamana oriyentasiya üstünlük təşkil edirdisə, informasiya cəmiyyəti üçün gələcəyə hədəflənmə, perspektivi görmək, onu hesablayaraq anlamaq və adekvat fəallıq göstərərək hərəkət etmək daha önəmlidir: “Biz gələcəkdən, necəki vaxtilə keçmişdən dərs alırdıq, öyrənməliyik” **[10, s. 32]**. Yəni, alimin fikrincə, informasiya cəmiyyətində tarix və sosial zaman gələcəyə hədəfləndiyindən, biz bu gələcəyi öncədən görməli və bilməliyik. Bunu edə bilsək, anlayarıq ki, **hansısa ictimai və yaxud bəşəri trend – heç də alın yazısı, qəzavü-qədər deyil və başımıza gələn hər şeyi talenin, fələyin ayağına yazmaqla yaşadığımız və inşa etdiyimiz zamanı mənalandırmaqdan uzaq düşməməliyik, passiv seyrçiliyin itaətkar quluna çevrilməməliyik.** Tarixi və sosial zaman fəal, yaradıcı, məsuliyyətli və vicdanlı insanlar, onların ağıl-kamalla təşkilatlandırdıqları cəmiyyət və dövlət hesabına mənalanır, dolğunlaşır, necə deyərlər, sivil səviyyədə müasirləşir və insaniləşir. Bu xüsusiyyət, fikrimcə, müasir qoyuluşda istər ictimai, istərsə də qlobal meqatrend problemi üçün çox zəruri və önəmlidir. Bu habelə nəzərdə tutulan siyasi islahatların uğurla aparılmasının mühüm şərti və tələbidir. Başqa cür də deyə bilərik: islahat və modernizasiyanın keyfiyyəti insanların, toplumun keyfiyyət səviyyəsindən yüksək ola bilməz. Belə bir yaxşı deyim var: “Nə atarsan aşına, o da çıxar qarşına”.

Ümumiyyətlə, ABŞ-ı gələcəklə bağlı ən maraqlı, sanballı əsərlər yazmış müəlliflərin vətəni saymaq olar. Xüsusən keçən əsrin 50-60-cı illərindən başlayaraq bu günə kimi bu ölkədə dünyaca məşhur olan xeyli sayda futuroloji yönümlü dəyərli kitablar yazılıb nəşr edilmişdir. Ən vacibi isə odur ki, bu kitablar bəşəri duruma, siyasi-iqtisadi-mənəvi və geosiyasi proseslərin cərəyanına, texniki-texnoloji inkişafa ciddi təsir göstərmişlər. Ümumiyyətlə, postindustrial və yaxud informasion cəmiyyət mövzularına həsr edilmiş əksər məşhur əsərlər kifayət qədər futuroloji elementlərlə, öncəgörmələrlə, maraqlı ideya və mülahizələrlə zəngindir. Bu yöndə düşünərkən, fikrimcə, C.

Neysbitlə yanaşı, ilk növbədə Deniel Bellin yaradıcılığı xüsusi qeyd edilməlidir. Həm nəzəri, həm də praktiki planda onun hələ keçən əsrin 70-ci illərindən başlayaraq işıq üzü görən dəyərli yazıları, deyərdim ki, müasir ABŞ-ın, ümumən, Qərb dünyasının son 45-50 ildə ictimai meqatrendlərinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Gerçəkliyin real təhlilinə əsaslanan və gələcəyə baxışla bağlı bütün sanballı əsərlərdə D. Bellin yaradıcılığı bir mənbə kimi götürülür və onun fikirlərinə istinad edilir. Heyranedici öncəgörmə istedadı ilə fərqlənən bu məhsuldar müəllifin ilk futuroloji əsəri (“Postindustrial cəmiyyət barədə qeydlər”) hələ 1967-ci ildə nəşr edilmişdir. Sonralar işıq üzü görmüş “Postindustrial cəmiyyətə xoş gəlmisiz” (1976), “Gələcək haqqında fikirlər” (1979) və digər məşhur əsərləri indinin özündə də dəyərli mənbə, fikir qaynağı kimi istifadə olunur. Hətta deyərdim ki, bu günün özündə də D. Bell kimi yaradıcı zəka sahiblərinin (C. Neysbitdən əlavə olaraq, məsələn: Elvin Toffler, Heidi Toffler, Qari S. Becker, Tomas Fridman, Duqlas Mak-Qreqor, Mark Porata, Stiven Cobs, Morris Yanovits, Kolin Norman, Con Herbers, Maykl Armstronq və b.) fövqəl əhəmiyyətli yaradıcılığı, başda ABŞ olmaqla, müasir Qərb dünyasının elmi-texniki-texnoloji inkişaf mahiyyətini mənalandıran və şərtləndirən, yüksək sivillik səviyyəsini göstərən ümumi meqatrendin həm təməl, həm də istiqamətverici qaynaqları rolunda çıxış edir. Bu müəlliflərin yaradıcılığını mən həyatverici, tərəqqi və sağlamlıq ruhu verən bulağa bənzədərdim. Onun suyundan içmədən, təfəkkürcə durulmadan, mənəviyyatca paklaşmadan təqdirəlayiq islah və modernləşmə mümkün deyil!

Gələcəyə hədəflənmə istiqamətində yazılmış və Qərb dünyasında ictimai meqatredlərin formalaşmasına əhəmiyyətli təsir göstərmiş bütün əsərlər və onların müəllifləri barədə hazırda geniş və ətraflı məlumat vermək imkanı olmasa da, burada yalnız elmi-ictimai, sosial-iqtisadi və siyasi şüura güclü təsiri baxımından üç kitabı qeyd edərdim: Elvin Toffler. “Hakimiyyətin metamorfozları” (1990) **[11]**; Tomas Fridman. “Müstəviləşmiş dünya” (2005) **[12]**; Geri S. Bekker. “İnsan davranışı: İqtisadi yanaşma” (2003) **[13]**.

Elvin Tofflerin adını çəkdiyim bu kitabı onun trilogiyasını tamamlayan, müəllifin orijinal, parlaq ideyalarının inkişafını kulminasiya nöqtəsinə çatdıran, gələcəyə baxış müstəvisində “sosial fəlsəfə” janrında yazılmış ən təsiredici əsərlərdəndir. Müasir sivilizasiyanın dəyişib yeniləşməsinə həsr olunmuş trilogiyada amerikalı sosioloq və futuroloq E. Toffler öz proqnozlarını nə utopiya, nə də antiutopiya sayır. Öz janrını o, “proktopiya”, yəni, praktiki utopiya adlandırır. Burada hədsiz idealizasiya yoxdur. Söhbət yaşadığımız indiki dünyadan fərqli insan üçün daha praktik və əlverişli dünyadan gedir. Lakin bu “yaxşı dünya” heç də utopiya deyil, burada da şərin (aclıq və xəstəliklərin, çirkli siyasətin, ədalətsizliyin) yeri var.

İctimai tərəqqiyə çoxölçülü təsir göstərən texniki-texnoloji mutasiyalar məsələsinə xüsusi diqqət yetirən E. Tofflerin fikrincə, bəşəriyyət yeni texnoloji inqilaba keçid edir. Birinci (aqrar sivilizasiyanın) və ikinci (industrial sivilizasiyanın) dalğaların yerinə tam yeni – fövqəlindustrial sivilizasiyanın yaranmasına aparan dalğa gəlir. Qeyd edim ki, hazırda çoxları üçün adi görünən bu fikir onun tərəfindən hələ keçən əsrin 70-80-ci illərində səsləndirilib və Qərb dünyasının yeni bir ictimai meqatrendə doğru transformasiyasında, öncül mövqelər, o cümlədən “soyuq müharibə”də qələbə qazanmasında özünəməxsus rol oynayıb. Biliyi qlobal faktor kimi dəyərləndirən E. Toffler göstərirdi ki, yeni dalğa tarixin ən möhtəşəm (bütün incəlikləri öncədən təsəvvür belə edilməyən) dönüşünə səbəb olacaq, ictimai və individual mövcudluğun köklü və hərtərəfli dəyişməsinə gətirib çıxaracaq. Və bu gün biz artıq həmin dəyişmə, mutasiya və transformasiyaların şahidiyik, həm də müxtəlif rolların daşıyıcısı olaraq, aktiv və ya passiv iştirakçısı!

Təqdirəlayiqdir ki, E. Toffler lokal və qlobal xarakterli dəyişmələrin müjdəsini verərkən heç də hərəkətverici qüvvəni siyasi rejimlərin əvəzlənməsinə yönəlmiş sosial inqilablarda görmürdü. Faktiki olaraq, o, sosial inqilablar vasitəsilə yaxşı nəyəsə nailolma paradiqmasına qarşı çıxış edir, onu yanlış və ziyanlı yanaşma-mövqe sayırdı. İctimai və qlobal tərəqqi məsələsinə bu cür baxış sərgiləməsilə E. Toffler, əslində, bir sıra görkəmli şəxsiyyətlərin (məsələn, kvant mexanikasının banilərindən olan V. Heyzenberq kimi dühaların!) tərəfini tutur, onlarla həmrəy olurdu. Mütəfəkkir başlıca hərəkətverici qüvvəni sürətlə artıb-zənginləşən, bütün fəaliyyət sahələrinə sirayət edən elmi bilikdə, texniki-texnoloji innovasiyalarda görürdü. Vurğulayırdı ki, yalnız bu yolla və bu müstəvidə bəşəriyyət zorakılıqdan, diktatdan, qeyri-insani rəftardan xilas ola bilər. Və bəşəriyyət bu zərurəti, yəni yeni

dalğaya keçidi nə qədər tez anlayarsa, bir o qədər müxtəlif, o cümlədən gözlənilməz təhlükə və fəlakətlərdən yayına bilər.

Mütəfəkkirin baxışlarını incələyib ümumi bir xülasə versək, məncə, bu qənaəti söyləmək olar: ictimai natarazlıqların, bütün neqativlərin mənbəyində, ilk növbədə elmsizlik, təfəkkür qüsurları və deməli, mənəviyyat qəbahətləri durur; ciddi təfəkkür qüsurları, idraki şikəstlik mütləq mənəvi-əxlaqi duruma (təkcə xüsusi və ümumi mənada) mənfi təsir göstərir, onu tənəzzül və deqradasiya məcrasına salır, ictimai münasibətlərdə nizam və harmoniyanı pozur; təqdirəlayiq birgəyaşayış mədəniyyətinin, fərdi və kollektiv azadlıq ruhunun pərvazlanması və təntənəsi yalnız elmləşmə, rasional təfəkkürə sahiblənmək yolu ilə mümkündür. Bu, yoxdursa, ictimai və fərdi həyat üçün vacib olan “**ölçü**” anlayışı destruksiyaya uğrayır, əməli funksionallığını itirir, deməli, təməlində daxili **nizam və ədalət** hökmü dayanan birgəyaşayış və birgəfəaliyyət mədəniyyəti zədələnir, artan sürətlə qeyri-insani çalarlar, vərdişlər, istək və niyyətlər yığımına çevrilir. Nəticə olaraq, yalançılıq və riyakarlıq, oğurluq və talançılıq, laqeydliq və qəddarlıq, rüşvət və korrupsiya, məmur özbaşınalığı və yekəxanalığı ictimai həyata qənim kəsilir. Və bu gedişatda heç bir sosial inqilab və yaxud kütləvi surətdə dini ehkamlara müraciət, möcüzə yarada biləcək xilaskar axtarışı əlac vasitəsi, qurtuluş və tərəqqi zəmini ola bilmir.

İctimai-tarixi prosesin mahiyyəti, qanunauyğunluqları və hərəkətverici qüvvələri haqqında nəzəriyyə kimi çıxış edən tarix fəlsəfəsi elmlər sistemində, bəlkə də, ən mühüm və əhəmiyyətli sahədir. Belə ki, bu elm sahəsi hesabına insanların, xalqlar və millətlərin, cəmiyyət və dövlətlərin taleyi, bugünü və gələcəyi müəyyənləşir – onlar ya tərəqqi və xoşbəxtliyə, ya da tənəzzül və bədbəxtliyə doğru gedirlər. İctimai praktikanın fundamentində dayanan nəzəriyyə istər-istəməz öz təsir gücünü göstərir, ictimai-tarixi gedişatın məzmun və mahiyyətini şərtləndirir.

Tarix fəlsəfəsinə öz töhfəsini vermiş görkəmli mütəfəkkirlərə məxsus belə fikir var: **ümumdünya tarixi – azadlıq anlayışının inkişafıdır; tarix – azadlığın dərkində tərəqqidir.** Bu fikir xüsusən Hegelin tarix fəlsəfəsində güclü və qabarıq verilir. Hegelin “Tarix fəlsəfəsi” əsərindəki titanik ideyalardan vəcdə gələn F. Engels 1840-cı ildə yazırdı: “Onun (Hegelin) tarix fəlsəfəsi sanki mənim qəlbimdən oxunub” (**20, s. 546**). Böyük filosofa görə, ümumdünya tarixi – bəşəriyyətin keşməkeşli tarixidir, burada da ən başlıca məqam **insanlıq potensialının** artması və güclənməsidir. İnsanlığın isə nüvəsini, məğzini daxili azadlıq təşkil edir. Və hər bir şəxs, xalq layiq olduğu qədər azadlığa çatır. Hegel hətta deyirdi: “İnsanın mahiyyəti azadlıqdır, lakin o, əvvəlcə bu azadlıq üçün yetişməlidir” (**18, s. 94**). Bu prosesdə insana hərtərəfli yardım zəruridir, onu azadlığın dərki prosesində təkbaşına, köməksiz qoymaq böyük səhv olardı. Mütəfəkkirlərin, səlahiyyət sahiblərinin də başlıca vəzifələrindən biri ondan ibarətdir ki, azadlığın dərki yolunda kamilləşmək üçün insanlara yol göstərsinlər, vacib mətləbləri aydınlaşdırsınlar, onlara şərait və imkan yaratsınlar, kömək etsinlər. K. Marks deyirdi: “Bir halda ki insanın xarakterini şərait formalaşdırır, deməli, şəraiti insaniləşdirmək lazımdır” (**21, s. 160**).

Ayrı-ayrı filosofların ümumdünya fəlsəfəsinə verdikləri töhfələr də məhz bundan ibarət olmuşdur ki, insanları, xalqları və cəmiyyətləri azadlığa yetişdirmək üçün müvafiq baxışlar sistemi, nəzəriyyələr ortaya qoysunlar, ictimai praktika üçün müfəssəl zəminlər yaratsınlar. Diqqətlə nəzər yetirsək görərik ki, bu missiyanın yükü altında çalışıb zəhmət çəkənlər heç də az olmayıb: Əl-Farabi və İbn Xaldundan tutmuş Gerderə, Kanta və Fixteyə, Şellinq və Hegelə, Marksa və Engelsə, Toynbi və Habermasa kimi. Bütün elmi-yaradıcılıq fərqlərinə və səciyyəvi xüsusiyyətlərə baxmayaraq, biz bütün bu korifeylərə minnətdar olmalıyıq. İndinin özündə də bu bəşəri xəzinədən bəhrələnmək üçün kifayət qədər əsas və zərurət var. Müasir dünyanın yenidən formatlaşması dövründə və köklü islahatların həyata keçirildiyi bir vaxtda bu zərurət daha da qabarıq özünü göstərir.

Məqsədi insanları azadlıq üçün yetişdirmək və bununla onları xoşbəxt etməkdən ibarət olan nəzəriyyə və təlimlərin yaradılması, əslində, hansısa yeni rasionallıq şəbəkəsinin, epistemoloji paradiqmanın işlənilməsi və təklif edilməsi deməkdir. Bu missiya qətiyyən xoş arzu və niyyətlər toplusunu ortaya atmaqdan, tarixi hadisələrin xronologiyasını verməkdən, salnamə yaratmaqdan ibarət deyil. Birmənalı olaraq deyə bilərik: burada təqdim olunan nəticə köhnə biliyin yox, mütəfəkkir tərəfindən generasiya olunmuş yeni biliyin məhsuludur. Bu yeni biliyi “**emercent bilik**” də adlandıra bilərik. Köhnə bilik elementləri yeni bilgilər sistemini yaratmaq üçün yalnız vasitələrdən biri ola bilər.

Fundamental əsaslara söykənən yeni bilik sistemini isə yalnız epistemoloji yəqinlik və optimallıq şərtləri daxilində yaratmaq mümkündür. Bu o deməkdir ki, qnoseoloji zəminlər, metodoloji yanaşmalar, məntiqi qanunauyğunluqlar və aksioloji məqamlar baxımından alim-tədqiqatçı üçün bir müəyyənləşmə, təfəkkür və əməl aydınlığı var. Ümumiyyətlə, yeni elmi məhsulu yalnız köhnə biliklə, ənənəvi idraki üsul və vasitələrlə kifayətlənməklə əldə etmək mümkün olmur. Əvvəlcədən verilmiş, artıq mövcud olan biliklər hesabına yalnız “yaxşı padşah” nağılları, yaxud da – “ideal dövlət” haqqında utopik baxışlar toplusu quraşdırmaq olar. Başqa cür desək, ümumdünya tarixinin sirrlərinə, ictimai-tarixi proseslərin mahiyyətinə varmaq yalnız professional fəlsəfəçilik müstəvisində və səviyyəsində mümkündür. Bu iş, bu missiya həvəskar üçün hesablanmayıb, onun gücü çərçivəsində deyil! Missiyanın möhtəşəmliyinin bir səbəbi də elə bundadır.

Bir məqama da xüsusi diqqət yetirmək istərdim: yeni, yəni, emercent bilik istehsalı həm də, yaradıcı intuisiya ilə sıx bağlıdır. Bunu, bəlkə də, fəhm də adlandırmaq olar. Yaradıcı intuisiyə elə bir anadangəlmə ilahi qabiliyyətdir ki, nadir insanlara məxsus olur. Burada, əlbəttə ki, söhbət elmi intuisiyadan gedir. Elmi intuitsiyanı, məncə, elə elmi fəhm kimi də səciyyələndirə bilərik. Bu amil də mütəfəkkir missiyasının möhtəşəmliyini şərtləndirir. Fikrimcə, elmi-fəlsəfi intuisiya (fəhm) olmadan hansısa təfəkkür sərrastlığı, dərindən və əhatəli dərketmə, doğru-düzgün əqli nəticələr generasiyası mümkün deyil.

Düşünürəm ki, konkret zaman-məkan çərçivəsində ictimai meqatrendin müəyyənləşməsi, hərəkət və inkişaf düsturunun formulə edilməsi yuxarıda göstərdiyim missiya daxilində ən mühüm məsələlərdəndir. Meqatrend dedikdə, cəmiyyətin simasını və mahiyyətini, fəaliyyət dinamikasını və dayanıqlığını, aparıcı vektorunu və inkişaf hədəflərini müəyyənləşdirən əsas hərəkət paradiqması nəzərdə tutulur ki, özündə ideya-siyasi, sosial-iqtisadi, hüquqi-əxlaqi, mənəvi-psixoloji ünsür və parametrlərin sintezləşmiş cəmini daşıyır. İctimai meqatrendi müəyyənləşməmiş cəmiyyət – müfəssəl nəzəri-ideoloji bazası olmayan cəmiyyətdir ki, onun da hansısa uğurlara imza atması mümkün deyil. Belə cəmiyyətlər mövcudluqlarını saxlamaq naminə yalnız bir seçim edə bilərlər – get-gedə daha çox avtoritarizmə və totalitarizmə doğru yuvarlanmaq! Tarix dəfələrlə bunu sübuta yetirib.

Bəşər tarixində belə hallar da olub ki, müəyyən zaman intervallarında ayrı-ayrı cəmiyyətlərin fəaliyyətini istiqamətləndirən və tənzimləyən nəzəri-ideoloji baxışlar sistemi, formal da olsa, öz təsirini göstərib. Lakin bu təsir ya qısamüddətli, yaxud da, ümumiyyətlə, elə əvvəlcədən effektsiz və qeyri-məhsuldar olub. Bünövrəsindən reallıqlarla hesablaşmayan, ifrat xəyalpərəstliyə, sübyektivliyə söykənən “nəzəriyyə-layihə” faktiki olaraq cəmiyyətlərin lehinə yox, əleyhinə işləyib. Son nəticədə, insanları azadlığın dərki məsələsində irəliyə doğru deyil, geriyə aparıb. Müəyyən dərəcədə bu aqibət keçmiş sovet xalqları üçün də xarakterik olub. SSRİ-nin süqutundan sonra postsovet ölkələrində baş vermiş hadisələr, bu gün də cərəyan edən xoşagəlməz, hətta dramatik proseslər tam aydınlığı ilə deyilənləri təsdiqləyir. Həyat göstərdi ki, postsovet məkanında yaşayan əksər xalqlar həqiqi azadlığın həm dərki, həm də praktikada reallaşması baxımından, Hegelin təbirincə desək, lazımınca yetişməmişlər. Bir daha aydın oldu ki, ənənəvi buxovların və sərhədlərin götürülməsi heç də hələ azadlığa nail olmaq demək deyil.

Cəmiyyətlərin dolğun inkişafı üçün ictimai meqatrendin müəyyənləşməsi qədər, həm də onun reallıqla, gerçəkliklə uzlaşması vacibdir. Başqa sözlə, hər bir meqatrend gerçəklikdən qaynaqlanmalı və gerçəkliyin davamı kimi çıxış etməlidir. Burada cəmiyyətin öz səciyyəvi xüsusiyyətlərini, yaşadığı keçmişini və bu gününü, zamanənin tələblərini və verdiyi imkanları, əhalinin xarakterini və potensialını, xarici əlaqələr müstəvisində onun tutduğu yerin nədən ibarət olmasını, artıq fəaliyyət göstərən iqtisadi, siyasi, sosial institutların vəziyyətini və mənəvi durumun keyfiyyətini, coğrafi faktorları və geosiyasi məqamları nəzərə almaq əhəmiyyətli məsələlərdəndir. Meqatrendin gücü və optimallığı cəmiyyətin, xalqın səciyyəvi xüsusiyyətlərinə, keyfiyyət göstəricilərinə adekvat olmalıdır. Onun əsas məzmunu cəmiyyətin öz daxilindən gələn tellər-köklər hesabına qidalanmalıdır. Əks təqdirdə, heç bir meqatrend fəaliyyət qabiliyyətli, optimal ola bilməz. Bəşəri sərvət sayılan “demokratiya”, “hüquqi dövlət”, “liberal dəyərlər” kimi məfhumlar, əgər onların qərarlaşması vacib bilinirsə, yalnız bu zəmində reallaşaraq öz məzmun-mahiyyətlərini ifadə edə bilərlər.

Vurğulamaq istərdim ki, hazırda aktual olan və faktiki reallaşdırılan dünyanın yenidən formatlaşması məsələsi ictimai meqatrend problemi ilə bilavasitə bağlıdır. Yenidən formatlaşmanın

necəliyi məhz meqatrendlərin müəyyənləşməsindən asılıdır. Meqatrend seçimləri həmçinin, geosiyasi və geoiqtisadi mənzərəni müəyyənləşdirən başlıca amillərdəndir. Xüsusən sosial-iqtisadi, siyasi və mənəvi-mədəni islahatlar dövründə meqatrend problemi olduqca böyük aktuallıq kəsb edir. Və əksər hallarda problemə yenidən baxış zərurəti ortaya çıxır.

Dünyanın yenidən formatlaşdırılması, deməli, müvafiq geosiyasi fəlsəfə zəminində kompleks işlərin həyata keçirilməsi, əlbəttə ki, ümdə bir problemə münasibətdə aydınlıq tələb edir. Bu problem sual şəklində belə səslənir: bəşəriyyətin düşdüyü “ölü ilmə”dən çıxış yolu nədən ibarətdir? Hansı istiqamətlə getməli, bəşəriyyət nəyə üstünlük verməlidir? Əlbəttə ki, mövqelər müxtəlifdir. Bir-birinə tamamilə zidd olan yanaşmalar da var, bir-birilə uzlaşan, elementləri çarpazlaşanlar da. İri planda isə mövqeləri iki qrupa bölmək olar: kapitalist xətti dəstəkləyənlər və sosialist xəttə üstünlük verənlər. Hər bir qrupun da daxilində yüzlərcə qollar, axınlar mövcuddur. Bir sözlə, yekcins olmayan mənzərə göz önündədir.

Öz mövqeyimi açıqlayaraq deyə bilərəm ki, bəşəriyyətin nicatı, düşdüyü “ölü ilmə”dən çıxışı, əsasən, sosial ədalət prinsipini, şəxsiyyət suverenliyini və qanunçuluğu rəhbər tutan sosialist vektorundadır. Bu vektor üzrə hərəkət qətiyyən Lenin-Stalin təcrübəsini təkrarlamağı, onu yenidən bəşəriyyətə yaşatmağı nəzərdə tutmur. Ümumi bəşəri meqatrend, eynilə Çin modelini olduğu kimi götürüb tirajlamaqda da deyil. Şübhəsiz, Çin təcrübəsi, onun ortaya qoyduğu qazanclar, işlək mexanizmlər istifadə olunmalıdır və olunacaq – bir zəmin, nümunə və təkan kimi! Ümumi dünyagörüşü, ideya-siyasi və nəzəri elementlər baxımından da Çin meqatrendi faydalıdır və şübhəsiz, ona istinad ediləcək. Həmçinin, Şimali Avropa ölkələrinin, Yaponiya, Cənubi Koreya, Tayvan və Sinqapurun nümunəvi islahatlar təcrübəsindən istifadə olunmalıdır. Lakin, prinsipcə, mənim nəzərdə tutduğum ictimai və ümumbəşəri (qlobal) meqatrend öz mahiyyəti etibarilə tam yeni elmi, ideya-siyasi və sosial-iqtisadi biliklər sistemidir, həm də, yeni mənəviyyat və geosiyasət fəlsəfəsidir. Burada məqbul və vacib sayilan köhnə bilik yeni (emercent) biliyin yalnız bir ünsürü, zəruri tərkib hissəsi ola bilər.

Yüz il əvvəl də bəşəriyyət analoji dərin böhranla üzləşmişdi və alternativlər axtarışında idi. 1917-ci ilin Böyük Oktyabr sosialist inqilabı bu alternativlərdən seçimə bir cavab olaraq baş vermişdi. Onun hazırlanmasında, həyata keçirilməsində və bunun davamı olaraq yeni dövlətin qurulmasında əvvəlcədən və məqsədli surətdə zorakılıqdan, sərt üsullardan, amansız rəftar qaydalarından istifadə məqbul və hətta zəruri sayılırdı. Bunlar artıq inqilabın nəzəri əsaslarında təsbit olunmuş və hər vəchlə təbliğ-təşviq edilirdi. V. İ. Leninin o dövrün bir çox sosial-demokratları ilə, sosialist vektoruna üstünlük verənlərlə mübahisəsi, kəskin çəkişməsi də əsasən bu səbəbdən və bu mövzu ətrafında idi. Bu kontekstdə, ilk növbədə, onun Aleksandr Aleksandroviç Boqdanovla baş vermiş fikir toqquşmalarını xüsusi qeyd etməyi vacib bilirəm.

Təşkilatlanma və idarəetmə nəzəriyyəsi məktəbinin parlaq nümayəndələrindən olmuş A.A. Boqdanov (1873-1928) öz zəmanəsini fikir cərəyanı, idraki gücü və potensialı baxımından xeyli qabaqlamış, “tektologiya” adlanan ümumi təşkilatlanma elmini yaratmışdır. Onun onilliklər sonra formalaşacaq sistemli yanaşmaya, bütövlük problematikasına, mürəkkəb sistemlər nəzəriyyəsinə, sinergetika və xaos nəzəriyyələrinə təsiri danılmazdır. Yaradıcılığına yaxından bələd olan bir adam kimi, deyə bilərəm ki, A. Boqdanovu tam əsasla bu gün mən işlədiyim və təbliğ etdiyim postneoklassik epistemologiyanın ideya sələfləri sırasına da aid etmək olar. Bu qənaətlərimi 80-90-cı illərdə yazdığım əsərlərdə ətraflı arqumentləşdirməyə çalışmışam (**14**).

Rusiya imperiyasında həqiqi sosializm barədə Leninlə Boqdanovun mübahisəsi, demək olar ki, onların Kapridəki söhbətləri ilə tamamlanıb. Sosialist Boqdanov 1905-ci il inqilabının məğlubiyyəti şəraitində israrla çalışıb ki, sosializmin mənəvi-etik dəyərlər sistemini və idarəetmə elminin perspektiv tələblərinə cavab verən potensialını inkişaf etdirsin, bu yönümdə ortada olan zərurətin ödənilməsinin nə qədər vacib olduğunu sosialist xəttinə mənsub aparıcı şəxslərin, o cümlədən V. Leninin diqqətinə çatdırsın. Onun tektologiya elminin (bir növ, kompyuterəqədərki kibernetikanın!) əsas qayəsi də elə buradan qaynaqlanır. Bu məqsədlə o, hətta “İnsan və maşın arasında” adlı kitabında (1913-cü ildə nəşr olunub) idarəetmə sistemləri üzrə zəmanəsinin ən məşhur mütəxəssisi F. Teylorun nəzəriyyəsini dərindən təhlil edib, əhəmiyyətli nəticələr ortaya qoyub.

Boqdanov bəşəriyyətin işıqlı gələcəyini, belə deyək, kommunizmi bütün varlığı ilə istəyən və buna çalışan alicənab bir insan olub. Lakin V. Lenin və L. Trotski kimi odlu-alovlu inqilabçılardan fərqli olaraq, əvvəldən axıracan bu ideala doğru aparan yolun necəliyi, onun insani-humanist dəyərlər və vasitələr hesabına reallaşması barədə düşünüb. Sadəcə düşünməyib, bunun üçün çalışıb, əlindən gələni edib. Onun üçün məqsədin (nəticənin) əhəmiyyətliliyi hədəfəçatma prosesinin optimallığı ilə ölçülüb. O, həqiqətən də, böyük alim idi və onun mövqeyi əsl insan mövqeyi olub!

Lenin, habelə Lev Trotski üçün isə hər vəchlə, insani dəyərlərin amansızcasına təkzibi və tapdalanması hesabına belə, hakimiyyətə yiyələnmək məsələsi vacib idi. İdeala-məqsədə aparan yolun necəliyi, prosesin dramatikliyi, üsul və vasitələrin məqbulluğu məsələsi onları qətiyyən düşündürməyib. Aydındır ki, məntiqi olaraq, Leninin cəmiyyəti kökündən dəyişdirmək düsturu aşağıda sadalanan məqamları — elementləri özündə daşımalı idi:

- mənəvi-etik dəyərlərlə və fərqli maraq daşıyıcıları ilə hesablaşmamaq;
- müxalif mövqeli aktorları ictimai prosesdən xaric etmək, hər vasitə ilə onların fəallığına son qoymaq;
- diktat və gücdən, amansız təqib və zordan istifadə;
- “Mən”in suverenliyini çərçivələmək, yəni yox etmək, fərdi və kollektiv düşüncəni fövqəlideyaya tabe etmək;
- sinergetik başlanğıcları söndürmək, özünüidarə və özünütənzimləmə qabiliyyətlərini fövqəlideya istiqamətində nəzarətə almaq, onları hökm və direktivlər basqısı altında saxlamaq;
- cəmiyyətin bütün seqmentlərinə sərt müdaxiləni və şiddətli mübarizə amansızlığını rəhbər tutmaq;
- təbliğat-təşviqat, dezinformasiya, yalan və qorxu amilini önə çəkmək;
- donosçuluğa-seksotluğa, satqınçılığa rəvac vermək;
- fərdin və ictimai qrupların tamamilə dövlətə-hakimiyyətə tabe edilməsi;
-siyasətdə və iqtisadiyyatda ciddi fikir müxtəlifliyinə, rəqabətə yol verməmək, təbii opponentlik institutunu səhnədən silmək;
-ictimai nəzarət mexanizmlərini bilavasitə dövlət-hakimiyyət nəzarət sisteminin tərkib hissəsinə çevirmək;
- elm və təhsildə, mədəniyyətdə, incəsənət və ədəbiyyatda, mənəvi həyatın bütün sahələrində vahid partiyalılıq prinsipini rəhbər tutmaq.

Sonralar, bildiyimiz kimi, Stalin məhz həmin prinsipləri həyata keçirmişdir. Onun rəhbərliyilə reallaşdırılmış dövlət quruculuğuna xas olan sərt idarəçilik, hətta qəddarlıq və amansızlıq, necə deyərlər, bolşevizmin təməlində dayanan nəzəri müddəalardan, şübhə altına alınmayan imperativlərdən qaynaqlanırdı. Bunu Lenin siyasi fəlsəfəsindən, ümumiyyətlə, dövrün dominant inqilab nəzəriyyəsindən irəli gələn bolşevizmin nizamnaməsi-məramnaməsi tələb edirdi. Hər halda Stalinin adına yazılan qəddarlıq və amansızlıq yalnız onun şəxsi keyfiyyətlərinin, anadangəlmə təbiətinin törəməsi və məhsulu deyildi. Bunlar bir bəşəri ideal kimi təqdim və təşviq olunan layihənin özündən doğan atributiv elementlər, xassələr idi.

Həqiqətə qalanda, məsələ təkcə nəzəri müddəalarda-prinsiplərdə də deyildi, belə ki, başqa alternativ də yox idi. Qanlı-qadalı vətəndaş müharibəsindən, Birinci Dünya savaşından çıxmış ölkəni, bütün həyat sahələri tənəzzülə uğramış, alt-üst olmuş məmləkəti başqa yolla, özü də qısa bir müddətdə dirçəltmək, bəlkə də, mümkün deyildi. Yumşaq və rəhmdil dövlət quruculuğu, mülayim idarəçilik, yəqin ki, dövrün tarixi şərtləri ilə uzlaşmırdı. Xüsusən də kapitalist dünyasının şiddətli basqı və həmlələrini nəzərə alsaq, daha aydın olar ki, mövcud tarixi şərait Stalin üçün başqa alternativə yol vermirdi. Bu fövqəlinsan da məhz tarixin diqtə etdiyi alternativ üzrə hərəkət etmişdir.

Yumşaq, mülayim idarəçilik Stalindən sonra Xruşşovun gəlişi ilə başlamış və SSRİ-nin tənəzzül xətti də elə o zamandan özünə yer etmişdir. Əslində, Xruşşovun gətirdiyi “rəhmdillik”, “mülayimlik” sovet xalqından, sadə insanlardan çox, bürokratiyaya, nomenklaturaya hesablanmışdı, yuxarı-aşağı, müxtəlif iyerarxiya pillələrində çalışan məmurların maraqlarına xidmət edirdi. Stalinin yaratdığı və sərt tələblər çərçivəsində saat mexanizmi kimi işləyən dövlət

idarəetmə sistemi (sovet məmurunu ciddi nəzarət və bərk əl altında saxlamaq, onu görməli işinə cavabdeh və məsul etmək düsturu-üsulu) artıq çoxdan nomenklaturanı, yüksək vəzifəli məmurları

qane etmirdi. Nomenklatura daim başının üstündə zərbə vurmağa hazır olan “Domokl qılıncı”ndan yaxa qurtarmaq istəyirdi. O, sərbəstliyə, özfəaliyyət sahəsində padşahlığa, şəxsi və ailə istəklərini təmin etməyə can atırdı. Xruşşovun hakimiyyət başına gəlməsi, habelə olduqca sərt, tələbkar və bacarıqlı menecer olan L.P. Beriyanın tezliklə aradan götürülməsi də elə əsasən bu motivlərlə izah oluna bilər.

Bəli, Stalinin ciddi nəzarəti, sərt tələbləri altında məhz xalq və dövlət üçün fəaliyyətə səfərbər edilmiş Siyasi Büro üzvləri, yuxarı eşelonda təmsil olunan məmurlar, ağır məsuliyyət və fədakarcasına çalışmaq yükündən yayınmaq, yaxa qurtarmaq, artıq özləri, ailələri və yaxın çevrələri üçün yaşamaq istəyirdilər, həm də qat-qat yaxşı yaşamaq! Burada şəxsi-subyektiv və ailə-qrup maraqları naminə fəaliyyət göstərmək – yüksək (dominant) səviyyədə, əzab-əziyyət hesabına qurulmuş dövlət və zəhmətkeş insanlar barədə düşünmək isə yox dərəcəsində idi. Nomenklaturanı xalqın güzəranı, onun rifah halının yüksəldilməsi, cəmiyyətdə həqiqi azadlığa və ədalətə yol açmaq kimi məsələlər narahat etmirdi. Onu narahat edən, necə deyərlər, burjua xislətindən qaynaqlanan istəklər idi: “ümumi” maraqların hesabına olsa da belə, “təkcə” və “xüsusi” istək-arzuları ödəmək! Beləliklə də, faktiki olaraq, “xüsusi subyektivlik” amili tam məşum bir formada özünə yer etmişdi.

Ən dəhşətli məqamlardan biri ondan ibarət idi ki, bu xüsusi subyektivlik, hər şeydən əlavə, sovet ideoloji sistemini içindən darmadağın edirdi. Belə ki, kollektivçilik ruhu aşımalı, hamıya və hər bir sovet adamına xidmət etməli ideologiya əməldə imtiyazlı azlığın mənafelərinə tabe etdirilirdi. Bununla da rəsmən guya rəhbər tutulan ideologiya reallıqla qarşılıqlı təmasda qaçılmaz ziddiyyətlər müstəvisinə salınırdı. Bu o demək idi ki, rəsmi ideologiya ilə gerçəklik, sözlə əməl arasında günbəgün artan uyğunsuzluğa təməl qoyulmuşdu. Aydındır ki, belə bir şəraitdə mənəvi destruksiyaya, fərdi və kollektiv şüurda ruhi-psixoloji diskomforta yol açılır, dövlətə və hakimiyyətə münasibətdə insanlarda inamsızlıq və hətta nifrət yaranır, habelə rəsmi dövlət ideologiyasının özü ikrah hissi doğurur və sürətlə gözdən düşür.

O da tam aydındır ki, geosiyasi rəqiblər üçün belə vəziyyət, necə deyərlər, göydəndüşmə olur. Onlar yaranmış fürsətdən geninə-boluna bəhrələnmək, təhlükəli rəqibi sıradan çıxarmaq istəyində bulunur, bütün təbliğat-təşviqat, kəşfiyyat-agentura, təxribat-diversiya şəbəkəsini daha da intensiv surətdə işə salır, gecə-gündüz rəqib ölkə əhalisinə müxtəliv kanal və vasitələrlə təsir etməklə insanların dünyagörüşünü öz məkrli niyyətləri istiqamətində formalaşdırırlar. “Beyinlər yuyulur”, bir qayda olaraq, cır düşüncəli millətçilərdən, şovinist xislətli adamlardan, psixopatik tiplərdən, lümpen şüurlu, özünəvurğun “dəli oğlan”lardan əməlli-başlı istifadə edilir. Maraqlı qüvvələr hər vəchlə çalışırlar ki, hədəfə aldıqları dövlətdə idarəetmənin təsirli nöqtələrində maddiyyatçı, mənfəətdar, savadsız və vicdansız məxluqlar yerləşsinlər, beləliklə də, mütərəqqi ideya-ideallara, həqiqi milli hiss və maraqlara, ümumbəşəri dəyərlərə heç bir daxili vurğunluğu, sadiqliyi olmayan məmurlar ordusu yaransın. Son nəticədə, cəmiyyətdaxili korroziya sürətlə artır, idarəetmədə xoşagəlməz meyillər yayılır, rüşvətxorluq və korrupsiya idarəetmə üsuluna çevrilir, xalqla hakimiyyət, vətəndaşla dövlət arasında dərinləşən uçurum yaranır.

Geosiyasi güclərin (kapital dünyasının) aşkar və gizli müdaxiləsi nəticəsində təzahür edən bütün bu simptomlar Stalinin ölümündən sonra qabarıq və artan şiddətlə özünü göstərməyə başladı. N. Xruşşovun hakimiyyət başına gəlməsi ilə, demək olar ki, fəhlə sinfinin, ümumən, zəhmətkeşlərin statusuna və ictimai nüfuzuna sarsıdıcı zərbə vuruldu. Nomenklatura məqsədli və ardıcıl surətdə əmək adamının ictimai nəzarətindən çıxarılır, onunla hesablaşmamaq hüququ və imkanı qazanırdı. Əmək adamının diktaturası əvəzinə, imtiyazlı bürokratiyanın, nomenklaturanın diktaturası formalaşdırılırdı. Paralel olaraq, fəhlə-kəndli və ziyalı nomenklaturası da yaradılırdı ki, ümumiyyətlə, bu “qarmaq”lar hesabına xalqı itaətdə saxlamaq mümkün olsun və siyasi isteblişmentin imtiyazlı həyatına təhlükə yaranmasın. Xalqı yox, məsuliyyətdən və qanunun tələblərindən azad olan nomenklaturanı qoruyan sovet dövləti artıq ciddi korroziyaya, tənəzzülə uğradığını nümayiş etdirirdi. Sonralar L. Brejnev, K. Çernenko və M. Qorbaçovun Baş katib kürsüsünə seçilmələri də elə bu korroziya — çürümə prosesinin davamı, bir ifadəsi kimi izah oluna bilər.

Dünyanın taleyində təsirli rol oynamış tarixi hadisə və prosesləri, hansısa bir meqatrendin özünü necə büruzə verməsi qismində təhlil-tədqiq etmək olar və bu iş vacibdir, lakin baş vermiş tarixi hadisəni birtərəfli mövqedən mühakimə etməyi məqsədəuyğun və məqbul saymıram. Elə mən Böyük

Oktyabr inqilabına və Sovetlər İttifaqının təcrübəsinə də bu mövqedən yanaşıram. Nəyisə, kimisə alqışlamaq və yaxud qaralamaq fikrindən də uzağam. Sadəcə, bəzi mətləbləri müəyyənləşdirmək və onları reallaşdırmaq, məqbul saydığımı oxuculara çatdırmaq, konkret olaraq, gələcək üçün hansı yolun daha düzgün, optimal olduğunu aydınlaşdırmaq naminə öz təhlilimi aparır və fikirlərimi bölüşürəm.

Bir çox illər əvvəl marksizm təlimini təhlil edərək əsaslandırmışdım ki, K. Marksın nəzəriyyəsi – dopinq nəzəriyyədir, yəni, onun sağlamlaşdırıcı gücü-potensialı qısamüddətli ola bilər. Eyni zamanda, göstərmişdim ki, marksizm xoşməramlı motivlərdən qaynaqlansa da, amansız diktaturaya meyllik onun bətnindən, daxili məntiq-mahiyyətindən doğur. Nəzəriyyədə marksizmi birmənalı qəbul edən və rəhbər tutan istər-istəməz, ictimai-tarixi praktikada zor işlətməyə məhkumdur, başqa cür ola bilməz. Marksizm təlimi əsasında ictimai rekonstruksiya həyata keçirmək – elə öncə zora-təqibə, bir sözlə, diktaturaya arxalanmaq və ona rəvac vermək deməkdir! Bu təlimdə, faktiki olaraq, siyasi motivli fikir mütləq həqiqət qismində götürülərək mütləqləşdirilir, bu "yeganə həqiqət"ə şübhə yeri qoyulmur; hər hansı fərqli fikir, opponent mövqeyi birbaşadan təkzib və rədd edilir, bunula da ictimai rekonstruksiya prosesində "yadlar" kateqoriyasına daxil edilənlər sosial-siyasi, iqtisadi və mənəvi-mədəni iştirakçılıqdan kənarlaşdırılırlar. Hətta onların açıq-aşkar təqibi, fiziki məhvi də məqbul sayılır. Sovetlər praktikası bu məqbulluğu nəinki təsdiq etmiş, hətta həyata da keçirmişdir. 37-ci il də daxil, həyata keçirilmiş silsilə repressiyalar elə bu qəbildəndir. Ümumiyyətlə, yalnız marksist-leninçi müddəalara söykənən siyasi praktika şəraitində hansısa demokratik norma və prinsiplərə, bərabərhüquqlu ictimai iştirakçılığa yer verilmir, çünki özünütəşkil və özünüidarə ocaqları, sinergetik başlanğıclar öncədən sıxışdırılır və boğulur. Belə siyasi praktika mühitində dövlət yalnız "bərk əl", "dəmir iradə", sərt idarəçilik və total təbliğat-təşviqat vasitəsilə öz funksionallığını saxlaya bilər.

Demək istədiyim ondan ibarətdir ki, Stalinin adına-ayağına yazılan zor, təqiblər, repressiyalar bilavasitə marksizm-leninizmdən irəli gələn nəticələr idi. Siyasi təlim olan leninizm marksizmin konkret zaman-məkan daxilində bir modifikasiyası, K. Marksın öz ifadəsilə desək, təbii tarixi məhsulu olmuşdur. Ehtimal ki, mükəmməl elmi biliyə malik mütəfəkkir, cəmiyyətin bir mürəkkəb sistem olduğunu və bu mürəkkəbliyin necəliyini çoxlarından yaxşı bilən alim-ensiklopedist, həkim və yazıçı A. Boqdanov məhz marksizmin yuxarıda göstərdiyim bu neqativlərini dərk edərək, "sadiq marksist", "dünya proletarlarının rəhbəri" V. Leninin baxışlarını bölüşməkdə çətinlik çəkirmiş, o vaxtın sosial-demokratlarından və hətta bolşeviklərindən olsa da (1905-ci ildən 1912-ci ilə qədər). Boqdanovun sosializmi, əslində, Leninin və bütövlükdə bolşeviklərin sosializmindən bir sıra prinsipial müddəalarına görə fərqlənirdi, özü də - yaxşı mənada! (**17**). O, sosializmin mənəvi-etik tərəflərinə, əsaslarının konstruktivlik-rasionallıq tələblərinə və ümumi təşkilatlanma, özünüidarəetmə, sisteməqovuşma və sistemyaratma məsələlərinə daha həssas və elmi surətdə yanaşırdı.

Bu yerdə başqa bir alim-mütəfəkkirin, XX əsrin ən nəhəng elm adamı Albert Eynşteynin sosializmə bəslədiyi vurğunluğunu xatırlatmaq istərdim. Onun "Nə üçün sosializm?" adlı essesi tanınmış Amerika siyasi iqtisadçısı, monopolist kapitalizm nəzəriyyəsinin banisi Pol Syuzinin xahişi ilə yazılıb və 1949-cu ilin may ayında "Aylıq icmal" (Monthly Review) jurnalının birinci sayında dərc edilib (**23**). O illərdə Eynşteyn Qərbdə irticaya qarşı aparılan mübarizənin mərkəzində fəallıq göstərib, ABŞ-da vətəndaş hüquqlarının pozulmasına qarşı vuruşub və sülh uğrunda beynəlxalq hərəkatın təşkilatçısı olub. Sosializmə üstünlük verən və onu alqışlayan alim, eyni zamanda sosializm quruculuğunda adekvat metodların, yəni insani üsul və vasitələrin vacibliyi məsələsini önə çəkib. Onun fikrincə, həqiqi sosializm sosial-etik məqsəd daşıyır və bu məqsədin reallaşması insani keyfiyyətlərin artmasından keçir. Cəmiyyət, ictimai mühit insanları təhdid etməməli, onların üzvi sığınacaq və rahat fəaliyyət yeri olmalıdır. Habelə, Eynşteyn zəruri saydığı planlaşdırmanın özlüyündə, əlahiddə götürüldükdə, kafi olmadığını söyləyib.

Eynşteynin həmin essedəki mülahizələrindən maraqlı və əhəmiyyətli əqli nəticələr hasil olunur: kapitalizm cəmiyyəti istər-istəməz insanları eqoistliyə sövq edir; öz eqoistliklərinin əsirinə çevrilmiş bədbəxt bəndələr isə daim özlərini tənha, həyatın ən sadə sevinclərindən məhrum, qorxu və təhdidlər içərisində hiss edirlər; insan həyatının mənasını yalnız özünü cəmiyyətə, başqalarına, ülvi mətləblərə,

ali məqamlara həsr etdikdə tapa bilər. Qeyri-insani, dəhşətli vəziyyətin həqiqi mənbəyi məhz kapitalizmə xas olan fetişləşmiş iqtisadi rəqabət və iqtisadi anarxiyadır. Biz qarşımızda böyük bir istehsal-istehlak icması görürük ki, onun hər bir üzvü bir-birini kollektiv əməyin məhsulundan məhrum etməyə çalışır. Və zorla deyil, əsasən qanunlarla sanksiyalanmış qaydalara riayət etməklə. Onu da nəzərdən qaçırmamalıyıq ki, zəruri olan bütün istehsal vasitələri, iqtisadi güc ayrı-ayrı şəxslərə məxsusdur, onların mülkiyyətidir. Anlamaq vacibdir ki, hətta nəzəriyyədə fəhlənin əməkhaqqısı onun istehsal etdiyi məhsulun dəyəri ilə müəyyənləşmir.

Böyük alim vurğulayır ki, xüsusi kapitala azlığın əlində cəmləşmək (konsentrasiya olmaq) tendensiyası xasdır. Bu, bir tərəfdən, kapitalistlər arasındakı rəqabətlə bağlıdır, müəyyən qədər də onunla ki, texniki-texnoloji inkişaf və dərinləşən əmək bölgüsü kiçik istehsal vahidlərinin hesabına nəhəng istehsal vahidlərinin formalaşmasını səbəbləndirir. Bu proseslər nəticəsində kapitalist oliqarxiyası yaranır ki, onun da dəhşətli hökmranlığını hətta demokratikcəsinə təşkil olunmuş cəmiyyətin özü effektli surətdə məhdudlaşdıra bilmir. (Bu yerdə bizim, guya inshisara, oliqarxiyaya qarşı mübarizə aparan milli demokratlara məsləhət görərdim ki, Eynşteyn kimi dahiləri yenidən yaxşı-yaxşı oxusunlar!).

"Nə üçün sosializm?" məqaləsini A. Eynşteyn bu fikirlərlə tamamlayır: "Mən əminəm ki, bu dəhşətli şərdən yaxa qurtarmaq üçün yalnız bircə üsul var – müvafiq təhsil sisteminə malik sosialist iqtisadiyyatının yaradılması yolu ki, ictimai məqsədlərə çatmağa yönümlənmiş olsun. Belə iqtisadiyyatda istehsal vasitələri bütün cəmiyyətə məxsusdur və plan üzrə istifadə edilir. İstehsalı cəmiyyətin tələbatlarına uyğun tənzimləyən planlı iqtisadiyyat zəruri əməyi işqabiliyyətli cəmiyyət üzvləri arasında paylaşdıra bilərdi və hər bir kişinin, qadının və körpənin yaşamaq hüququna qarant olardı.

Təbii qabiliyyətləri inkişaf etdirməkdən əlavə, insanın təhsillənməsi başqa adamların həyatına münasibətdə məsuliyyət hissinin inkişafını (hakimiyyətin və uğurun bizim cəmiyyətdəki tərənnümünün əvəzinə) özünə məqsəd qoyardı. Yadda saxlamaq zəruridir ki, planlı iqtisadiyyat hələ sosializm demək deyil. Öz-özlüyündə o, şəxsiyyətin tam təhkimçiliyi ilə müşayiət oluna bilər. Sosializmin qurulması həddən ziyadə mürəkkəb sosial-siyasi problemlərin həllini tələb edir: siyasi və iqtisadi mərkəzləşmənin yüksək dərəcədə olmasını nəzərə alaraq, necə etmək lazımdır ki, bürokratiya fövqəlgücə çevrilməsin? Şəxsiyyət özünün və başqalarının hüquqlarının müdafiəsini, bununla bir yerdə isə, bürokratiya hakimiyyətinə qarşı demokratik əks-təsiri necə təmin etməli? Sosializmin məqsəd və problemlərinə dair aydınlıq bizim keçid zamanında nəhəng əhəmiyyətə malikdir" (**24**).

Sosializmin danılmaz üstünlüklərindən yazan və deyən görkəmli şəxsiyyətlər əvvəllər də çox olub, sonralar da. Burada onlardan A. Eynşteynlə əlaqəli yalnız birinin – 1 mart 2019-cu ildə vəfat etmiş məşhur fizik, Nobel mükafatı laureatı, akademik Jores Alfyorovun adını çəkmək istərdim. "Elm uğrunda" qəzetinin 27 may 2016-cı il tarixli sayında çıxan "Albert Eynşteyn, sosializm və müasir dünya" adlı məqaləsində, məsələn, o yazır: "Sovet İttifaqının dağılmasından sonra bizim ölkədə qurulmuş və alqışlanan "hüquqi dövlət" tamamilə qanuni əsaslarla başqalarının mülkiyyətini reydersayağı ələ keçirməklə məşğuldur" (**3**). J. Alfyorov öz məqaləsini belə fikirlə tamamlayır: "K. Marksın "elm – cəmiyyətin məhsuldar qüvvəsidir!" formulu bizi etik normalara görə ali olan cəmiyyətə - SOSİALİST cəmiyyətinə səsləyir" (**16**).

Rusiya telekanallarının birinə müsahibə verən görkəmli alim bu maraqlı fikirləri də söyləmişdir: "Böyük Vətən müharibəsindən cəmi bir il sonra - 1946-cı ildə institut dosentinin aldığı əməkhaqqı rayon partiya komitəsi katibinin maaşından iki dəfə çox idi, üstəlik də, alim-pedaqoqun müxtəlif güzəştləri, imtiyazları vardı. Dövlət alimin, müəllimin nüfuzunu yüksək tuturdu, ona hərtərəfli qayğı göstərilirdi. Elmdə, texnikada, cəmiyyətimizin inkişafında böyük uğurlar da bu hesaba idi! Bütün bunlar bir həqiqətdir! Belə quruluşu məhv edib, yerində yırtıcılara sərf edən nəsə yaratmaq düzgün iş deyil, cinayətdir!".

Belə deyim var: "Od axtaran onu tüstüsü ilə birgə tapır". Bu həqiqəti elə hər iki meqatrend tipinə - sosializmə də, kapitalizmə də şamil etmək olar: hər birinin öz tüstüsü var – acı və gözçıxardan. Və ictimai fikir tarixində, habelə siyasi idarəetmə praktikasında dəfələrlə belə cəhdlər olub: sosializmi kapitalizm hesabına, kapitalizmi isə sosializm hesabına yaxşılaşdırmaq, yəni, tüstüdən azad etmək. Elə sintezləşmə aparmaq ki, nəticədə hər iki meqatrend tipinin yalnız müsbət cəhətləri öz ifadəsini

tapsın, tüstüsü-çəni aradan götürülsün. Bu kontekstdə bir sıra görkəmli fikir və əməl sahiblərinin adlarını çəkə bilərik: məsələn, utilitar (individualist) və kollektivist (sosialist) düşüncə elementlərini sintezləşdirməyə cəhd etmiş E. Dürkheimi, M. Veberi, Z. Freydi, E. Frommu, T. Parsonsu, iqtisadi və siyasi konvergensiya mövqeyindən çıxış edən C. Helbreyti, P. Sorokini, Y. Tinbergeni, R. Aronu, C. Streyçi, A. Saxarovu, habelə dövlət xadimi Den Syaopin kimi böyük reformator-mütəfəkkirləri göstərə bilərik.

Sosializmin və kapitalizmin sintezləşməsindən və yaxud konvergensiyasından söhbət gedəndə sanki, bir dəb üzrə, əksəriyyət tamamilə səhv qənaət sərgiləyərək, belə fikir söyləyir: “Bu sintezləşmə, konvergensiya cəhdi boş şeydir, ictimai praktika və tarix göstərir ki, sosializmlə kapitalizmin tamamlanması və ya kapitalist elementlər hesabına sosializmin dolğunlaşdırılması, prinsipcə, mümkün deyil”. Və əqli ətalətə mübtəla olmuş insanlar, yumşaq desək, bu yalanı heç bir şübhə altına almadan qəbul edir və onu tirajlayırlar. Baxmayaraq ki, elə ictimai praktikanın və tarixin özü əks fikir söyləməyə əsas verir: yəni, sosialist elementlərlə kapitalist elementlərin ağıllı, ciddi ideya-nəzəri zəminlərə söykənən sintezləşməsi həmişə müsbət nəticə verib! Çin və indiki Vyetnam da daxil olmaqla, bəzi ölkələrdəki konfutsian sosializm, Tayvan, Honkonq, Sinqapur kimi dövlətlərdə isə qərarlaşmış konfutsian kapitalizm buna əyani sübutdur. Dərinə getsək, deyə bilərik ki, Yaponiya, Cənubi Koreya və Yeni Zelandiya, İsveç, İsveçrə, Danimarka, Avstriya və Hollandiya da, habelə, İngiltərə və Fransa kimi ölkələrin özü bu inteqrallaşmadan (kapitalizmin sosialist elementlərlə zənginləşməsindən!) az bəhrələnməyiblər. Bu həqiqətləri anlamaq üçün kifayət deyil ki, hansısa konyukturaya xidmət edən “mütəxəssisin” uydurmalarını kor-koranə mənimsəyəsən, vacibdir ki, hadisə və proseslərin, tarixi faktların mahiyyətini açmaq, onların dərin köklərini anlamaq üçün özün-özünə kömək edəsən. Bu da yoxdursa, yaxşı olar ki, konyukturadan, tərəfli mövqedən uzaq duran tədqiqatçıları oxuyasan!

Çoxlarına təəccüblü gəlsə də, demək istərdim ki, məsələn, konfutsian kapitalizm arealına daxil olan Yaponiyada kapitalizmlə sosialist elementlərinin milli ənənələr və dəyərlər əsasında üzvi sintezini ilk dəfə uğurla həyata keçirən (əvvəlcə nəzəri müstəvidə, sonra isə praktikada) böyük sənayeçi və mütəfəkkir Sibusava Eydzi (1840-1932) olmuşdur. İmperator Meydzinin (Mutsixito, 1852-1912) məşhur islahatları da xeyli dərəcədə Eydzinin nəzəri-praktiki təcrübəsinə, məfkurə və əməl sisteminə söykənmişdir. Bu barədə mən hələ 2005-ci ildə çap olunmuş “Demokratiya: reallıq və zərurət” (**15**) adlı kitabımda fikir söyləmişdim.

Ümumiyyətlə, düşünürəm ki, kapitalist və sosialist elementlərinin müxtəlif modifikasiyalarda çarpazlaşması — sintezləşməsi inkişaf etmiş ölkələr sırasına aid etdiyimiz bütün ölkələrə xasdır. Bu fikri söyləməyə onların yaşadıqları təkamül tarixinin, mövcud durumlarının dərin təhlili əsas verir. Həmin təhlil həm də onu göstərir ki, üzvi sintezləşmənin dərəcəsi və keyfiyyəti, hər şeydən əlavə, xalqların mentaliteti ilə, onların nizamsevərliyi, rasionallığa önəm vermələri və fədakarlıqları, ictimai borca həssaslıqları ilə sıx bağlıdır. Bu kontekstdə düşünərək, biz ingilisləri, almanları, hollandları, fransızları, amerikalıları, yaponları, koreyalıları, nəhayət, çinliləri, tayvanlıları və vyetnamlıları başqalarından müsbət mənada fərqləndirməli deyilikmi? Etiraf etməli deyilikmi ki, gözəl nəzəri konsepsiya və paradiqmaların, bu əsasda möhtəşəm idarəetmə sistemlərinin yaradılmasında, fərdlərin təşəbbüs və azadlıqlarına, onların rahat və firavan həyatına əlverişli şərait və imkanlar formalaşdıran başlıca amil, güc elə ilk növbədə xalqların özüdür, insanların inteqrativ keyfiyyətidir?! Necə qəbul edə bilərik ki, fərdi və kollektiv əməyin, ictimai həyatın özünün təşkilində konkret insan və xalq amili kənara qoyulsun, bir növ, məsuliyyət altından çıxarılsın?!

Yalnız ortodoksal marksist-leninçi mövqedən çıxış edərək “görünən dağı” kənara atmaq, hesaba almamaq, hər şeyin adını “üstqurum” qoyaraq iqtisadi bazisdən törədiyini şişirtmək olar. Söz yox, heç bir ağıllı və vicdanlı kəs iqtisadi bazisin, istehsal üsulunun rolunu və əhəmiyyətini təkzib etməyə girişməz. Müəyyən ictimai həyat intervallarında bu bazisin müəyyənediciliyini də qəbul edər. Lakin bazisin müəyyənediciliyini, dominantlığını mütləqləşdirmək, iqtisadi amillərin yerini və rolunu olduğundan çox şişirtmək obyektiv reallığı, bəşəri həyatın mahiyyətini təhrif etmək, təbii-tarixi qanunauyğunluqlara zor göstərmək deyilmi?! İqtisadi bazisin özünü, istehsal üsulunu, əmək alət və vasitələrini, görəsən, hansı fövqəlqüvvə ixtira edib yaradır ki, burada insana, xalqa və millətə ehtiyac qalmır? Qalmırsa, marksistlər-leninistlər xeyr ola, birağızdan, belə şuar səsləndirirlər: “Xalq – tarixin

yaradıcısıdır!”. Əcəba, bu, necə məntiqdir: xalq tarixin yaradıcısı olur, ancaq onun hansı keyfiyyət daşıması qətiyyən bir əhəmiyyət kəsb etmir; yaxud tarixin yaradıcısı olan xalqı təmsil edən insan yalnız ictimai münasibətlərin məcmusu sayılır, onun bir “MƏN”, bir suveren “nüvə” kimi dəyəri bir qara qəpiklə də ölçülmür? Burada istər-istəməz ABŞ prezidenti Ronald Reyqanın vaxtilə söylədiklərini xatırlayıram. O, “Kommunist kimdir?” sualına – “Marksı və Lenini oxuyan!”, “Bəs, antikommunist kimdir?” sualına isə – “Marksı və Lenini oxuyub, başa düşən!” cavabını vermişdir. İngiltərənin Baş naziri Marqaret Tetçerin də bir düşündürüçü fikrini xatırlatmaq istərdim: “Sosializmin problemi ondadır ki, əzəl-axır başqalarında da pul qurtarır”.

Bir çoxları, xüsusən keçmiş SSRİ məkanında və sosialist düşərgəsində yaşamış insanlar, indiki narahat, sıxıntılı vəziyyətdən narazı olaraq, adətən, belə fikirlər söyləyirlər: “Mən repressiyaların tərəfdarı deyiləm, ancaq elə ideya var ki, mənim üçün əzizdir. Bu, sosializm ideyasıdır ki, insanları daha yaxşı birləşdirir, onlarda bir-birinə qayğıkeşlik, mərhəmət aşılayır. 10% vətəndaşın milli sərvətin 90%-nə sahib olduğu indiki vaxtda belə şeylər mümkün deyil”. Analoji olaraq, bu cür də deyənlər var: “Siyasətdə solçu baxışları rəhbər tut, çünki yalnız sosializm tərəfdarları, bütün səhvlərinə baxmayaraq, sözün həqiqi mənasında insanlara biganə deyillər. Onların təəssübünü çəkirlər, dünyanı yaxşı istiqamətdə dəyişmək istəyirlər”.

Son illərdə oxşar fikirlər Rusiya mətbuatında, internet saytlarında, teleradio verilişlərində daha çox səslənir. Özü də yalnız sadə adamlar yox, həm də hakimiyyətə yaxın şəxslər tərəfindən. Görünür, rəsmi Rusiya hakimiyyəti, ilk növbədə, prezident Putin, müəyyən məqsəd güdərək, belə ovqatın formalaşmasında maraqlıdır.

Bu dalğada Stalinin pərəstişkarlarının sayı və reytinqi də durmadan artmaqdadır. Qeyri-hökumət təşkilatı kimi özünü təqdim edən “Levada-Sentr”in 2017-ci ilin iyun ayında nəticələrini açıqladığı sosioloji sorğuya əsasən, İosif Stalin bəşər tarixinin ən görkəmli dövlət başçısı kimi, birinci yer tutub (**19**). V. Lenin isə üçüncü yerdə gəlir. Sosioloji sorğu 2017-ci ilin 7-10 aprelində Rusiyanın 48 regionunda, 137 yaşayış məntəqəsində 18 yaşdan yuxarı 1,6 min şəxs içərisində aparılıb. O da maraqlıdır ki, Kreml sorğunun nəticələrinə dair hansısa konkret fikir söyləməkdən çəkinmişdir, baxmayaraq ki, həmin sorğunun nəticələrinə görə “bütün zamanələrin və xalqların ən görkəmli şəxsiyyətləri” sırasında, Stalindən sonra V. Putinin adı gedir (**22**).

Düşünürəm ki, Rusiyanın hal-hazırki durumunda Stalinə münasibət heç də təsadüfi və keçici məsələ deyil. Müvafiq meqatrend axtarışlarının intensivləşdiyi və konseptual müxtəlifliyin durmadan artdığı bir vaxtda bu məsələ, bəlkə də, müstəsna əhəmiyyət kəsb edir. Həm də təkcə Rusiya üçün yox! Bu məsələdə müəyyənləşmə istər-istəməz qonşu postsovet ölkələrinin, o cümlədən Azərbaycanın da bugününə və gələcəyinə təsir edəcək. Bu mənada bizim də yaranmış multiparadiqmal fəzaya qoşulmağımız, öz təhlillərimizi apararaq qənaətlərimizi ortaya qoymağımız vacibdir. Stalin fenomeni və onunla bağlı bir çox problemlər yalnız Rusiya məsələsi deyil, indiki meqatrend axtarışları prosesində bizim üçün də aktual və aydınlaşmasını tələb edən məsələdir. Nəzərdən qaçırmamalıyıq ki, inkişaf etmiş sivil ölkələrin varlığını şərtləndirən dəyərlər və nailiyyətlər kompleksinə biz daxilən istəkli olsaq da, tarixi yaşayış məkanımız Avrasiya olub və belə də davam edəcək. Bu məkanda yaşayaraq da biz Rusiya və başqa qonşu ölkələrlə vahid tarixin iştirakçıları olmuşuq, ən azı ümumi həyat elementləri ilə, çarpazlaşan, bəzən də üst-üstə düşən ənənə, düşüncə və əməl parametrlərinə sahiblənmişik, idarəetmə və inzibatçılıq yolu keçmişik. Ona görə də xoşbəxt gələcəyimizi qurmaq istəyində bulunaraq, bu tarixən obyektivləşmiş həqiqətlərə göz yummamalı, təkamül dialektikasını zorlamamalı, universal olanı təpikləməklə xüsusini və təkcəni qandan-qidadan məhrum etməməliyik.

Bir təkcə Stalin məsələsində deyil, bütün taleyüklü problemlərin araşdırılıb həll olunmasında ən düzgün yanaşma ondan ibarətdir ki, ümumini görək, duyaq və təhlildən kənarda qoymayaq. Ümuminin (“Tam”ın) statusu, mahiyyəti, tələbləri qeyri-təbii və qeyri-məntiqi surətdə təkzib edilərsə, təkcə və xüsusi olanların taleyinə də sağalmaz yaralar yetirilər, onların bugünü və perspektivləri əllərindən alınar. Çəkinmədən deyə bilərəm: ümumi-xüsusi-təkcə əlaqə və nisbətlərində DİALEKTİKAnı dərindən anlaya bilməyənlər, yəni, düşüncə və dünyagörüş cəhətdən qəbahətlər daşıyıcısı olanlar dövlət, millət, xalq, cəmiyyət, azadlıq və suverenlik, iqtisadiyyat və idarəetmə, sosial həyat və mənəviyyat, ictimai rekonstruksiya və geosiyasət kimi məfhumlarla bağlı

problemlərə girişib, insanlara yol göstərməsələr, daha yaxşıdır! Hər halda, belə hərəkət etsələr, az ziyan verərlər.

Hansısa emosional ovqatdan, yaxud da sadəcə, eqoistik-konyuktur motivlərdən çıxış edərək və “mən də varam!” deyərək insanları çaşdırmaq, xalqın taleyini alt-üst etmək – vicdansız, məsuliyyətsiz, yəni intellektuallıqdan məhrum adamların peşəsidir. Bu tip şəxslər (özlərini “politoloq”, “siyasətçi”, “sosioloq”, “ekspert” adlandırsalar da!), bir qayda olaraq, hamıdan çox vətənpərvər, millət və din təəssübünü çəkən kəslər kimi görünməyə çalışır, hər vəchlə ictimaiyyəti ovsunlamağa girişirlər. Əfsuslar ki, onların təmtəraqlı sözlərinə uyan və inananlar az deyil. Onlar sadəlövhcəsinə belə vicdansızların şüarlarına aludə olaraq, son tənqidi düşüncə elementlərini, sinergetik birgəyaşayış mədəniyyətlərini də itirir, səadət və xoşbəxtlikdən daha da uzaqlaşırlar. Bu acı təcrübə dünən də olub, indi də var, sabah da özünü göstərəcək. Göstərməməsi üçünsə, heç olmasa, bir yoluxucu xəstəlik kimi tənqidi mövqedən qeyd edilməli və məqsədli maariflənmə işi aparılmalıdır.

Söz yox, fikir müxtəlifliyi yaxşı və lazımlı şeydir. Ancaq bu yaxşılıq o vaxt hasil olur ki, fikir müxtəlifliyi sərsəm şüarların səsləndirilməsinə, kin-küdurətin püskürməsinə, dəyərli tarixi şəxsiyyətlərin adından sui-istifadələrə yox, vahidliyə, rasional fəaliyyətə və pozitiv nəticələrə xidmət edir. Bu, həqiqi plüralizmə, fikir azadlığına və demokratiyaya təminat verən tələbdir. Bu, eynilə dialoji təfəkkürün atributu, tələbidir. Ümumi götürdükdə isə, dialoji təfəkkür tənqidi-sinergetik təfəkkür tipinin mühüm əlaməti, ayrılmaz xassəsidir. Belə demək olar: dialoji təfəkkür – tənqidi-sinergetik təfəkkürün mövcudluq üsulu və vasitəsidir. Fikir cərəyanında, onun hər bir mərhələsində və səviyyəsində daxili dialoq, yəni, qarşılıqlı fayda verən mübadilə və özünükorreksiya yoxdursa, tənqidi-sinergetik təfəkkürdən danışmaq əbəsdir.

Tənqidi-sinergetik təfəkkür və onun ayrılmaz atributu olan dialoji təfəkkür barədə vaxtilə kifayət qədər yazmışam. Burada, qısaca, bəzi məqamlara bir daha toxunmaq istəyirəm.

**Birincisi**, dialoji təfəkkür və bütövlükdə tənqidi-sinergetik təfəkkür, bəzi şəxslərin anladığı kimi, yalnız iki, üç və daha çox subyekt arasındakı diskussiyaya, fikir üzləşməsinə və mübadiləsinə şamil olunmur. Onun əhəmiyyətli cəhəti ondadır ki, düşüncə sahibi olan konkret fərdə, ayrıca götürülmüş subyektə də şamil edilir. Dialoji təfəkkür ilk növbədə fərdin öz təfəkkür tərzini, onun fikir refleksiyasını, düşüncə cərəyanını xarakterizə edir. O, ehkamlar, şüar və postulatlar, qəlibləşmiş aksiomalar vasitəsilə yox, inkişafda olan fikir elementlərinin, alternativlərin müqayisəsi və konvergensiyası vasitəsilə məntiqəuyğun düşünməyi, əqli nəticələr irəli sürməyi tələb edir. Yalnız bu halda konkret insan fərdlərarası disskussiyada dialoji mühitə, fikir məhsuldarlığına, əqli xəzinəyə fayda verə bilər. Dialoji təfəkkürə əməli konstruktivlik, fikir cərəyanının sistemliliyi və ardıcıllığı, düşüncə məsuliyyəti və nizamı xasdır.

**İkincisi**, öz tarixi kökləri, intişar mənbələri baxımından dialoji təfəkkür müasirliyi qədər də ənənəvi hadisə, fenomendir. Onun parlaq nümunələrinə misal olaraq, biz qədim filosofların, görkəmli mütəfəkkirlərin söhbətlərini, əsərlərini göstərə bilərik. Bu gün də həmin qaynaqlar qida mənbəyidir. Eynilə, dialoji təfəkkür milliliklə bəşəriliyin üzvi vəhdətinə, harmoniyasına motivasiyalı və sevgili təfəkkürdir.

**Üçüncüsü**, dialoji təfəkkürün əhəmiyyəti yalnız idraki-koqnitiv sahə ilə məhdudlaşmır. O, fəaliyyət fəlsəfəsini (prakseologiyanı) müəyyənləşdirmədə daha dürüst və qabiliyyətli olduğundan, ictimai praktikanın məzmun və mahiyyətinə bilavasitə pozitiv təsir göstərir. Bu mənada dialoji təfəkkürün siyasi islahatların təşkili və aparılmasında, geosiyasi mühitin, beynəlxalq münasibətlərin formalaşmasında artan aktuallığı, yeri və rolu danılmazdır. Fikrimcə, dialoji təfəkkür dünyanın yenidən formatlaşmasında və ictimai meqatrendin müəyyənləşib qərarlaşmasında ən mühüm amillərdən, vasitələrdən biridir. Bu təfəkkür dini, etnik, mədəni, siyasi və iqtisadi müxtəlifliklərin ortaya çıxardığı məhdudiyyətləri dəf etməyə, tolerantlığa və harmoniyaya, birgəyaşayış mədəniyyətinin pozitiv məqamlarına, rəngarəngliyin ümumi potensial gücünə vüsət verməyə qadirdir.

Azərbaycan reallıqlarını nəzərə alsaq, dialoji təfəkkürün önəmliliyini vurğulamaq, düşünürəm ki, olduqca əhəmiyyətlidir. Mətbuatda, internet saytlarında, məqalə və kitablarda (xüsusən də siyasi, geosiyasi və geostrateji məsələlərə dair) tez-tez elə mülahizələrə, imperativ-diktə xarakterli fikirlərə rast gəlirsən ki, təəccüblənməmək olmur. Məsələn: “Biz Rusiya, İran və Çinin müttəfiqi ola bilmərik”, “Rusiya bizim böyük düşmənimizdir”, “İranla, Rusiya ilə bizim birgə gələcəyimiz ola

bilməz”, “Çin də, SSRİ kimi, dağılacaq”, “Bütün xristian dünyası müsəlmanlara qarşıdır”, “İslam – gələcəyə aparan yeganə yoldur!” və s. Ziyan yetirməkdən başqa, heç bir pozitiv yük daşımayan, hansısa ciddi araşdırmalara söykənməyən, milli maraqlara və ümumən sağlam məntiqə zidd olan bu cür hökmedici, qəti ifadələr, şüarlar, görəsən, nəyə hesablanıb? Onları səsləndirən partiya sədrləri, politoloqlar, ekspertlər nə vaxta qədər milli-mədəni və dini dəyərləri, görkəmli şəxsiyyətlərin adını istismar edərək, siyasi reytinq və maddi dividendlər qazanacaqlar? Axı yerli-yersiz bəyanatlarla, məntiqi və faktoloji kökləri olmayan mülahizələrlə, əsassız çağırış və vədlərlə məqbul siyasət mümkün deyil!

Gəldiyim qənaət budur: ifrat millətçiliyə və mövhumatçılığa əl atanlar, etno-milli və dini amillərdən, tarixi şəxsiyyətlərin adından sui-istifadə edənlər, adətən, kamil peşəkarlığı, savadı, istedadı, sərrast icraçılıq qabiliyyəti olmayan insanlar arasından çıxır. Onların ambisiyaları həmişə bilik və bacarıqlarını üstələyir. Elə bu daxili təzadlar komleksi də hansısa peşə, sənət istiqamətində onların püxtələşməsinin, kamilləşməsinin qarşısını alır. Zaman axarında isə həmin təzadlar kompleksi zəruri çərçivə və ölçü bilməyən bu adamları rəzil günə qoyur. Bununla yanaşı, onlar az-çox təmsil etdikləri fəaliyyət sahələrinə də xeyli ziyan yetirirlər. Bu tip adamlara bəzən “psixopat” da deyirlər. Lovğalıq, eqoizm, kin və aqressiya, parçalama və ayırma, uydurma və bö htan, necə deyərlər, əllərindən gələn işdir, dəqiq desək, qüsurlu təbiətlərinin xarakterik elementləridir. Bacarmadıqları isə mərhəmətli, məsuliyyətli və vicdanlı, yəni, alicənab olmaqdır, nizama, qayda-qanuna və ədalətə daxili vurğunluq göstərməkdir, insanları mütərəqqi ideya və ideallara doğru hərəkət istiqamətində birləşdirməkdir. Onlar, ümumiyyətlə, insanlarda, cəmiyyətdə nəsə fəzilətli bir şey, birləşdirici tellər axtarıb görməyə, yaratmağa qadir olmurlar. Ambisiyaları ağıl və bacarıqlarını hədsiz dərəcədə üstələyən bu adamlar özlərini millətin vicdanı, haqq və ədalət carçıları qismində təsəvvür edir və bunu ictimailəşdirməkdən çəkinmirlər. Ümumən, onların ictimai fikrə, siyasi-mənəvi mühitə, dialoq mədəniyyətinə, konstruktiv islahatlar prosesinə vurduqları ziyan danılmazdır.

Üzdə özlərini idealist kimi göstərən, daxilən isə qatı maddiyyatçı, super-materialist olan bu şəxslər hər bir ölkə, o cümlədən Azərbaycan üçün ən böyük təhlükə mənbələrindən biridir. Belə ki, daxili və xarici düşmən qüvvələrin müxtəlif mənfur həmlə və layihələrində (müəyyən maddi dividendlər, maliyyə ödənişləri, qrantlar müqabilində) yer alaraq çirkin öhdəlikləri icra etmək onların, sanki həyat düsturuna çevrilir. Konkret hadisə və faktların təhlilindən çıxış edərək açıq demək istəyirəm: son onilliklərdə Azərbaycanın siyasi və mədəni mühitinin çirklənməsində, ailə də daxil olmaqla, müxtəlif sosial institutlarının “korroziyaya” uğramasında məhz bu şəxslər xüsusi canfəşanlıq göstəriblər və hazırda da onlar destruktiv fəaliyyətlərini davam etdirməkdədirlər. Əfsuslar olsun ki, bu məşum fəaliyyətin qarşısını almaqda müvafiq dövlət qurumları, elə ictimaiyyətin özü də anlaşılmayan acizlik göstərir.

Şübhəsiz, yetirilən bütün bu ziyanlar Azərbaycan meqatrendinin formalaşıb sabitləşməsində, ölkənin geosiyasi, siyasi və iqtisadi, sosial-mədəni mövqelər üzrə qərarlaşmasında da özünü göstərir. İstər-istəməz, ideoloji-psixoloji böhrana, məfkurə çaşbaşlığına, şüur sarsıntılarına səbəb olur. Beləliklə də, “Biz hansı yolun yolçusuyuq? Nəyi və necə etməliyik? Hansı üsul və vasitələrdən istifadə olunmalıdır?” kimi suallar birmənalı cavabını tapa bilmir və açıq qalır. Əlbəttə ki, bütün günahlar yalnız yuxarıda qeyd etdiyim bədbəxt bəndələrdə deyil, səbəblər çoxdur. Burada, hər şeydən əlavə, ictimai və humanitar elmlərin müasir tələblərə müvafiq qaydada cavab verə bilməməsi də xüsusi rol oynayır. Tək-tək alimlərin təşəbbüsləri, gördükləri işlər, əldə etdikləri elmi nəticələr isə müxtəlif obyektiv və subyektiv səbəblər üzündən məqsədyönlü surətdə və yaxud da, sadəcə, laqeydlikdən ictimailəşdirilmir, elə fərdi fədakarlıq nümunəsi olaraq kölgədə qalır. Düşünürəm ki, bu təşəbbüs və fədakarlıqlar vaxtında diqqətə alınmalı və dəyərləndirilməli, onların müəlliflərinə isə daha geniş imkan və səlahiyyətlər, maddi-mənəvi dəstək verilməlidir. Kadrların yeniləşməsində bu “qızıl fond”dan istifadə olduqca vacib və zəruridir. Əhəmiyyət kəsb edən ciddi elmi nəticələrdən, dəyərli nəzəriyyə və konsepsiyalardan istifadə olunmalıdır.

Qüsurlu təfəkkür tipinin dominantlığı şəraitində optimal meqatrendin formalaşması ya xeyli dərəcədə ləngiyir, ya da ümumən, mümkün olmur. Bəşəri təcrübə də əyani surətdə göstərir ki, cəmiyyətin simasını, onun təkamül dinamikasını xarakterizə edən meqatrend özlüyündə etibarlı, elm-nəzəri cəhətdən kamil və təminatlı deyilsə, cəmiyyətin perspektivliyi, onun mövcudluğu ciddi

təhlükə altına düşür. Son onilliklərin acı nümunəsi kimi, SSRİ-nin, Əfqanıstanın, İraq və Liviyanın, Misir və Suriyanın başına gələnləri göstərə bilərik. Məsələn, Misir, Liviya və Suriyada hələ 60-cı illərdən başlayaraq (SSRİ-nin təsiri və köməyi ilə) “ərəb sosializmi” adlanan ictimai inkişaf trendi formalaşmışdı. Bu inkişaf trendinin hər bir ölkə üçün özünəməxsus forması, məzmun-mahiyyəti vardı. Bununla belə, onları ümumi bir təzad birləşdirirdi: sosialist fikrə xas olan atributiv elementlərin inkişafdan qalması, durğunluğu və nəticə olaraq, həmin cəmiyyətlərin get-gedə daha çox avtoritar-totalitar üsul-idarəçiliyə yuvarlanması, çoxluq üzərində imtiyazlı azlığın diktəsi və hökmranlığı, sərtləşdirilən idarəçiliyin şəxsin və xalqın suverenliyinə yox, hakim elitanın məhdudlaşmayan maraqlarına xidmət etməsi. Bu dalğada cəmiyyətdaxili mühitdə xalq-hakimiyyət münasibətlərində qarşılıqlı uzaqlaşmanın, yadlaşmanın, potensial nifrət və inamsızlığın artması, ictimai-publik müstəvidə riyakarlıq və yaltaqlığın, hiylə və qəddarlığın yayılması, insani tellər üzrə ünsiyyət və davranış formalarının zəifləməsi baş verirdi. Belə durumda “ağıllı olub, başı salamat saxlamaq” düsturu bir inperativə, koda çevrilirdi ki, bundan da, son nəticədə, böyüməkdə olan nəsil – körpələr, uşaqlar, gənclər daha çox əziyyət çəkirdi. Onlar “ağıllı”, hiylə-fənd işlətməkdə ustalaşmış ataların qurbanına çevrilirdilər. Bəzən də bu qəddar, pozğun, arsız-abırsız duruma dözməyərək intihara əl atırdılar, çünki əllərindən alınmış perspektivlərinə artıq heç bir ümidləri qalmırdı. Salamat qalan gənclik isə get-gedə daha çox qəzəb-nifrət alovuna tutulurdu.

Üstəlik də ideoloji, ideya-siyasi potensialın tükənməsi, yaradıcı axında fəaliyyət göstərməməsi, öz növbəsində, nəzəri fikir durğunluğunu daha da dərinləşdirir, ehkamçılığa və əsatirliyə, əfsanə və tarixi uydurmalara geniş meydan açırdı. Müasirləşmiş ideya-siyasi təsəvvürlər sistemi, güclü elmi-nəzəri fikrə söykənən ideoloji baza olmadan isə hansısa müsbət nəticələr verə biləcək ictimai rekonstruksiya, islahatlar həyata keçirmək, prinsipcə, mümkün deyildi. Mümkün olan isə müstəbidliyi artırmaq, dövlətin və cəmiyyətin idarəçiliyində ailə-klan hökmranlığını qərarlaşdırmaq və möhkəmləndirmək, dövlət başçılığı institutunu tamamilə xalqın seçim hüququndan azad etmək və ifrat şəxsi ailə motivləri əsasında formalaşdırmaq idi. Belə bir ictimai trendin gələcəyi ola bilməzdi və ... olmadı da! M. Qəddafinin vaxtilə yazdığı “Yaşıl kitab” da bu məşum gedişin qarşısını ala bilməzdi, çünki zahirən müəyyən cəlbediciliyə malik olsa da, onun ideoloji baxışlar toplusu zəruri elmi-tarixi qaynaqlardan, bəşəri təcrübənin yaradıcı təhlili və ümumiləşdirmələrindən, müasirlik tələblərinə cavab verən parametrlərdən məhrum idi. Belə əsərlər, yeni ideya-nəzəri fikirlərin təqdimatına iddialı olsalar da, adətən, təfəkkür çevikliyinə və dinamikliyinə xidmət etmir, əksinə, əqli refleksiyanı buxovlayır, hədsiz dərəcədə qəlibə salır, köhnə ehkamları təzələri ilə çulğalaşdıraraq əcaib düşüncə tərzi formalaşdırır.

Ümumiyyətlə, müsəlman dünyasının hökmdarları “yeni baxış”, “yeni yol” deyərək nəsə təqdim etmək istəyinə düşdükdə, bir qayda olaraq, öz fikir və qənaətlərini hər şeydən üstün tutur, nə keçmişin, nə də indinin möhtəşəm fikir sahiblərinə müraciət etməyi özlərinə borc bilmirlər. M. Qəddafi də, Türkmənbaşı Niyazov da, İslam Kərimov da elə bu tip dövlət başçılarından idilər. Onlar üçün, öz qəti qənaətlərinə görə, yalnız ölkəyə başçılıq etmək kifayət etmir, vacibdir ki, zamanələrinin baş nəzəriyyəçisi qismində də çıxış etsinlər, böyük mütəfəkkirlərin missiyasını mənimsəsinlər. Təsadüfi deyil ki, ruha divan tutan, ruhu söndürən Türkmənbaşı vaxtilə “Ruhnamə” adlı əsərlə dövrünün misilsiz mütəfəkkiri roluna iddia etmişdir. Məmləkətdə özündən başqa heç kimi qüdrətli zəka sahibi saymayan başçı üçün digərləri yalnız onun şəninə şeirlər, poema və traktatlar yazmalı, təriflər yağdırmalı, bir sözlə, yalnız ifrata varmış saray adamları kimi fəaliyyət göstərməli idilər.

Bəli, müsəlman dünyasının indiki aciz, zəif vəziyyətə gəlib çıxmasında məhz bu qeyd etdiyim amilin rolu böyük olmuşdur. Yaltaqlığı, ləbbehliyi özlərinə rəva bilməyən nadir düşüncə sahibləri, təfəkkür generatorları tarix boyu hədəfə alınmış, təqib və basqılara məruz qalmış, hətta fiziki olaraq məhv edilmişlər — biri çarmıxa çəkilmiş, digərinin dili kəsilmiş, hansınınsa da dərisi soyulmuşdur. Zəka qüdrətinə görə başqalarından ciddi surətdə fərqlənənlər, dəyərli fikir istehsal etməyə qadir mütəfəkkirlər ən yaxşı halda yurd-yuvalarından didərgin salınmış, qovulmuş, sürgünlərdə çürümüşlər. Müsəlman idarəçiliyinin başlıca qanunu idarəçiliyi bundan ibarət olmuşdur – başqalarından çox boy verən sünbülün başını vaxtında üzmək! Bu bədnam prinsip indiyə kimi gəzib-dolaşan rəvayətlərdə hətta müdriklik nümunəsi, şahlıq-prezidentlik institutunun möhtəşəmlik əlaməti sayılır.

Müsəlman məmləkətlərinə başçılıq edənlər, heç olmasa, indi düşünsünlər, ənənəviləşmiş bədnam üsul-idarədən əl çəkməyin vacibliyini anlasınlar. Yəqin etsinlər ki, ölkəyə və xalqa xoşbəxtlik yalnız qüdrətli zəka, orijinal fikir, ideya və nəzəriyyələr vasitəsilə gəlir; mütəfəkkirlər milli səadətə aparan yolun bələdçiləridir. Unutmasınlar ki, Makedoniyalı İskəndər misilsiz qələbələrinə görə Aristotel kimi filosoflara minnətdar olub, I Pyotr dəfələrlə Spinoza ilə görüşüb məsləhətləşməkdən çəkinməyib, Napoleon isə uğur qazanmaq üçün görkəmli riyaziyyatçılar Lejandr və Laqranjdan dərs alıb, feodal Yaponiyasını yeniləşdirmək istəyən cavan imperator Meydzi istedadlı sənayeçi-mütəfəkkir S. Eydzinin nəzəri-praktiki xəzinəsindən bəhrələnməyi vacib sayıb, böyük dövlət xadimi Den Syaopin Çində genişmiqyaslı, sistemli islahat keçirərkən ilk növbədə dahi Konfutsiyə müraciət edib. Düşünsünlər ki, nə üçün elə son vaxtlara kimi İngiltərənin kraliçası II Yelizavetanın baş məsləhətçisi Nobel mükafatçısı, fizik-nəzəriyyəçi, kvarklar nəzəriyyəsinin banisi Mürrey Gell-Mann olmuşdur? Yəqin ki, böyük alimi kral sarayının nüfuzlu üzvü etməkdə kraliçanın məqsədi heç də alim tərəfindən mədhlər-təriflər eşitməkdən ibarət olmayıb!

Pozitiv məqsədlərə xidmət edən ictimai rekonstruksiyalar, möhtəşəmliyə qadir islahatlar yalnız fundamental elmi biliklər, ciddi nəzəriyyələr, sistemli ideoloji təminatlar hesabına mümkün ola bilər. Bu, o deməkdir ki, alim və onun fikri ön planda olmalı, nadir şəxsiyyətlərə, orijinal zəka sahiblərinə missiyalarını həyata keçirmək üçün hər cür dəstək verilməlidir. Alimi arxa sırada duran cəmiyyət intellektual potensialını, insan kapitalını artıra, tərəqqi əldə edə bilməz! “Təfəkkür iqtisadiyyatı” onun üçün həmişə bir xəyal olaraq qalar – o da sönük-salxaq mövcudluğunu saxlayarsa! Məhz intellektual sərvət, onun səviyyəsi və keyfiyyəti hər bir islahatın müqəddəratını həll edir.

### İstifadə olunmuş ədəbiyyat


1. Клаус Шваб. Четвёртая промышленная революция /Пер. с англ. – М.: «Эксмо». 2016.
2. Джордж Фридман. Следующие 100 лет: Прогноз событий XXI века— М.: Эксмо, 2010— 336 с.
3. Məsələn: Abbasov Ə.F. Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə. Bakı: “Zərdabi LTD” MMC. 2017, s. 186-193; Abbasov Ə. F. Yeni dünya nizamı: siyasət və idarəetmə. Bakı: “Zərdabi Nəşr”. 2019, s. 324- 355.
4. Джордж Фридман: после 2020 года Россия распадется (интервью «Polska Times», 2018) // https://inosmi.ru/20180615/242493738.html
5. Yenə orada.
6. Постнеоклассическая эпистемология осмысления поликультурной сложности и развития культуры мира // «Бильгамеш» (Международный альманах культурологических и социальных исследований). №10. Вызовы планетарного сознания: культура и осознанная взаимозависимость. – Алматы, 2022, с. 73-90.
7. Нейсбит Д. Мегатренды / Пер. с англ. М.Б. Левина. – М.: ООО «Издательство АСТ»: ЗАО НПП «Ермак». 2003.
8. Yenə orada, s. 29.
9. Yenə orada, s.32.
10. Тоффлер Э. Метаморфозы власти / - Пер. с англ./ М.: ООО «Издательство АСТ». 2004.
11. Фридман Т. Плоский мир: Краткая история XXI века /Пер. с англ./ - М.: ООО «Издательство АСТ». 2004.
12. Беккер Гери С. Человеческое поведение: Экономический подход / Пер. с англ./ - М.: ГУ ВШЭ. 2003.
13. Аббасов А.Ф. Соотношение категорий и принципов системно-целостной проблематики. Баку: «Элм». 1984.
14. Аббасов А.Ф. Демократия: наличная и должная. Баку: «Адилоглы». 2005.
15. Алфёров Ж. Эйнштейн, социализм и современный мир // Газета «За науку». 27. 05.2016.
16. Богданов А.А. Вопросы социализма (Сборник). Москва: Политиздат. 1990.
17. Гегель. Философия истории. Москва-Ленинград: Изд-во ПЭЛ, 1935, с. 94.

18. Левада-Центр: Сталин самая выдающаяся личность в истории. 28.06.2017 // https://www.youtube.com/watch?v=hJwS6aNgjsQ
19. Маркс К. и Энгельс Ф. Соч., т. II.
20. Маркс К. и Энгельс Ф. Соч., т.III.
21. Песков прокомментировал опрос "Левада-Центра" про выдающихся людей // РИА Новости https://ria.ru/society/20170628/1497448061.html
22. Эйнштейн А. Почему социализм? // «ЗА НАУКУ». Газета МФТИ. Выпуск № 33 (1656) – 06.11.2003.
23. Эйнштейн А. Почему социализм? // http://razumru.ru/science/authority/einstein.htm

# ОБЩЕСТВЕННЫЙ МЕГАТРЕНД И РЕФОРМА: ПОСТНЕОКЛАССИЧЕСКИЙ АНАЛИЗ

**Абульгасан Аббасов**

**Резюме**. В данной статье в контексте формирования нового мирового порядка, исследуются актульные вопросы общественного и глобального мегатрендов, выдвигаются соответствующие предложения и рекомендации. Говоря о мегатренде, подразумевается парадигма деятельности, которая определяет облик, сущность, динамику и устойчивость жизнедеятельности и развития общества. Общество без достаточной определенности мегатренда – это общество без научно-теоретической и идеологической обеспеченности, которому достичь успехов в проведении реформ и модернизации невозможно. Освещается роль теории сложных систем, нечёткой логики и математики, теории мягких вычислений, критическо-синергетического мышления в формировании философского и научно-теоретического мегазнания. Изучаются мировоззренческие, аксиологические, фактологические проблемы созидания и становления новой цивилизации. Обосновывается необходимость освоения философии синергетического функционирования общества и его управления.

**Цель исследования:** определение общественного мегатренда, разработка правил, принципов и средств поведения общества (формулы жизнедеятельности в конкретных рамках времени-пространства) для каждой страны.

**Методология:** наибольший приоритет был дан принципам системности и целостности, синергизма, сравнительного анализа, мягких вычислений, вероятности и эмерджентности. Систему аксиологических ценностей исследования составляют: познавательный арсенал, принципы анализа и обобщения (занимающие ведущие места в сущности-содержании постнеоклассической эпистемологии, разработанные автором в последние десятилетия).

**Научная новизна:** впервые с позиций постнеоклассики освещаются проблемы определенности, полноты и оптимальности общественного и глобального мегатрендов, вопросы на этапе реформирования азербайджанского общества и развития государственности. Затрагиваются задачи совершенствования управления, подбора и подготовки кадров.

**Заключение и предложения:** успешность реформ во многом зависит от уровня качественной определенности, полноты и оптимальности общественного мегатренда, от совершенства эпистемологической системы, которой руководствуются реформаторы, управленческие кадры, организаторы и исполнители преобразований (без наличия эмерджентного научно-теоретического и общефилософского обеспечения, любая реформа обречена на провал).

**Ключевые слова:** общественный и глобальный мегатренд, реформа и модернизация, концепции будущего, общественная реконструкция, философия и идеология реформ, теория сложных систем, постнеоклассическая эпистемология, философское мегазнание

# PUBLIC MEGATREND AND REFORM: POST-NEOCLASSICAL ANALYSIS

**Abulhasan Abbasov**

**Abstract**. The definition of a public megatrend, the development of rules, principles and means of society's behavior, its formulas of vital activity within a specific time-space framework for each country is the most important task. This task is particularly relevant and important at the stage of fundamental and large-scale reforms. Speaking about the megatrend, we mean the paradigm of activity, which determines the appearance and essence, dynamics and stability of life, bearing vectors and goals of society's development, the quality and nature of its turning to the future. It carries an organic synthesis of ideological, political, socio-economic, legal, spiritual, moral, psychological elements and parameters. A society without sufficient certainty of a mega trend is a society without initial theoretical and ideological security. It is simply not possible for it to achieve any success in carrying out reforms and in its modernization. In this article, in the context of the formation of a new world order, the development of statehood and the implementation of fundamental reforms, topical issues of social and global mega trends have been explored. Relevant proposals and recommendations have been put forward.

**Methodology:** The categorical apparatus, epistemological foundations, methodological approaches and techniques, the system of axiological values of research constitute the cognitive arsenal, principles of analysis and generalization, which occupy a leading place in the essence-content of post-neoclassical epistemology developed by the author in recent decades. The highest priority has been given to the principles of consistency and integrity, synergy, comparative analysis, concrete historical, causality, soft computing, probability and emergence.

**Scientific novelty:** For the first time, from the standpoint of post-neoclassicism, the problems of certainty, completeness and optimality of social and global mega trends, essential issues of their scientific, theoretical and philosophical support at the stage of reforming Azerbaijani society and the development of statehood have been highlighted. The tasks of improving management, recruitment and training have been touched upon. The importance of modern philosophical megascience and post-neoclassical epistemology for the practice of reforms has been revealed. In this context, the role of the theory of complex systems, fuzzy logic and mathematics, the theory of soft computing, critical synergetic thinking in the formation of philosophical and scientific-theoretical megascience has been highlighted.

**Conclusion and suggestions:** The success of reforms largely depends on the level of qualitative certainty, completeness and optimality of the public mega trend, on the perfection of the epistemological system, which is guided by reformers, management personnel, organizers and performers of transformations. Without the availability of emergent scientific, theoretical and general philosophical support, appropriate systemic praxology and epistemology that meet the requirements of historical time, any reform is doomed to failure. The quality of the system of general philosophical ideas, scientific, theoretical and practical training of personnel, primarily managers, determines the face, power and productivity of reforms.

It is important that the reform of society be based on the unity of continuity and innovation, on an organic combination of national-historical and universal, spiritual traditions and undoubted positives of modernity. And here, I believe, philosophical mega science plays an essential role, because with its adequate completeness, the very ideological integrity of the ongoing reforms is ensured.

**Keywords:** social and global megatrend, reform and modernization, concepts of the future, social reconstruction, philosophy and ideology of reforms, theory of complex systems, post-neoclassical epistemology, philosophical megascience.

**Rəyçi: f.e.d, prof. Əli Abasov**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2024.1(42).031**

# TÜRKİYE VE AZERBAYCAN’IN YAPAY ZEKA ÇAĞINA HAZIRLANMASI

**Prof. Dr. Kerem KARABULUT**
*Atatürk Üniversitesi,* **Türkiye**
*kerem@atauni.edu.tr*
*orcid:0000-0002-3159-3289*

**Özet.**Yapay Zeka çağı, Dördüncü Sanayi Devrimi çağıdır. Dördüncü Sanayi Devrimi, ilk kez Almanya’da Hannover Fuarı’nda “Endüstri 4,0” teriminin kullanılmasıyla literatüre girmiştir. Aslında 21. yy ile bu dönemin veya çağın başladığı söylenebilir. Bazı yazarlar bu çağa “2. Makine çağı” da demektedirler. 4. Sanayi devrimini çok daha yaygın ve mobil bir internet, daha küçük ve güçlü sensörler, yapay zekâ ile makine öğrenmesi gibi gelişmeler karakterize etmektedir. Bunlar içerisinde geleceği şekillendireceği düşünülen ana unsur Yapay Zekadır.

Yapay Zeka veya Endüstri 4,0 (Dördüncü Sanayi Devrimi) çağı, 21. yy’da teknolojinin en ileri düzeye ulaştığı, artık ulaşılmak istenen tüm sonuçların makinalar aracılığıyla başarılmaya çalışıldığı, bu çağ öncesindeki ekonomik, politik, sosyolojik, coğrafik, askeri, ideolojik, eğitim, sağlık vb tüm alanlarda köklü politika ve uygulama değişikliklerinin yaşandığı dönem olarak da izah edilebilir. Yaşanan bu süreç dünya ülkelerinin tamamını derinden etkilemektedir ve bu etki gelecekte daha da artarak devam edecektir. Şimdiden başlayarak bu sürece adapte olan ve yapısal değişimini tamamlayabilen ülkeler başarılı olacaklardır. Yapay zeka çağının gerisinde kalan ülkeler ise önemli kayıplar yaşayacaklardır. Bu çalışma ile Türkiye ve Azerbaycan’ın yaşanan sürecin gerisinde kalmamalar için nasıl bir yol izlemeleri gerektiği tartışılmakta ve uygun politikalar önerilmeye çalışılmaktadır.

**Anahtar Kelimeler:** Yapay Zeka, Türkiye ve Azerbaycan, 21. Yüzyıl Ekonomisi, Dördüncü Sanayi Devrimi.

## Yapay Zeka Çağının Ekonomi-Politik Özellikleri

Yapay zeka Çağındaki ekonomi politikaları; ülkelerin kalkınmasında otomobil, tekstil, petrol, televizyon ve benzeri gibi ürünleri üreterek değil; akıllı silahlar, insansız hava araçları, robotların terzi usulü çalıştığı imalathaneler, akıllı fabrikalar, canlı askerler yerine robot askerler, Apple’ın Siri’si gibi bilgisayarla konuşma yapılabilen son yıllarda ortaya çıkan yapay zekâ uygulamalarını ön plana çıkaran yeni teknolojiler, icatlar ve yöntemler geliştiren uygulamalar ön plana çıkmaktadır.

Bu çağda Türkiye ve Azerbaycan’ın birlikte değerlendirilmesinin sebebi ise; bu iki ülkenin dünyada başka eşi ve benzeri olmayan “İki Devlet-Bir Millet” özelliğindeki yakınlık ve birliktelikleriyle ilgilidir. Karabağ Zaferi, bu iki devletin birlikte güçlenmesinin gelecekte bölge ve dünyadaki istikrar ve güven açısından gerekli olduğunu göstermiştir. Bu nedenle, yapay Zeka Çağı ekonomik gelişmelerine birlikte ayak uydurmaları hem kendileri hem de dünya dengeleri açısından anlamlı olmaktadır. Yazının başlığı iki ülkeyi kapsayacak şekilde ele alınmasına rağmen, bu ülkelerin Yapay Zeka Çağına uyumlu bir ekonomik dönüşüm yaşamaları, başta Türk Dünyası olmak üzere birçok ülkeyi de olumlu etkileyecektir.

Yapay Zeka Çağı ekonomisinde üretimin temel girdisi, “nitelikli birey”dir ve “bilgi ekonomisi üretimi” söz konusudur. Bu çağın temel becerileri ise, teknoloji, bilişim ve iletişim teknolojileri, akıl, hayal gücü, merak, cesaret, uluslararasılaşma, markalaşma, icatçılık, liyakat ve benzeri kavramlar ve uygulamalar bütünüdür. İşte yapay zekayı kullanarak bu tür mal ve hizmetleri üreten ülkeler gelecekte öncü ülkeler, diğerleri de bunları tüketmekle meşgul ülkeler konumunda olacaklardır.

Yapay Zeka Çağı ekonomisinde, olamayan veya bilinmeyen bir mal veya hizmeti üreterek yüksek katma değerler yaratma süreci işlemektedir. Örneğin, 53 kişinin kurup, yaklaşık 20 milyar dolara sattıkları WhatsApp bu yüzyılın üretimlerinden bir örnektir. Kısaca; yenilik getirip bunu uzun vadeli kılmak günümüzün üretim ya da iş hayatı için hayati bir öneme sahiptir. Devletler, şirketler

veya yöneticilerin yenilikleri takip edememeleri durumunda hayatlarının son bulması tehlikesi büyük olacaktır. Örneğin; Osmanlı imparatorluğu 1. Sanayi Devrimi ile ortaya çıkan gelişim ve değişimi kendi yapısına adapte edemediği için ekonomik çöküşü yaşamıştır. El feneri üreten fabrikalar, cep telefonlarında fener özelliği ortaya çıktığında, üretim yapılarını değiştirmedilerse yok olmaya mâhkum olmuşlardır.

**Yapay Zeka Çağında Türkiye ve Azerbaycan'ın Önemsemeleri Gereken Uygulamalar**

Yapay Zeka Çağındaki üniversitelerin çabaları; teknolojik inovasyon sağlayacak çalışmalar yönünde olmalıdır. Türkiye ve Azerbaycan'ın bu inovasyonu gerçekleştirmeleri için eğitim sistemlerini reforme etmeleri ve genç nüfus potansiyellerini şekillendirmeleri gerekmektedir. Bunun için sadece Türkiye ve Azerbaycan'daki eğitilecek nüfus potansiyeli ile de yetinilmemelidir. Başta Orta Asya Türk Cumhuriyetleri olmak üzere, dünyanın diğer ülkelerindeki yetenekli insanları ve gençleri eğiterek bunu üretime dönüştürebilecek bir yapı da oluşturulmalıdır. ABD'de Aziz Sancar, Almanya'da Kovit-19 aşısını bulan Uğur Şahin ve eşi gibi bilim adamları örnekleri Türkiye ve Azerbaycan'ın bu çağda geride kalmamak için bu modeli denemeleri gerektiğini ortaya koymaktadır.

Eğitim modeli oluşturulurken de şu gerçek göz önünde bulundurulmalıdır; Öğrenmenin belirleyicileri üç unsura bağlıdır. Bunlar: Zekâ, yetenek ve dürtüdür (motivasyon). Ülkeler arasında bu üç unsurdan sadece kurumsal farklılıklara bağlı olarak yeni teknolojileri öğrenme dürtüsündeki yetersizlikler çağın gerisinde kalmaya sebep olabilmektedir. İşte Türkiye ve Azerbaycan'daki eğitim modeli, ülkelerdeki motivasyonu artırıcı uygulamaları içermelidir. Böylece, ülkelerin kalkınmaları ve bilimsel başarıları çağın gerektirdiği düzeyde olacaktır. Yanis Varoufakis'in "Kızımla Ekonomi Sohbetleri Kapitalizmin Kısa Tarihi" adlı eserde de vurguladığı gibi sanayi devriminin İngiltere'de ortaya çıkmasının önemli nedenleri sanayi devriminin ortaya çıkmasını sağlayacak motivasyonların bu ülkede olması ile ilgilidir. Bu nedenle, Yapay Zeka Çağını yakalamak için bu teknolojiyi icat edecek eğitim modelini geliştirmeleri ve insan altyapısını motive etmeleri gerekmektedir.

Türkiye ve Azerbaycan'ın çağın gereği yeni alanlara yatırım yapmaları ve ekonomilerini 21. yy'a göre şekillendirmeleri gerekmektedir. Örneğin, Dünya güneşten 174 bin trewatt enerji almaktadır. Şu anda insanlığın ihtiyacı ise 15 trewatt'tır. 2050 yılında bu rakamın 25 trewatt'a çıkacağı ifade edilmektedir. Türkiye ve Azerbaycan için bu tür alanlara yatırım yapmak gelecek dönemler için hayati önem arzetmektedir. Örneğin, kandaki hastalıkları haber verecek bir vücut çipi üretmek gibi yenilikler üretilmesi ülkeler için gelişmelerin gerisinde kalınmamasını sağlayacaktır. Bu nedenle, "akıl teri ile alın terini" birleştiren bir üretici sınıf oluşturulmasına ihtiyaç bulunmaktadır. Bunu oluşturmak için de eğitim modelinin ona göre şekillendirilmesi gerekmektedir.

Yapay Zeka Çağı ile önceki ekonomik sistem arasındaki temel fark; Yapay Zeka Çağı öncesindeki ekonomik yapı *"satranç sahnesi veya oyunu"* şeklindeydi. Bu ekonomik yapıda, çok düşünmek, doğru düşünmek ve doğru hamleler yapmak yoluyla ekonomik kazançlar elde edilebilmekteydi. Bu yapı, 1. Sanayi devrimi ile 4. Sanayi devrimi arasını temsil edebilir niteliktedir.

Yapay Zeka Çağında ise; *"bilgisayar ve bilgi oyunu"* şeklinde bir ekonomik yapı söz konusudur. Bu modelde, hız ve hıza ayak uyduracak ekonomik ve sosyal hamleler gerekmektedir. İşte bu hıza ayak uyduranlar üretenler, diğerleri ise tüketenler ve bağımlı konumundaki ülkeler olacaklardır.

**Türkiye ve Azerbaycan'ın Yapay Zeka Çağına Ayak Uydurma Çalışmalarına Yönelik Öneriler**

Yapay Zeka Çağındaki gelişmelere ve dönüşümlere ayak uydurabilmek için Türkiye ve Azerbaycan için şu öneriler yapılabilir:

- Türkiye ve Azerbaycan'ın kuracağı ortak üniversite uluslararası standartların üstünde teknoloji üreten ve bilimsel icatlar yapan bir merkeze dönüştürülmelidir. Aziz Sancar, Uğur Şahin ve eşi gibi bilim adamlarının ülkelerimizde yetişmesi sağlanmalıdır. Aksi takdirde, sahip olduğumuz beyinler bile başka ülkelerin menfaatine hizmet edeceklerdir**.** Bilim adamlarının icatlarını veya buluşlarını neden ülkelerimizde gerçekleştirmiyor olmaları üzerinde çalışılmalı ve çözümler

üretilmelidir. Kurulacak üniversite Türkiye ve Azerbaycan’ın ortak çalışmasına büyük önem atfeden Aziz Sancar hocanın rehberliğinde şekillendirilirse bilimsel altyapısının daha sağlam olacağı düşünülebilir.

- Her iki ülkenin ekonomik politikaları, batılı ülkelerin modellerini taklit etme üzerine kurulu olmaktan ziyade kendi iç dinamiklerini ve potansiyellerini dikkate alan özgün politikalar olarak şekillendirilmelidir. Örneğin ABD, 1980’li yıllarda kendi ekonomisi üzerine araştırma yapan Arthur Laffer’in çalışmalarını uyguladığı “Arz Yanlı İktisat Politikaları”nın temel dayanağı yaptığı gibi, Türkiye ve Azerbaycan da kendi modellerini ve politikalarını geliştirebilmelidirler. Örneğin, “gen araştırmaları” veya kandaki hastalıkları haber verecek bir vücut çipi üretmek gibi yenilikler üretilmesi, Türkiye ve Azerbaycan gibi ülkeler için gelişmelerin gerisinde kalınmamasını sağlayacaktır. Bu konularda kendilerine özgü çalışma modelleri ve buluşları ile dünya bilim ve ekonomisini etkileyici alanlarda yoğunlaşmaları yararlı olacaktır.
- Özellikle Karabağ Zaferinin olumlu etkisini devam ettirmek için iki ülke arasında, amaç ve beklentileri gelecekte devam ettirecek icatçı ve yenilikçi gençler için “işte ve fikirde birlik” anlayışı çerçevesinde organizasyonlar ve düzenlemeler yapılmalıdır. Böylece hem Karabağ ve Ermenilerin yaptıkları konusunda farkındalık oluşması sağlanacak hem de Türkiye ve Azerbaycan’ın gençlik potansiyeli birlikte değerlendirilmiş olacaktır.
- İki ülkenin katma değeri yüksek teknolojik üretime yatırım yapmaları gerekmektedir. Özellikle gelişmiş ülkelerin uzayda avantaj elde etme çabalarının gerisinde kalmamak için eğitime ve Ar-Ge harcamalarına daha çok kaynak ayırmalıdırlar. Çünkü ileri düzeyde düşünüp üretim yapabilen gençlerin oranı her iki ülkede de OECD ortalamasının yaklaşık beşte biri kadardır. Yüksek katma değerli üretim sadece sanayi sektöründe değil tüm sektörler için önemsenmelidir. Örneğin, Türkiye, dünya fındık üretiminin yaklaşık %80’nini üretmekte ve bunun %25’ini İtalyan bir firma almaktadır. İtalyan firma yaklaşık 800 milyon dolara aldığı fındığa; aklı, teknolojiyi, hayali katarak ve markalaşarak yaklaşık 14 milyar dolarlık katma değer yaratabilmektedir. Buna benzer şekilde ileri teknoloji düşünüp tasarlayabilen gençlerin oranı Türkiye’de %2,5 civarındadır. Oysa bu oran OECD ülkelerinde %10’un üzerinde Güney Kore’de ise %20’nin üzerindedir. İşte Türkiye ve Azerbaycan her sektörde bu üretim stratejisini geliştirebilecek çalışmalarını yoğunlaştırmalıdırlar.
- Yapay Zekanın ülkelerin kalkınmasına katkısının yanında önemli tehditleri de mevcuttur. Örneğin, Yapay Zeka Uygulamaları kullanılarak dost ülkelerin bile birbirine düşürülmesi mümkündür. Alan Musk’ın bir ifadesinde belirttiği gibi “yapay zeka atomdan bile daha tehlikeli olabilir”. İşte bu kadar büyük tehlikelr de doğurma özelliğine sahip olabilen yapay zekanın olumsuz etki ve yönlendirmelerine yönelik de Türkiye ve Azerbaycan’ın birlikte mücadele etmesi uygun olacaktır.
- Daron Acemoğlu ve Simon Johnson tarafından kaleme alınan “İktidar ve Teknoloji –Bin Yıllık Mücadele-“ adlı eserde dünyada şimdiye kadar yaşanan tüm teknolojik yeniliklerde belli ülkeler veya toplum kesimlerinin ekonomik yarar sağladığı, bu yüzden yapay zeka sürecinde de böyle bir sonucun yaşanabileceğine dikkat çekilmektedir. Türkiye ve Azerbaycan bu durumu dikkate alarak her iki ülkenin yapay zekanın sağlayacağı fırsatlar ile topyekün kalkınmalarını gerçekleştirilmeye çalışmalıdırlar.
- Yapay zeka uygulamaları ile artık barışta ve savaşta algılar oluşturulabilmekte ve bu algılar ile insanlar farkında olmadan bile onların yönetilmeleri mümkün hale gelmektedir. Bu nedenle, Türkiye ve Azerbaycan’ın mutlaka yapay zeka çağını yakalayacak politikalar üretmeleri ve uygulamaları gerekmektedir. Aksi takdirde Osmanlı İmparatorluğu’nun yaşadığı süreç 21. yy’da Türkiye ve Azerbaycan’ın karşısına çıkabilecektir.

**Sonuç**

Yapay Zeka Çağı, teknolojinin ve teknolojik üretimin ülke ve toplumların geleceğini şekillendirdiği bir çağdır. Bu süreçte hangi ülke bilinmeyen ve hatta başkaları tarafından düşünülemeyen bir yeniliği getirir ve bunu üretim sürecine sokarsa o ülke avantajlı konuma geçecektir. İnsanlık tarihinde toplumların gelişim ve değişimini etkileyen iki önemli devrim olan tarım ve sanayi devrimi arasındaki mesafe 10-12 bin yıl gibi çok uzaktır. Oysa sanayi devrimleri

arasındaki mesafeler gittikçe kısalmaktadır. Örneğin 2010 sonrası başlayan Dördüncü Sanayi Devrimi üzerinden daha 14 yıl geçmeden Beşinci Sanayi Devrimi gündeme gelebilmektedir. Gelişmeler göstermektedir ki gelecekte emeğe olan ihtiyaç çok azalacaktır. Üretim tamamen teknolojik araçlar vasıtasıyla gerçekleştirilecektir. Bu nedenle, ülkelerin eğitim sistemlerinde yapacakları reformlarla, teknoloji üreten ve bunu üretime uygulayabilen bir nesil yetiştirerek dünyadaki yarış içerisinde yerlerini almaları mümkün olabilecektir.

Bu gelişmeler işsizlik problemi gibi toplum mensuplarını derinden etkileyen bir sonuç da doğurabilecektir. İşte eğitim, istihdam, üretim, araştırma ve benzeri politikalarını Yapay Zeka Çağının gerektirdiği doğrultuda şekillendiren ülkeler öncü ülkeler diğerleri ise yarışın gerisinde kalan ülkeler olacaklardır.

Türkiye ve Azerbaycan yaşanan bu süreçte eğitim reformu ile kendi iç dinamiklerini de dikkate alarak yeni çalışmalar ve değişimler başlatmak zorunda olan ülkelerdendirler. Türkiye ve Azerbaycan’ın Yapay Zeka Çağının gerektirdiği teknik yenilik ve üretimi sağlayacak bir nesil yetiştirmeleri ve bunu dünyaya pazarlamaları gelecek için büyük önem taşımaktadır.

Yapay Zeka Çağı, üretim açısından; “hayalin üretime dönüştürüldüğü” bir çağdır. Bu çağda mevcut yapının devamını sağlayıcı politikalar değil, yenilik ve icat konusunda ortaya çıkacak yeni anlayışlar toplumları ilerletecektir. Bu nedenle, Türkiye ve Azerbaycan’ın “okuyan-düşünen-tartışan-üreten” şeklindeki insan yetiştiren bir eğitim modeli ile gelişmeleri yakalayabilecekleri söylenebilir.

Türkiye ve Azerbaycan’ın eğitim alanında yapacakları yeniliklere ilaveten, “özgürlüğün olmadığı yerde üretim olmaz” anlayışı ile toplumsal ve siyasi reformlar gerçekleştirerek “akıl teri ile alın terini birleştirebilen” bir nesil yetiştirilmesine katkı yapması da gelecek için yararlı olacaktır. Kısacası çağın gerektirdiği algı, “evrensel olmayan insan milli fayda sağlayamaz” anlayışıdır. Yani sadece ülke içine yönelik politikalar ve uygulamalar toplumu dünya gelişmelerinin gerisinde bırakacak bir yüzyılda yaşanılmaktadır. Bu nedenle, dünyayı ve ülkeyi birlikte kavrayan ve buna yönelik politik, sosyal, ekonomik ve teknolojik yenilikler yapabilen nesiller yetiştirilmesi ön plana çıkmaktadır. Türkiye ve Azerbaycan tüm bu gelişmeleri yakalayıp uygulayabilecek potansiyele sahip, ancak henüz ileri teknoloji üreten ülkeler konumunda değillerdir. Bu konuda, her iki devletin dünya gelişmelerini ve örneklerini dikkate alarak içeride etkin politikalar geliştirmelerine ihtiyaç bulunmaktadır. En önemli giriş ve çözüm alanı ise eğitim sektörüdür. Eğitimdeki reformlar ile diğer tüm alanlardaki dönüşüm ve gelişimler gerçekleştirilebilecektir.

## Kaynakça

Acemoğlu, Daron, Simon Johnson (2023), “İktidar ve Teknoloji –Bin Yıllık Mücadele-“ (Çeviren: Cem Duran), İstanbul: Doğan Kitap.

Acemoğlu, Daron, Robinson James A. (2015). Ulusların Düşüşü (Çeviren: Faruk Rasim Velioğlu), İstanbul: Doğan Kitap.

Candemir, Yücel (2016). Dördüncü Sanayi Devrimi, Küreselleşme ve Ulusal gelir Muhasebesi, Ekonomi-tek, cilt 5, sayı 2, Mayıs, 1-34.

Demirtaş, Özgür (2017). CNN Türk Pazar Programı (05.02.2017,Moderatör: Hakan Çelik).

Dülgeroğlu, Ercan (199). Kalkınma Ekonomisi, Bursa: VİPAŞ.

Eğilmez, Mahfi (2018). Küresel Ekonomi ve Türkiye Ekonomisi, 28.08.2019 tarihinde http://www.mahfiegilmez.com/2018/04/kuresel-ekonomi-ve-turkiye-ekonomisi.html adresinden erişilmiştir.

Eğilmez, Mahfi (2018). Değişim Sürecinde Türkiye Osmanlı’dan Cumhuriyet’e Sosyo-Ekonomik Bir Değerlendirme, İstanbul: Remzi Kitabevi.

FAN, C. Simon (2004). “Quality, Trade, and Growth”, Journal of Economic Behavior & Organization, Volume 55, Issue 2, October.

Harari, Yuval Noah (2018). 21. Yüzyıl İçin 21 Ders (Türkçesi: Selin Siral, İstanbul: Kolektif Kitap.

Jones, Charles I.(2001). İktisadi Büyümeye Giriş (Çevirenler: Sanlı Ateş ve İsmail Tuncer), İstanbul: Literatür Yayınları.

Karabulut, Kerem (2019). The Economy of The 21st Century and Turkey, Perspectives on Applied Economics and Politics: Cases from Turkey (Editors: Kerem Karabulut, Christos Teazis, Emre Bulut, Cumali Marangoz), IJOPEC Publication, London.

Morrison, Kimberlee (2010). 21st Century Skills For a 21st Century Economy, 01.09.2019 tarihinde https://www.entrepreneur.com/article/218643 adresinden erişilmiştir.

Ömür, Özgür Mustafa, Filiz Giray (2016). Kamusal Mal ve Hizmet Olarak Eğitim Hizmeti ve Harcamaları: Türkiye ve Diğer OECD Ülkeleri Karşılaştırması, Manisa Celal Bayar Üniversitesi Sosyal Bilimler Dergisi, Cilt:14, Sayı:4, Aralık.

Özdoğan, Ogan (2017). Endüstri 4.0 Dördüncü Sanayi Devrimi ve Endüstriyel Dönüşümün Anahtarları, İstanbul: Pusula.

Schwab, Klaus (2016). Dördüncü Sanayi Devrimi (Çeviren: Zülfü Dicleli), İstanbul: Optimist.

Stiglitz, Joseph E. (2015). Eşitsizliğin Bedeli (Çeviren: Ozan İşler), İstanbul: İletişim Yayınları.

Şenses, Fikret (1996). Kalkınma İktisadı Yükselişi ve Gerilemesi, İstanbul: İletişim Yayınları.

TABAN, Sami, Muhsin Kar (2004). “Beşeri Sermaye ve Kalkınma”, Kalkınma Ekonomisi Seçme Konular (Editörler: Sami TABAN- Muhsin KAR), Ekin Kitabevi.

Uras, Güngör (2016). Dördüncü Sanayi Devrimi Başladı ama çok kişi yeni duyuyor!, 24.08.2016 tarihinde http://www.milliyet.com.tr/yazarlar/gungor-uras/dorduncu-sanayi-devrimi-basladi-ama-cok-kisi-yeni-duyuyor-2181898 adresinden erişilmiştir.

Varoufakis, Yanis (2019).Kızımla Ekonomi Sohbetleri Kapitalizmin Kısa Tarihi (Çeviri: Sinan Arslaner), İstanbul: Epsilon Yayınevi.

https://www.gulaysavas.com.tr/yapay-zekanin-zararlari-ve-tehlikeleri/#google_vignette (Giriş: 03.07.2024).

## PREPARING TURKİYE AND AZERBAIJAN FOR THE AGE OF ARTIFICIAL INTELLIGENCE

**Kerem Karabulut**

**Abstract.** The age of Artificial Intelligence is the age of the Fourth Industrial Revolution. The Fourth Industrial Revolution entered the literature for the first time with the use of the term "Industry 4.0" at the Hannover Fair in Germany. In fact, it can be said that this period or era started with the 21st century. Some writers refer to this era as "2. They also call it "machine age". The 4th industrial revolution is characterized by developments such as a much more widespread and mobile internet, smaller and more powerful sensors, artificial intelligence and machine learning. Among these, the main element that is thought to shape the future is Artificial Intelligence.

The era of Artificial Intelligence or Industry 4.0 (Fourth Industrial Revolution) can also be explained as the period in which technology has reached its most advanced level in the 21st century, all desired results are now tried to be achieved through machines, and radical policy and practical changes are experienced in all areas such as economic, political, sociological, geographical, military, ideological, education, health, etc. before this era. This process deeply affects all countries of the world, and this impact will continue to increase in the future. Countries that can adapt to this process and complete their structural change, starting from now, will be successful. Countries that fall behind the age of artificial intelligence will experience significant losses. With this study, it has been discussed what path Turkey and Azerbaijan should follow in order not to fall behind in the current process and appropriate policies have been be suggested.

**Keywords:** Artificial Intelligence, Türkiye and Azerbaijan, 21st Century Economy, Fourth Industrial Revolution.

# ПОДГОТОВКА ТУРЦИИ И АЗЕРБАЙДЖАНА В ЭРУ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

**Керем Карабулут**

**Резюме.** Эпоха искусственного интеллекта – это эпоха Четвертой промышленной революции. Четвертая промышленная революция впервые вошла в литературу с использованием термина «Индустрия 4.0» на Ганноверской ярмарке в Германии. История искусственного интеллекта как нового научного направления начинается в середине XX века. Искусственный интеллект— главная технология XXI века, которую также называют «эрой машин». Четвертая промышленная революция – это тенденция к автоматизации и обмену данными в производственных технологиях и процессах, которые включают киберфизические системы (CPS), IoT, промышленный интернет вещей, облачные вычисления, когнитивные вычисления и искусственный интеллект. Этот процесс глубоко затрагивает все страны мира, и это воздействие будет продолжать возрастать в будущем. Страны, которые смогут адаптироваться к этому процессу и завершить структурные изменения - добьются успеха. Страны, отстающие от эпохи искусственного интеллекта, понесут значительные потери. В этом исследовании рассматривается и предлагается соответствующая политика, по какому пути должны идти Турция и Азербайджан, чтобы не отставать в текущем процессе.

**Ключевые слова:** искусственный интеллект, Турция и Азербайджан, экономика XXI века, четвертая промышленная революция

**Rəyçi: f.f.d., dos. Zöhrə Əliyeva**

**UOT 16**
**https://doi.org/10.30546/ifs.2024.1(42).033**

# ENTROPİYA VƏ QEYRİ-SƏLİS ÇOXLUQLAR NƏZƏRİYYƏSİ — XAOSDAN HARMONİYAYA: SİNERGETİK ASPEKTLƏR

**Əlişirin Şükürov**
riyaziyyat üzrə fəlsəfə doktoru, fəxri professor,
DİM “Abituriyent” jurnalı redaksiyası, **Azərbaycan**
ali_shirin@mail.ru
https://orcid.orq/0009-0008-9892-9948

**Xülasə**. Məqalədə entropiya qanununa fəlsəfi baxış sərgilənir, nizamsızlıqdan nizama keçiddə elmi nəzəriyyələrin, elmi prinsip və faktların, o cümlədən qeyri-səlis çoxluqlar (QSC) nəzəriyyəsinin fəlsəfəsinin rolu sinergetik aspektdə təhlil olunur.

**Məqsəd**: Entropiya ilə qeyri-səlis çoxluqlar nəzəriyyəsi arasında əlaqənin qnoseoloji təhlili.

**Metodologiya**: Entropiya qanunu və idrak fəlsəfəsi — sinergetika.

**Elmi yenilik**: Kainatdakı entropiyanın artmasının, tükənmə qanunauyğunluğunun və tükənmə momentinin zəruriliyinin stoxastik modellər vasitəsilə epistemoloji əsaslandırılması. Nizamsızlıqdan nizama keçidlə bağlı sinergetik proseslərdə elmin, o cümlədən QSC nəzəriyyəsinin rolu: fəlsəfı təhlil.

**Açar sözlər:** entropiya, sinergetika, qnoseoloji, ontoloji, qeyri-səlis çoxluq, ehtimal, məntiq, mənsubiyyət funksiyası, linqvistik dəyişən, təsadüfi proses, “0 nöqtəsi”.

**Giriş.** Kainatda hər hansı bir məqamda müəyyən dərəcədə təzələnmə, artma, qismən bərpa müşahidə olunsa da, ümumən köhnəlmə, tədricən tükənmə, dağılma, - hər an heçliyə daha çox yuvarlanmanı müşahidə edirik. Ən mükəmməl yaranan sistemlər belə özünü minimum enerjiyə cəlb edir. Hər bir hadisə, hər bir proses və obyektlər entropiya (nizamsızlıq, təsadüfilik, qeyri-dəqiqlik, qeyri-müəyyənlik) ilə bağlıdır. Baş verən hər bir hadisə zamanı enerjinin müəyyən bir hissəsi faydasız qalır. Beləliklə də, kainatda entropiya – nizamsızlıq daim artır, kainat maksimum nizamsızlığın olduğu nöqtəyə yaxınlaşır.

Kainatda entropiyanın artması, hər şeyin öz yoxluğu ilə yanbayan hərəkəti və hər an heçliyə çevrilə bilməsi sanki insanların gözləri qarşısında baş verir. Entropiya qanunu empirik, insan təcrübəsinin bəşəriyyətə bəxş etdiyi, bəlkə də müəyyən mənada isbata ehtiyacı olmayan, metafizik xarakter daşıyan ən dəyərli qanunlardan biri kimi xarakterizə oluna bilər.

Bu məqalədə entropiyanın fəlsəfəsi ilə yanaşı, nizamsızlığın hökm sürdüyü gerçək dünyanın bir çox hadisə və sistemlərinin adekvat modellərini yaradaraq onu nizamlamağa, xaosdan harmoniyaya keçidə vasitə olan elmi nəzəriyyələrin, elmi prinsip və faktların sinergetik aspektdə fəlsəfi təhlili verilir. Entropiya konsepsiyası kontekstində bir stoxastik modelə fəlsəfi baxış sərgilənir, fəlsəfi tezislər irəli sürülür. QSÇ nəzəriyyəsinin obyektə münasibətdə insan təfəkküründə yaranan qeyri-müəyyənliklərin doğurduğu nizamsızlığı nizamlamaq üçün daha adekvat modellərin qurulmasında rolu epistemoloji olaraq əsaslandırılır.

## Entropiya (elmi yanaşma)

Entropiya nizamsızlığın, o cümlədən təsadüfilik, qeyri-dəqiqlik, qeyri-səlislik və s. kimi qeyri-müəyyənliklərin səviyyəsinin (dərəcəsinin) ölçülməsini ifadə edən elmi anlayışdır. Bu anlayış elmə ilk dəfə 1859-cu ildə alman fizik Rudolf Klauzus tərəfindən gətirilmişdir və yunancadan tərcümədə “çevrilmə”, “dönüş” mənasını verir. Sadə şəkildə ifadə etsək, entropiya – Kainatdakı nizamsızlıqla bağlı olub, xaos, öz-özünə dağılma, tükənmə mənasında işlədilən anlayışdır. Hazırda elmi-nəzəri, elmi-praktik sahələrdə geniş istifadə olunan bu konsepsiyanın əhatə dairəsi kosmologiya, fizika, kimya, biologiya, riyazi statistika, idarəetmə nəzəriyyəsi, iqtisadiyyat, sosiologiya, informasiya texnologiyaları və digər bir çox spektrlərə qədər genişlənir.

Entropiya fiziki mənada enerjinin səpələnmə dərəcəsini və yaxud istiliyin işə çevrilməsi effektivliyini (enerjinin yararlılığını) xarakterizə edən kəmiyyətdir. Yəni, hər hansı bir sistemdə faydalı (işlənə bilən) enerjinin miqdarı azdırsa, entropiya – nizamsızlığın səviyyəsi yüksəkdir, əksinə, faydalı enerjinin miqdarı çoxdursa, entropiya kiçikdir və sistemdə nizamlılıq yüksəkdir. Entropiyası sıfıra bərabər olan sistem isə tam nizamlı və mükəmməl hesab olunur.

Termodinamikanın 1-ci qanununa (Enerjinin saxlanması qanunu) görə, kənar müdaxilə olmadan enerji həmişə temperaturu böyük olan cisimdən temperaturu kiçik olan cismə verilir. Bunun tərsi Enerjinin saxlanması qanununa zidd deyil. Lakin bu proses özbaşına baş verə bilməz. Bunun üçün kənar müdaxiləyə ehtiyac var. Yəni, öz-özünə baş verən bütün proseslər geriyədönməzdir və yalnız bir istiqamətdə gedir. Entropiyanın, belə demək mümkünsə, əsasında dayanan Termodinamikanın ikinci qanunu da, bir fizika qanunu olaraq, elə bu elmi çatışmazlığı aradan qaldırır: Sistemdə və onu əhatə edən cisimlərdə heç bir dəyişiklik etmədən istilik enerjisini nisbətən soyuq sistemdən daha isti sistemə vermək olmaz.

Bu elmi təyinləri verməkdə məqsədimiz nizamsızlığın (xaosun), qeyri-müəyyənliyin ölçüsünü ifadə edən entropiya anlayışının (həm də konsepsiya olaraq) hansı akademik müstəvidən qaynaqlandığına qısaca nəzər salmaq və onun fəlsəfi-ontoloji nəticələrinə keçmək cəhdidir. Bu məqsədlə fəlsəfənin sevdiyi dildə ifadə etsək, termodinamikanın qanunlarını qısaca belə şərh edə bilərik: Özbaşına (kənar müdaxilə olmadan) baş verən bütün proseslər biristiqamətli olub, geriyədönməzdir. Kainatda olan bütün sistemlər (hər şey) özünü minimum enerjiyə və maksimum nizamsızlığa cəlb edir. Bir sözlə, kainatın entropiyası daima artır [5;8].

Bu kimi ontoloji nəticələr fəlsəfə üçün də xeyli “faydalı xammal” hazırlayır ki, mən də bu xammaldan bacardığım səviyyədə istifadə edib “keyfiyyətli məhsul” almağa səy göstərəcəyəm. Amma bu məqsədlə fəlsəfi araşdırmalarda faydalı olar deyə, elmi yanaşmaları bir qədər də genişləndirmək istərdim.

Məlumdur ki, qeyri-müəyyənliyin əsas formalarından biri stoxastik (ehtimal), digəri isə linqvistik (qeyri-səlisliklə bağlı) növdür. Entropiya stoxastik davranışa malik sistemlər üçün qeyri-müəyyənliyin kəmiyyət ölçüsünü ifadə edir və hazırda təsadüfi obyektlərin entropiyası olaraq müvafiq sahələrdə geniş istifadə olunur. Həmçinin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin tətbiq olunduğu sahələrdə də qeyri-səlisliyin səviyyəsinin ölçülməsi üçün istifadə olunan metodlardan biri entropiya konsepsiyasıdır. Hər iki növ qeyri-müəyyənlik üçün ehtimal xarakteristikalarına əsaslanaraq riyazi metodlar (entropiya üçün riyazi formulalar) işlənib hazırlanmışdır. Entropiya anlayışını qeyri-müəyyənliyin ölçüsü olaraq elmi aspektdən anlamaq üçün – bu bizə fəlsəfi yanaşmalarda lazım olacaq deyə, - bir məşhur və sadə nümunəni nəzərdən keçirək. Fərz edək ki, hər hansı bir A hadisəsi 0.99 ehtimalla baş verə, 0.01 ehtimalla baş verməyə bilər. Digər hər hansı bir B hadisəsi üçün isə uyğun ehtimallar 0.5 və 0.5-ə bərabərdir. Birinci halda hadisənin başvermə ehtimalı (0.99) böyük olduğundan, hadisə daha çox gözləniləndir (ehtimalı 1-ə yaxın olduğundan sanki özünü mütləq hadisə kimi aparır) və bu halda entropiya – qeyri-müəyyənliyin dərəcə göstəcisi də, ikinci hala nisbətən çox kiçik kəmiyyət olacaq. İkinci halda isə hadisənin başvermə ehtimalı elədir ki, hadisənin baş verməsinə olan inamımız sanki “yarıya bölünmüşdür”, bu hal isə qeyri-müəyyənliyin – təsadüfi hadisənin entropiyasının (təsadüfilik dərəcəsinin) daha yüksək olmasını bildirən vəziyyətdir [9;10; 17].

Entropiya anlayışını ilk dəfə elmə gətirən alman alimi Rudolf Klauzusun termodinamika qanunları əsasında irəli sürdüyü Böyük Donma nəzəriyyəsindən bu nəticələr alınır: Kainat elə həddə qədər genişlənəcək ki, onun hər nöqtəsində temperatur mütləq sıfıra enəcək və maksimal entropiya vəziyyəti yaranacaq. Bu nizamsızlığın son nöqtəsi olacaq.

Kainatın genişlənməsi ilə bağlı Fridman modelinə (birinci tip model) əsasən kainatın kifayət qədər yavaş genişlənməsi baş verir və nəhayət, genişlənmə dayanır, kainat sıxılaraq yığılır. Bu modeldən aşkar olaraq Böyük partlayış hadisəsinin baş verməsi kimi, Böyük çöküşün də qaçılmaz olduğu hipotezi alınır [3].

Hər iki yanaşma, əslində, kainatın zamanla tükəndiyini, sona getdiyini – “sıfır nöqtə”yə (dağılma vəziyyəti) yaxınlaşdığını elmi şəkildə əsaslandırmağa çalışır [18]. Məqsədimdən biri də Kainat üçün ontoloji xarakter daşıyan həmin bu metafizik “sıfır nöqtəsi”ni entropiya konsepsiyasını

elmlə fəlsəfənin inteqrasiyasında – epistemoloji olaraq araşdırmaq üçün başlanğıc kimi qəbul edib, bir neçə fəlsəfi tezislər irəli sürməkdir.

**Entropiya və fəlsəfə**

Elmi nəticələrə əsasən, Kainatın entropiyası – nizamsızlıq daim artır. Öz-özünə baş verən proseslər geriyə hərəkət edə bilməz. Entropiya növbəti zamanla əlaqəlidir. Masadan düşüb sınan fincan ilkin halında təkrar masaya qayıda bilməz. Dağılan binanın öz-özünə bərpası mümkün deyil. Beləliklə, zamanla faydasız enerji çoxalır, nizamsızlıq artır, hər şey tükənir, hər şey yox olur. Nizamsızlıq daha az enerji tələb edir. Dağıtmaq yaratmaqdan asandır. Yaratmağa – nizama, mükəmməlliyə daha çox enerji sərf olunmalıdır.

Fəlsəfi fikir tarixinə səyahət etsək nizamsızlıq və harmonik vəziyyətlərlə bağlı bir çox maraqlı və məntiqli yanaşmalara rast gəlmək mümkündür. Qədim Çin fəlsəfəsinə görə, *yan* (kişi aktiv başlanğıc) və *in* (qadın – passiv) – bu iki başlanğıc dünyanın ikili xarakteristikasını əks etdirir və bu dünyada hər şey əksliklərdən (bir-birinə zidd tərəflərdən) ibarətdir. Bu iki başlanğıc və bunların bir-birinə qarşılıqlı təsiri sayəsində yaranan 5 element – od, su, metal, ağac və torpaq Kainatı yaradıb, onun harmonik mövcudluğunu təmin edir [4].

Lakin müşahidələr göstərir ki, həyatda hər şey harmonik baş vermir, təbiətdə və cəmiyyətdə nizamsızlıq qaçılmazdır. Bu hal, Çin fəlsəfi sisteminə görə, iki başlanğıcdan birinin tarazlığı pozaraq üstünlüyə can atmasıdır.

Bu aspektdə Nitsşedə müəyyən mənada oxşarlıq diqqəti cəlb etsə də, fəlsəfi gəzişmələr fərqli tərəfləri ilə çox maraqlı ontoloji izaha malikdir. Nitşenin fəlsəfi düşüncəsi də hər şeyin iki başlanğıca malik olması qənaətindədir: apollonik (harmonik, aydın, nizamlı) və diosinik (xaotik, tutqun, lakin çox güclü). Belə ki, nizam və harmoniya yalnız güc vasitəsilə yarana bilər (bu yerdə istər-istəməz daha çox faydalı enerji sərfiyyatı yada düşür), çünki bütün həyati prosesi müəyyən edən hakimiyyət əzmidir [4].

Fəlsəfə müşahidələrə, elmi nəzəriyyələrə əsaslanaraq, empirik və aprior olaraq, əsasən, o qənaətdədir ki, entropiya qanunu gerçək bir qanundur, bəlkə də bəşəriyyətin yaratdığı ən möhtəşəm qanunlardan biridir. Berqsonun qeyd etdiyi kimi, bu qanun fizika qanunları arasında ən metafizik qanundur [11].

Hər şey nizamsızlığa meyillidir. Kainatda mükəmməl yarananlar da daima nizamsızlığa doğru hərəkətdədir. Bu baxımdan nizamlı, mükəmməl olanlar entropiyanın azlığından xəbər verirsə də, digər tərəfdən elm Kainatdakı entropiyanın daim artdığını, elmi - epistemoloji yanaşma isə Kainatın zamanla öz sonuna doğru hərəkətdə olduğunu, ”sıfır nöqtəsi”nə yaxınlaşdığını təsdiqləyir.

Belə olan halda, inkişaf, təkamül, evolyusiya kimi proseslər mövcuddurmu, bütün bunlar entropiya qanunu ilə ziddiyyət təşkil etmirmi? Maraqlı və entropiya ilə paradoks yaradan məsələdir. Bir tərəfdən inkişaf qəbul edilir, digər tərəfdən hər şeyin zamanla tükəndiyi iddia olunur. Kainatın hər hansı bir hissəsində inkişafı, nizamlılığı, təkamülü müşahidə etmək ümumən entropiyanın azalması demək deyil. Doğrudur, harda təkamül var, orada faydalı enerji sərfiyyatı çox olduğundan Kainatın bu hissələrində entropiya azalır. Amma bu, Kainatın ümumi entropiyası ilə, yəni digər hissələrdə olan nizamsızlıqla, xaosla (səmərəsiz enerji bolluğu) müqayisədə çox kiçik olur. Bu səbəbdən də qapalı bir sistem olaraq Kainatın entropiyası daima artır.

İnsana da bir sistem olaraq baxsaq, onun həyatının ayrı-ayrı məqamlarında inkişaf bu “sistem”in ümumi entropiyasını azaltmır, həmçinin bütün insanlığın, həmçinin kainatın. Hər bir inkişaf hərəkətdir. Hərəkət isə dəyişmə olaraq zamanla müşahidə olunduğundan ötən hər an “0 nöqtəsi”nə yaxınlaşmaqdır. Bu mənada dəyişmə azalmadır həm də, hərəkət bir vəziyyətdən digərinə keçid olaraq yaranmışın tükənməsinə səbəb olur. Deməli, varlığın mövcud olduğu elə bir an yoxdur ki, o anda ümumi inkişaf baş versin. Çünki inkişaf – hərəkət, dəyişmə olaraq, zamanla müşayiət olunur və keçən hər zaman da sona yaxınlaşma göstəricisidir. İnkişafa hərəkət olaraq fiziki məna versək, o yalnız məsafədir, hansısa nöqtədən aralanmadır. Sadəcə, bu aralanma üzüyuxarı baş verir. Üzüyuxarı hərəkət isə cazibə qüvvəsinin əksinə olduğundan digər istiqamətlərdə olan hərəkətlərə nisbətən daha çətindir. Çətin olduğundan az-az müşahidə olunan vəziyyətdir. Elə bu da onu həm

fiziki, həm də sosial-fəlsəfi mənada fərqli edir və üzüyuxarı hərəkətə "yüksəklik" kimi məna bəxş edir. Müxtəlif sahələrdə uğur qazanan insana da "yüksəldi" – deyirlər.

Əslində, yüksəklik çoxluqdan aralanmaqdır, çoxluqdan azlığa keçiddir. Azlıqda isə təcridolma var. Təklik – azlıqdır, çoxluqdan təcridolmadır. Təklikdə uzun müddət duruş mümkün deyil. Çünki yaradılan özünü digər yaranmışlarla əlaqədə "qurur" və bu qurulma nəticəsində tanıyaraq ifadə edir. Təklikdə bu "qurulma strukturu" pozulur. Ona görə də təklikdə sıxıntı, darıxma var, "özünüifadə" imkanı məhduddur. Bu mənada fiziki yüksəlmə bir aldanışdır, yalnız görüntüdür, əslində, tükənmə, azalmadır.

Epistemoloji yanaşsaq, yalnız idraka xas məziyyətdir "yüksəlmə". Başqa bütün vəziyyətlərdə fiziki hərəkət olaraq hər an enişə hazırdır. Eniş üzüaşağı hərəkətdir, yuvarlanmadır, daha dərinə – zülmətə istiqamətdir. Fiziki yoxolmada üzüaşağı dartınma var, yerə doğru cəzbolunma var. Hətta səmada ölənlər üzüaşağı hərəkət edir – yerə doğru; quş ölümü – ölümə tuş gəldiyi an yer dartır onu özünə sarı. Yarpaq ağacdan ayrıldı – üzüaşağı məhvə məhkumdur. Yerdə daha çox "ölüm qoxusu" var. Varlığı daim yoxolma müşayiət edir, sanki varlıqla yoxluq arasında nazik bir pərdə var və o pərdə hər an dartıla bilər; varlıq yoxluğa, yoxluq varlığa çevrilər. Bu səbəbdən hər bir yaranmışda üzüyuxarı hərəkətə – sıçrayışa, dırmaşmaya, uçuşa qeyri-ixtiyari meyil var. Üzüyuxarı hərəkətdə daimilik gizlənir. Lakin hər bir yaranan fəzanın hansı nöqtəsində qərar tutmasından asılı olmayaraq, varlıq və yoxluq arasındakı nazik pərdədən azad deyil. Yaranmışlar müəyyən məqamlarda müəyyən vasitələrlə yüksəkliyə nail olsa da, yüksəklikdə uzun müddət tab gətirməyə qadir deyil, enişə məhkumdur.

Yalnız idrakda baş verən sıçrayışlar enişə məhkum deyil. İdrakda baş verən yüksəliş dinamikdir, uzunmüddətli, bəzən də əbədi duruşa malikdir. Bu baxımdan yüksək idrakın yaratdığı, bəşəriyyətə bəxş etdikləri qərinələri adlaya bilir. İdrakın yüksəklik – şöhrət bəxş etdiyi varlıq isə fiziki yoxluğa məhkumdur. İdrakın büründüyü pərdədir cisim və hər an dartılmağa hazırdır. Qalan isə, obrazlı ifadə etsək, idrakın yaratdıqlarıdır.

Bəs entropiya nizamsızlıq, tükənmə, dağılma kimi pessimist fikirlər doğurduğu üçün həmişəmi pisdir? Sual bir qədər ritorik xarakter daşısa da, cavab qəti və konkretdir: əlbəttə, yox! Entropiya olmasaydı, onunla mübarizə də olmazdı. Entropiya insan idrakı, onun ozünüdərki qarşısında daşdan bir sərhəddir. O sərhədi dağıtmaqla elmi-fəlsəfi düşüncə üçün yeni yol salmaq mümkündür. Entropiyaya qarşı durmaqla zəkanın və emosiyanın (fəlsəfi fikrin xoş duyğular yaratması) təptəzə məkanları yaranmaqdadır. Entropiya qanunu kəşf olunandan sonra onun ətrafında nə qədər elmi faktlar, elmi nəzəriyyələr doğulub, nə qədər maraqlı fikirlər, o cümlədən fəlsəfi düşüncə şəbəkəsi yaranıb. Təbiətin entropiyasını və entropiyanın təbiətini tədqiq etməklə varlığın mahiyyətini anlamağa bir addım da yaxınlaşmaq mümkündür [10;11].

Entropiya qanununun dərki və onunla mübarizə elmi-fəlsəfi nəzəriyyələrin yaranması ilə xaosdan harmoniyaya keçidin bir formasını yaratmışdır. Harada nizamsızlıq, qeyri-müəyyənlik – ehtimal (təsadüfilik), qeyri-səlislik, qeyri-dəqiqlik varsa, orada nizama və müəyyənliyə – xaosdan harmoniyaya keçidə zərurət var və bu keçidi isə yalnız idrak – qnoseoloji vasitələrlə həyata keçirmək olar.

Məni də entropiya konsepsiyasına sinergetik yanaşmaya, onun elmi-fəlsəfi məqamlarına baş vurmağa və digər elmi sahələrlə, o cümlədən QSÇ nəzəriyyəsi ilə kəsişmə nöqtələrini axtarmağa vadar edən səbəblərdən biri də entropiyanın təzadlı təbiəti və elmin entropiyadan ilhamlanaraq yeni nəzəriyyələr vasitəsilə xaosda harmoniya yaratmasını əsaslandırmaqdır.

İrəli sürdüyümüz tezisin biri ondan ibarətdir ki, kainatdakı bütün varlıqlar, yuxarıda qeyd etdiyimiz kimi, zamanla entropiyanın artması nəticəsində təkcə tükənmir, onlar həm də eyni qanunauyğunluqla təkamül və tükənmədədir. Müxtəlif sahələrdə üzə çıxan təsadüfi prosesləri tədqiq edərkən anlamışam ki, xarakterindən asılı olmayaraq stoxastik davranışa malik bütün sistemlərin (texniki, iqtisadi, sosial və s.) tükənmə qanunauyğunluğu ("0 nöqtəsi"nə hərəkət) sanki eyni funksional ifadəyə malikdir və bu qanunauyğunluq eyni təsadüfi proseslə (funksiya) təsvir oluna bilər. Bu da məndə yeni bir ideyanın və bunun əsasında da Oxşarlıqlar nəzəriyyəsinin yaranmasına səbəb oldu. Bu nəzəriyyənin əsasında dayanan fəlsəfi hipotezləri – "Hər şeyin eyni qanunauyğunluqla təkamül və tükənmədə olması" və "0 nöqtəsinin zəruriliyi" tezislərini əsaslandırmaq məqsədilə təsadüfi proseslər nəzəriyyəsi vasitəsilə qurduğumuz modelə müraciət edək:

*Oxşarlıqlar nəzəriyyəsi: 1. Hər şey eyni qanunauyğunluqla təkamül və tükənmədədir. 2. 0 nöqtəsinin mövcudluğu zəruridir.*

Hipotezləri əsaslandırmaq üçün əvvəlcə ümumi halda stoxastik (ehtimallı) davranışa malik bir sistemə və bu sitemin davranışını təsvir edən təsadüfi (funksiyaya) prosesə nəzər salıb, sonra isə alınan stoxastik modelin müxtəlif hadisələr üçün bir neçə interpretasiyasını verək. Beləliklə, bir növ, əvvəlcə ümumi haldan xüsusi hallara keçirik, sonra isə ayrı-ayrı hallardan induksiya metodu ilə ümumi nəticə alaraq, irəli sürdüyümüz hipotezləri əsaslandırmış oluruq.

Məsələnin qoyuluşu (ümumi halda): Fərz edək ki, stoxastik sistem müşahidə (eksperiment) başlayan zaman hər hansı bir $x_0$ başlanğıc vəziyyətinə malikdir. Fəaliyyəti nəticəsində sistemin səviyyəsi tədricən azalır (tükənmə) və hər hansı bir təsadüfi müddətdən ($\xi_{k,}\ k = 1,2, \ldots$) sonra sistem səviyyəsini hər hansı bir təsadüfi kəmiyyət ($\eta_k, k = 1,2, \ldots$) qədər bərpa edir və ya sıçrayış (təkamül) baş verir. Beləliklə, sistem fəaliyyətini tamamilə başa vurduğu (tamamilə tükənmə) ilk momentə $(\tau)$ qədər bu şəkildə davam etdirir [18].

Stoxastik sistemi təsvir edən təsadüfi funksiyanın (prosesin) - $X(t)$ (t – zaman) realizasiyalarından birini daxil edək:




Yuxarıda qeyd eildiyi kimi, $X(t)$ sistemin davranışını təsvir edən təsadüfi proses olub, sistemin $t$ anındakı səviyyəsini müəyyənləşdirən bir riyazi modeldir. $\tau$ isə prosesin ilk dəfə sıfır vəziyyətini (“0 nöqtəsi”) aldığı momentdir. Bu modeldə $\tau_k$ sistemin k-cı sıçrayış (artım) momenti, $\lambda_k$ sistemin k-cı sıçrayış momentində səviyyəsini ifadə edən kəmiyyətlərdir.

Elm daimi mühərrikin yaradılmasının mümkün olmadığı qənaətindədir. Bu, termodinamikanın qanunlarına ziddir və daimi (əbədi) olaraq öz-özünü mütəmadi hərəkət və enerji ilə təmin edən mexanizm yaratmaq qeyri-realdır. Bu momentin – “0 nöqtəsi”nin qaçılmazlığı isə heç bir daimi mexanizm yaratmağın mümkün olmadığı halda bütün sistemlər üçün zəruridir. Həmçinin entropiya qanunu da tükənmə anının mövcudluğunu təsdiq edir. Elmi qanunlarla yanaşı, bu məsələdə fəlsəfi dünyagörüşün də yeri əvəzsizdir və çox sevdiyim filosoflardan biri A.Şopenhauerin fikrini xatırlatmaya bilmirəm: “Bütün obyektlər necəliyindən asılı olmayaraq öz heçliyindən ayrılmazdır, yəni məhkum olunduğu ölümündən ayrı deyil və bunun da şahidi müəyyən bir müddətə sığan ömrünü udan anlardır. Bu tədrici tükənmə həmin obyektlərlə bağlı bütün hadisələrə də xasdır, hətta hər nəfəsalma belə ölümün gecikməsindən başqa bir şey deyil” [1] .

Daxil etdiyimiz bu model - $X(t)$ çəkilmə-qabarma, azalma-artma, eniş-sıçrayış, tükənmə-təkamül kimi xüsusiyyətlərə malik sistemləri təsvir edən stoxastik modeldir. Əslində, elə bir sistem yoxdur ki, bu xüsusiyyətləri və zamanla təcridi tükənmənin özündə ehtiva etməsin. Belə olan halda, bu modeli həm kainatın, həm də onun bütün sistemlərinin adekvat modeli hesab edə bilərik. Entropiya qanunu, daimi mühərrikin mümkünsüzlüyü və digər bu qəbildən olan elmi prinsip və faktlar öz təsdiqini tapıbsa, alternativ bir modelin təqdim olunması qeyri-elmi və yalnız abstrakt xarakter daşıya bilər. Ona görə bu model də real dünyanın, daha doğrusu, dünyanın real davranışının təsvirlərindən biri olaraq “0 nöqtəsi”nin – tamamilə tükənmə anının mövcudluğunun bir daha elmi təsdiqidir. Aşağıda verilən interpretasiyaların (xüsusi halların) nəticəsində də bu anın zəruriliyinin bir daha şahidi olacağıq.

Bu və digər oxşar modellər stoxastik sistemlər üçün həm də praktik əhəmiyyət kəsb edən bir çox mühüm ehtimal xarakteristikalarını hesablamağa imkan verir: məsələn, sistemin hər hansı andakı səviyyəsinin və ya sistemin sıfır vəziyyətinin riyazi gözləməsini (orta qiyməti), dispersiyasını (orta qiymətdən səpələnmə dərəcəsi) və s. [18].

Qeyd edim ki, belə davranışa malik sistemlər üçün əlavə komponentləri nəzərə alaraq digər adekvat modellər də daxil etmək mümkündür. Amma məqsədimiz bir nümünə üzərində müxtəlif xarakterli hadisələrin (texniki, sosial, iqtisadi və s.) interpretasiyasını verib, onların ümumi bir qanunauyğunluğa tabe olması barədə qnoseoloji nəticə əldə etməkdir.

*İnterpretasiya 1(texniki).* Fərz edək ki, sistem texniki sistemdir və $x_0$ - texniki sistemin müşahidə başlayarkan malik olduğu ilkin vəziyyətini – resursunu ifadə edən kəmiyyətdir. Əgər $\xi_k$ sistemin k-cı imtinaya qədər işləmə müddəti, $\eta_k$ sistemin k-cı cari təmir nəticəsində resursunun qismən bərpasını göstərən kəmiyyət olaraq interpretasiya olunarsa, o zaman $X(t)$ texniki sistemin t anında səviyyəsini – resursunu müəyyən edən bir stoxastik model olacaqdır. Bu halda $\tau$ sistemin resursunun tamamilə sərf olunduğu momenti və yaxud ilk əsaslı təmir müddəti kimi interpretasiya olunur.

*İnterpretasiya 2 (iqtisadi).* Fərz edək ki, müşahidə başladığı zaman ölkədə mövcud sürətli inflyasiyanın səviyyəsi hər hansı bir $x_0$ kəmiyyəti ilə ifadə olunmuşdur. Müəyyən tədbirlər nəticəsində inflyasiyanın səviyyəsində ayrı-ayrı vaxtlarda azalma baş verir və $\xi_k$ k-cı artıma qədər olan müddəti, $\eta_k$ k-cı artımı ifadə edən kəmiyyətdir. Bu halda inflyasiya ilə bağlı stoxastik davranışın funksionallığını təsvir edən $X(t)$ inflyasiyanın t anındakı səviyyəsini müəyyən edən stoxastik model və $\tau$ bu modeldə sürətli inflyasiyanın tamamilə aradan qaldırıldığı moment olacaq.

*İnterpretasiya 3 (sosial).* Epidemiyanın davranışının bu model vasitəsilə təsvirini verək: Fərz edək ki, $x_0$ müşahidə başlayarkən epidemiyanın səviyyəsini ifadə edən kəmiyyətdir. Əgər $\xi_k$ epidemiyanın k-cı sıçrayışa (xəstə sayında artım) qədər müalicə müddəti (bu müddət ərzində xəstə sayında müəyyən azalma baş verir), $\eta_k$ k-cı sıçrayış (artma) səviyyəsini göstərən kəmiyyət olaraq interpretasiya olunarsa, o zaman $X(t)$ epidemiyanın t anında səviyyəsini müəyyən edən bir stoxastik model olacaqdır. Bu halda $\tau$ epidemiyanın (bəzi hallarda növbəti dalğasının) bitməsinin momenti kimi interpretasiya oluna bilər.

Bu modelin köməyi ilə müxtəlif xarakterli digər sistem və hadisələri də təsvir edib, ehtimal xarakteristikalarını hesablamaq mümkündür. Yəni, istənilən stoxastik sistem və hadisələri bu modelin “içinə” qoysaq, modelin “ölçüsü” onları özündə saxlamağa kifayət edəcək. Təbii ki, model eyni olduğundan alınan ehtimal xarakteristikaları da eyni olacaqdır. Təkcə sistem və hadisələrin xarakterindən asılı olaraq onların texniki göstəricilərinin interpretasiyası fərqli olacaqdır ki, yuxarıdakı nümunələrdə buna aydınlıq gətirməyə çalışdıq.

Stoxastik modelin köməyi ilə üç müxtəlif təbiətə malik sistem üçün verdiyimiz təsvir və təhlildən sonra bu altmövzuda əsas məqsədimizə çatdığımızı – “Hər şey eyni qanunauyğunluqla təkamül və tükənmədədir” və “0 nöqtəsinin zəruriliyi” tezislərini təsadüfi proseslər nəzəriyyəsinin köməyi ilə entropiya qanunu konteksində epistemoloji əsaslandırılmış sana bilərik. Hesab edirik ki, bu modelə, kainatın özünə ehtimallı davranışa malik bir sistem olaraq baxsaq, onun davranışını təsvir edən riyazi model olaraq qəbul edib, bu modelin kainatın hər an tükəndiyini – entropiyanın artdığını, “0 nöqtəsi”nin və ya Böyük çöküşün zəruriliyini səciyyələndirdiyini söyləyə bilərik.

**Entropiya qanunu və QSÇ nəzəriyyəsi**

Artıq qeyd etdik ki, entropiya qanunu həm də yeni idrak proseslərinə yol açır; elmi nəzəriyyələr yaranır, zəngin fəlsəfi düşüncə şəbəkəsi formalaşır. Yuxarıda istinad etdiyimiz fizika qanunları, ehtimal nəzəriyyəsi, bu nəzəriyyənin əsasında yaranmış təsadüfi proseslər nəzəriyyəsi və sairə bir çox elmi faktlar və onların doğurduğu fəlsəfi düşüncə sistemini bu fikrin əsaslandırılması üçün nümunələr hesab edə bilərik. Məsələn, təsadüfilik kimi qeyri-müəyyənliyin doğurduğu nizamsızlıq ehtimal qanunauyğunluğunu yaratdı ki, yuxarıda qeyd etdiyimiz kimi, bunun hesabına bir çox elmi nəzəriyyələr yarandı. Təbiətdəki entropiya obyektlərə çoxqiymətli məntiqlə yanaşma zərurətinin doğurduğu qeyri-səlislik, qeyri-dəqiqlik, natamamlıq kimi qeyri-müəyyənliyi – nizamsızlığı adekvat modelləşdirməyə imkan verən daha mükəmməl bir elmi nəzəriyyənin – QSÇ nəzəriyyəsinin, onun əsasında QSM nəzəriyyəsinin, Linqvistik dəyişənlər konsepsiyasının, İmkanlar nəzəriyyəsinin və digər nəzəriyyə və elmi prinsiplərin də yaranmasına əsas olmuşdur. Belə olan halda, entropiya qanununun QSÇ kimi nəzəriyyənin yaradılmasında roluna, həmçinin entropiya qanununun ifadə etdiyi nizamsızlığın bu nəzəriyyə vasitəsilə modelləşdirilməsinə, bir növ, xaosda harmoniyanın yaradılmasına fəlsəfi - qnoseoloji baxış sərgiləmək zərurəti yaranır [14;16;17].

Qiymətləndirilən obyektlərə – mülahizələrin doğruluq dərəcəsinin müəyyənləşdirilməsinə Binar məntiqlə yanaşsaq, ilk baxışda heç bir qeyri-müəyyənlik və yaxud, mövzuya uyğun ifadə etsək, heç bir nizamsızlıq müşahidə olunmur; isti-soyuq, ucuz-baha, cavan-qoca, dost-düşmən, xöşbəxtlik-bədbəxtlik və s. Düşüncə iki qütbə ayrılır və bununla da bir-birinə zidd iki münasibətin doğruluq dərəcəsini iki qiymət – 1(doğru) və 0(yanlış) təyin edir. Bu münasibətdə “Üçüncünün istisna” qanunu ödənilir. Lakin insan düşüncəsi hadisələrə bu şəkildə yanaşırmı? Əlbəttə, çox hallarda yox. Real dünyada hadisələr, obyektlər, əsasən, onlara çoxqiymətli məntiqlə yanaşmanı tələb edir, idrak prosesi bu münasibətdə haçalanır, cox zaman isti olmayanı soyuq, cavan olmayanı qoca, xoşbəxt olmayanı bədbəxt hesab etmir. Bu halda “Üçüncünü istisna” qanunu ödənilmir. Çünki idraki yanaşma isti və soyuq, xoşbəxtlik və bədbəxtlik arasında çoxlu vəziyyətlərin olduğu qənaətinə gəlir ki, bu da obyektə münasibətdə qeyri-müəyyənlik – nizamsızlıq, xaotik vəziyyətin yaranmasına səbəb olur. Obyektə münasibət haçalandıqca, qeyri-səlisliyin oblastı genişlənir, bu genişlənmə hesabına entropiya artır.

İkili məntiqin elmi, elmi-praktik, hətta məişət məsələrində obyektə münasibətdə doğruluq dərəcəsini hər zaman adekvat müəyyənləşdirməməsi elm adamlarını, filosofları düşündürürdü. Beləliklə, üçölçülü məntiq yarandı: doğru və yalan arasında, ümumiyyətlə, bir-birinə zidd iki mülahizə (tezis və antitezis) arasında neytral olan – “başqa cür” məntiqi yarandı. Ardınca üçqiymətli məntiqin ümumiləşməsi – çoxqiymətli (*n-qiymətli)* məntiq yarandı. Qeyd edək ki, çoxqiymətli məntiq nəzəriyyəsi Lukaseviç, Brauver, Post və digər alim və filosofların zəhməti və səyi nəticəsində ərsəyə gəlmişdir. Çoxqiymətli məntiqin hesabına qurulan modellər obyektə münasibətdəki nizamsızlığı – entropiyanı azaldaraq daha adekvat xarakter almağa başladı.

QSÇ nəzəriyyəsi vasitəsilə yaradılan modellərin nizamsızlıqdan nizama keçiddə əhəmiyyəti və sinergetik kontekstdə rolu barədə müəyyən təsəvvür yaratmaq üçün bu məqamda sadə bir nümunə də təqdim etmək yerinə düşər:

*Nümunə*. Fərz edək ki, birrəqəmli (0-dan 9-dək) ədədlər arasından kiçik ədədləri seçmək istəyirik. Əgər adi məntiqlə yanaşsaq, məsələn, 0,1, 2, 3, 4 ədədlərini seçəcəyik və onların hər birinə kiçik deməklə, aralarında heç bir keyfiyyət fərqi göstərilməyəcək və hər bir ədəd kiçik ədədlər çoxluğuna daxil olacaq. Lakin 1 və 3 ədədləri hər ikisi kiçikdir deyilirsə, münasibətdə qeyri-iradi olaraq bir qeyri-müəyyənlik yaranır: bu ədədlər kiçiklik dərəcəsinə görə bir-birindən fərqlənir. Eyni zamanda 4 ədədi kiçikdirsə, onda 5 və yaxud 6 ədədini böyük ədədmi hesab etməliyik? Düşüncədə bu kimi xeyli xaotik fikirlər yaranır. Kiçik ədədlərdən ibarət bir QS çoxluq (A) qursaq, vəziyyəti yaxşı tərəfə dəyişə bilərikmi, yəni yuxarıda rastlaşdığımız qeyri-müəyyənliklərin doğurduğu nizamsızlıqdan qismən də olsa qurtula bilərikmi? Baxaq:

U = (0, 1, 2, 3, 4, 5, 6, 7, 8, 9) universum çoxluğunun *A* qeyri-səlis altçoxluğunu müəyyənləşdirək. Nəzəriyyəyə görə, U-dan hər bir element *A*-ya daxil olacaq, amma fərqli mənsubiyyət dərəcəsi ilə. Ekspert rolunda çıxış edərək, *A* QS çoxluğunu aşağıdakı kimi müəyyənlişdirirəm:

A = {0/1; 1/0.9; 2/0.8; 3/0.7; 4/0.6; 5/0.5; 6/0.4; 7/0.2; 8/0.1; 9/0}

Qeyd edim ki, bu ifadədə kəsrin surətində ədəd, məxrəcində bu ədədin mənsubiyyət funksiyası - *A* çoxluğuna daxil olma dərəcəsi verilmişdir. Artıq mənzərə bir qədər aydınlaşdı. *A* – kiçik ədədlər çoxluğuna daxil olan hər bir ədədin mənsubiyyət funksiyası onların kiçiklik dərəcəsini göstərməklə, həm də keyfiyyət fərqini müəyyənləşdirir. Hər bir ədədin o biri ədədlə həm də keyfiyyət fərqi üzə çıxır. Təfəkkürdə ədədin kiçikliyinə (həm də böyüklüyünə) münasibətdə olan qeyri-müəyyənlik aradan qalxır və bir müəyyənlik yaranır: ədədlərin fərqli dərəcələrdə kiçikliyi ifadə olunmaqla, bir nizam yaradılmış olur. Bu sadə nümunə təbiətdəki entropiya – çoxqiymətli məntiqdən irəli gələn qeyri-müəyyənliyi nizama salmaq üçün bir təfəkkür modelidir. Lakin bu kimi modellər eyni zamanda istinad etdiyi nəzəriyyələr baxımından entropiyanın təbiətini də elmi-fəlsəfi təhlildən keçirməyə vasitə olur. Yəni, təqdim etdiyimiz model nizamsızlıqda bir nizam yaratsa da, modelin özündə də mövcud entropiyanı öyrənməyə ehtiyac yaranır. Çünki bir çox modellərdə, o cümlədən qeyri-səlis modellərdə qeyri-səlisliyin ölçüsünün öyrənilməsi bir çox elmi, elmi-praktik məsələlərdə vacib amillərdən sayılır. Bu göstərici qərarların qəbul edilməsində, informasiya axtarışı ilə əlaqəli modellərdə, obrazların tanınmasında müxtəlif prosedur və alqoritmlərdə və s. sahələrdə keyfiyyət göstəricisini ifadə edən parametrdir. Qeyri-səlisliyin ölçüsü müxtəlif metodlarla öyrənilir: entropiya

vasitəsilə qiymətləndirmə, metrik və aksiometrik yanaşma. Elmi şəkildə əsaslandırılır ki, mənsubiyyət funksiyası, yəni elementin çoxluğa daxil olma dərəcəsi 0.5 olan qiymətdə çoxluqdakı qeyri-səlislik maksimum həddə olur. Doğurdan da, təqdim etdiyimiz modeldə 5 ədədinin mənsubiyyət funksiyasının 0.5-ə bərabər olması, onun digər ədədlərlə müqayisədə kiçik ədəd, yoxsa böyük ədəd olması barədə münasibətin qeyri-müəyyənliyini artırır [6;13;15]. Məhz bu nöqtədə kiçiklik və böyüklüyün dərəcəsi üst-üstə düşdüyündən nizam qismən pozulur, 5 ədədi eyni dərəcə ilə həm böyük, həm də kiçik ədəd anlamını verir. Lakin qeyri-səlis modeldə bu nizam pozulmasının özü də obyektivliyi xarakterizə etdiyindən, keyfiyyət göstəricisi olaraq modelin adekvatlığına xidmət etmiş olur.

Bir sadə qeyri-səlis model vasitəsilə QSÇ və QSM-in, həmçinin bir çox elmi nəzəriyyə və prinsiplərin nizamsızlıqdan nizama keçidi təmin edən elmi vasitə olduğu barədə fəlsəfi-epistemoloji yanaşmanı ümumiləşdirməyə çalışdıq. Doğrudur, istənilən model obyektin özü deyil, lakin QSÇ nəzəriyyəsi kimi möhtəşəm nəzəriyyələr vasitəsilə yaradılan modellər xaosdan harmoniyaya keçidin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu isə tədqiq olunan obyektə münasibətdə insanın fikirlərini daha dəqiq obyektivləşdirməyə, qurulan modelləri elmi-praktik məsələlərdə tətbiq etməyə imkan verir. Sanki səpələnmiş hissəcikləri toplayıb nizama salmaqla, bir yaraşıqlı fiqur yaradırsan; dağınıq materialları – daş, qum, ağac, sement və s. bir yerə yığıb ev tikirsən; idrak və zəhmət hesabına enerjinin faydalı sərfiyyatına nail olmaqla entropiyanı azaldıb, nizam yaradırsan. QSÇ kimi elmi nəzəriyyələrin qüdrəti həm də bundadır. Çünki qeyri-səlis modellər real dünyanın daha adekvat təsvirini verən daha səlis modellərdir.

**Nəticə**

Entropiya qanunu, qeyd olunduğu kimi, kainatdakı nizamsızlığın daima artdığını, kainatın sonunun qaçılmaz olduğunu ifadə edən qanunlardan biridir. Lakin təbiətdəki entropiya eyni zamanda idrak prosesini fəallaşdıran, nizamsızlıqdan nizama keçid məqsədilə elmi nəzəriyyələrin, elmi prinsip və konsepsiyaların yaranmasına səbəb olan bir konsepsiyadır. Entropiya qanunu həm də fəlsəfi dünyagörüş üçün geniş müstəvilər, onu sinergetik prizmada təhlil üçün müxtəlif paradiqmalar yaradır. Bu araşdırmalarımızda da qeyd olunan aspektdən entropiya qanununa fəlsəfi yanaşma sərgilənir, təbiətdəki qeyri-müəyyənliklərin doğurduğu nizamsızlığı elmi nəzəriyyələrin adekvat modelləri, o cümlədən stoxastik və qeyri-səlis modellər vasitəsilə nizamlamağın fəlsəfi əsaslandırılması həyata keçirilir. Təqdim etdiyimiz stoxastik modelin əsasında təsadüfi faktorlara malik müxtəlif xarakterli (texniki, iqtisadi, sosial və s.) bütün sistemlərin eyni qanunauyğunluqla təkamül və tükənmədə olduğu və son momentin – “0 nöqtəsi” nin qaçılmaz olduğu sinergetik aspektdə əsaslandırılır. Eyni zamanda QSÇ nəzəriyyəsinin idrak prosesində qeyri-müəyyənliklərin doğurduğu nizamsızlığı – xaotik vəziyyəti nizamlamağa – harmoniya ilə təmin edilməsində ən mükəmməl modellərin (qeyri-səlis) yaradılmasında elmi aparat olaraq rolu fəlsəfi təhlil olunur. Beləliklə də, QSÇ nəzəriyyəsinin entropiya konsepsiyası kontekstində fəlsəfi təhlili onun real dünyanın nizamsızlığın hökm sürdüyü obyektlərinin daha adekvat təsvirini, təfəkkür modelini yaradan mükəmməl elmi nəzəriyyə oduğunu bir daha təsdiq edir.

**İstifadə olunmuş ədəbiyyat**

1. A.Şopenhauer. Müxtəlif predmetlər haqqında düşüncələr. Qanun 2018.
2. İ.Məmmədzadə, A.Buniyatov. Qeyri-səlis məntiq konsepsiyasının elm fəlsəfəsi konteksində məntiqi-metodoloji əsasları. Bakı – 2021.
3. Stepehen Hawking. Zamanın qısa tarixi. Qanun nəşriyyatı 2018; 2020.
4. Философия. Москва: Эксмо 2019.
5. Готт В.С. Философские вопросы современной физики. М.Высшая школа 1972.
6. А.П.Рыжов. Элементы теории нечетких множеств и ее приложения. Москва 2003.
7. Лютфи Аскер Заде Понятие лингивистической переменной и его применения к принятию приблизительных решений. М., Мир, 1976.
8. Деменок С. Л. Просто Энтропия. Цикл изданий "Фракталы и Хаос". «СТРАТА», 2019.
9. Мартин Н., Ингленд Дж. Математическая теория энтропии. М.: Мир, 1988.

10. Хинчин А. Я. Понятие энтропии в теории вероятностей // Успехи математических наук.1953.

11. Н. Кайтез. Философия энтропии. Негэнтропийная перспектива. Алатейя (СПб) 2019.

12. Пригожин И., Стенгерс И. Порядок из хаоса. Новый диалог человека с природой М., 1986.

13. Рыжов А.П. Степень нечеткости лингивистической шкалы и ее свойства. Изд. Калининского госунив. 1988.

14. Zadeh L.A. Fuzzy logic and approximate reasoning. Synthese, 1975

15. Zadeh L.A., Outline of a New Approach to the Analysis of Complex System and Decision Processes – IEEE Trans, syst, Man. Cybern, vol SMC-3, 1973, Jan, p. 28-44

16. Zadeh.L.A., Fazzy sets. İnformation and control, 1965.

17. Ishikawa A., Mieno H. The fuzzy entropy concepts and its application. Fuzzy Sets and Systems. 1979.

18. A.S. Shukurov. Asymptotic results for a semi-Markov process describing the behavior of some stochastic systems. Informatics and Control Problems 41 Issue 1 (2021).

## ЭНТРОПИЯ И ТЕОРИЯ НЕЧЕТКИХ МНОЖЕСТВ – ОТ ХАОСА К ГАРМОНИИ: СИНЕРГЕТИЧЕСКИЕ АСПЕКТЫ

**Алиширин Шукуров**

**Резюме.** Представлен философский взгляд на закон энтропии. В синергетическом аспекте анализируется роль философии научных теорий, научных принципов и фактов, в том числе теории нечетких множеств в переходе от беспорядка к порядку.

**Цель:** эпистемологический анализ связи между энтропией и теорией нечетких множеств.

**Методология:** закон энтропии и когнитивная философия – синергетика.

**Научная новизна:** эпистемологическое обоснование посредством стохастических моделей увеличения энтропии, регулярности истощения и необходимости момента истощения Вселенной. Роль науки, включая теорию нечетких множеств, в синергетических процессах, связанных с переходом от беспорядка к порядку: философский анализ.

**Ключевые слова:** энтропия, синергетика, эпистемологическая, онтологическая, нечеткое множество, вероятность, логика, функция принадлежности, лингвистическая переменная, случайный процесс, «точка 0».

## ENTROPY AND FUZZY SET THEORY – FROM CHAOS TO HARMONY: SYNERGETIC ASPECTS

**Alishirin Shukurov**

**Abstract.** A philosophical view of the law of entropy has been presented; the philosophical role of scientific theories, scientific principles and facts, including the theory of fuzzy sets, in the transition from disorder to order has been questioned from the aspect of synergy.

**Purpose**: Epistemological analysis of the connection between entropy and fuzzy set theory.

**Methodology**: The law of entropy and cognitive philosophy – synergetic.

**Scientific novelty**: epistemological justification through stochastic models of entropy increase, regularity of depletion and the necessity of the moment of depletion of the Universe. The role of science, including the theory of fuzzy sets, in synergetic processes associated with the transition from disorder to order: philosophical analysis.

**Keywords:** entropy, synergetic, epistemological, ontological, fuzzy set, probability, logic, membership function, linguistic variable, random process, zero point.

**Rəyçi: f.e.d. Füzuli Qurbanov**

**UOT 16:001.12**
**https://doi.org/10.30546/ifs.2024.1(42).034**

# SİLLOGİSTİKA NƏZƏRİYYƏSİNİN FORMAL DEDUKTİV- MƏNTİQİ SİSTEMLƏRDƏ TƏTBİQİNİN XÜSUSİYYƏTLƏRİ

**Pərvanə Yusifova**

doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
*parvina.yusifova@gmail.com*
https://orcid.org 0009–0004–4203–3801

**Xülasə.** Məqalədə Aristotelin məntiq təliminin konseptual-metodoloji təyinatı deduktiv sillogistika nəzəriyyəsi çərçivəsində tədqiq olunur. Aristotelin məntiq təliminin əsas müddəaları “Analitika” əsərində öz əksini tapmışdır. Bu əsərdə Aristotel sillogizmləri deduktiv əqli nəticələrin universal forması kimi xarakterizə edilir.

**Açar sözlər:** məntiq, sillogizm, analitika, subyekt, predikat, mülahizə, mühakimə, əqli nəticə

Məlumdur ki, Məntiq elminin formalaşmasında mühüm mərhələ antik yunan fəlsəfəsi çərçivəsində Aristotelin fəlsəfi-məntiqi yaradıcılığı ilə bağlıdır.

“Müasir məntiq elminin formalaşmasının fəlsəfi-nəzəri və konseptual əsasları” adlı kollektiv monoqrafiyada professor A.R.Buniyatov bu münasibətlə yazır: “Qədim yunan fəlsəfəsi çərçivəsində bütöv elmi-məntiqi biliklər sistemi olmaq etibarilə məntiq elminin təşəkkül tapması Aristotelin elmi yaradıcılığı ilə bağlıdır” [1,s.14].

Daha sonra A.R.Buniyatov Aristotelin Məntiq təliminin səciyyəvi cəhətlərini xarakterizə edərək haqlı olaraq göstərir ki, “Aristotelin məntiq konsepsiyasının əsas qayəsi elmi idrakın metodoloji problemlərinin həlli yönümündə qərarlaşdırılmışdır.”

Aristotelin Məntiq təliminin əsas müddəaları “Analitika” əsərində öz əksini tapmışdır. Əsərin əsas məzmunu əqli nəticələrin geniş, əhatəli, sistemli şəkildə təhlillinə həsr edilmişdir. Belə ki, sözügedən əsərdə Aristotelin məntiq təliminin konseptual-metodoloji təyinatı deduktiv əqli nəticələrin, sillogistika nəzəriyyəsi çərçivəsində tətbiqi ilə bağlıdır. Bu əsərdə Aristotel sillogizmləri deduktiv əqli nəticələrin universal forması kimi xarakterizə edir.

“Analitika” əsərində Aristotel tərəfindən ilk öncə sillogizmlərin 3 fiquru tədqiq olunur. Sillogizmlərin 4-cü fiquru Aristotel tərəfindən sonrakı tədqiqatlarda nəzərdən keçirilir. Aristotelin fikrincə, sillogizmlərdə yalnız 1-ci fiqurda əqli nəticələrin mükəmməl formasını əldə etmiş oluruq.

Orta əsrlərdə Aristotelin yaratdığı möhtəşəm sillogistika nəzəriyyəsi elmi idrakda başlıca isbat metodu qismində nəzərdən keçirilməkdədir.

Aristotel “Analitika” əsərində göstərirdi ki, isbat zahiri ifadəyə deyil, daxili mənaya bağlıdır [3, s. 201].

Aristotelin nöqteyi-nəzərincə, sillogizmlər gnoseoloji təyinatına görə, deduktiv əqli nəticələr əsasında realizə olunan universal məntiqi formalardır.

Aristotelin sillogizmlərin gnoseoloji təyinatına dair formulə etdiyi bu nöqteyi-nəzər, əslində, məntiqə real obyektiv məzmun baxımından yanaşmanın ifadəsi olmaqla, sillogizmlərin gerçəkliyə xas olan ən ümumi cəhətlərinin məntiqi isbatının müqəddəm şərti kimi çıxış etməsini nəzərdə tutur. Bu münasibətlə Aristotel yazır: “isbatdan da öncə biz sillogizmlər haqqında danışmalıyıq. Çünki sillogizmlər daha ümumi səciyyəvidir” [2, s.14].

Aristotelin sillogistika nəzəriyyəsinə görə, elmi-müddəaların isbatı aksiomlara istinad etməklə, deduktiv əqli nəticələr əsasında həyata keçirilməlidir.

Bütövlükdə, Aristotelin sillogistika təliminin ana xəttini həqiqi mühakimələr əsasında həqiqi nəticələrin əldə olunması təşkil etməkdədir.

Aristotelin Sillogistika təliminin əsas məqamlarına dair yuxarıda verilmiş təhlilə istinad edərək sillogistika nəzəriyyəsinin formal deduktiv sistemlərdə tətbiqinin məxsusiyyətlərini nəzərdən keçirək.

Formal məntiqin ən mühüm formalarından biri olan əqli nəticə, yuxarıda da qeyd olunduğu kimi, Aristotel sillogizminin fundamental aparıcı tərkib hissələrindən biri hesab edilir.

Müasir dövrdə elmi ədəbiyyatda əqli nəticəyə digər bir tərif aşağıdakı kimi ifadə olunur:

“Müqəddimə adlanan bir və ya bir neçə mühakimədən alınan yeni mühakiməyə əqli nəticə deyilir” [1, s. 108].

Əqli nəticələrin elmi idrakda rolunu araşdırarkən S.Əliyeva aşağıdakı geniş və əhatəli definisiya formulə edir:

“Ümumidən xüsusiyə doğru çıxarılan əqli nəticə deduktiv, xüsusi müddəalardan alınan ümumi əqli nəticə isə induktiv adlanır.”Deməli, deduktiv əqli nəticə ümumidən, az ümumidən xüsusiyə, təkcə və ayrı olana aparan idraki vasitədirsə, induktiv əqli nəticə xüsusidən, təkcə və ayrı olandan ümumiyə və ya ən ümumiyə aparan idraki vasitədir [1, s.109].

Əqli nəticələrə dair yuxarıda verilmiş bu definisiyalara əsasən əqli nəticənin aşağıdakı tərkib hissələri müəyyənləşdirilir:

1. Əqli nəticənin verilmiş müqəddəm şərtlərində ifadə olunan bilik
2. Əqli nəticənin alınma qaydasında təcəllə edən əsaslandırıcı bilik
3. Əqli nəticənin yekunu qismində çıxış edən çıxarılış biliyi

Əyanilik naminə, əqli nəticəyə dair aşağıdakı misalı nəzərdən keçirək:

Misal: Əgər A B-yə və B isə V-yə bərabərdirsə, onda A V-yə bərabərdir.

Əqli nəticəyə dair baxılan bu misalda “A B-yə bərabərdir” və “B V-yə bərabərdir” ifadələri baxılan əqli nəticənin ilkin müqəddəm şərtləri qismində çıxış etməkdədirlər. Baxılan halda verilmiş misalda çıxarılış qaydası aşağıdakı kimi ifadə olunmaqdadır:

“Əgər iki cisim hər hansı bir əlamətə görə üçüncü bir cismə bərabərdirsə, onda bu cisimlər baxılan əlamətə görə bir-birinə bərabərdirlər”.

Burada çıxarılmış nəticə qismində “A bərabərdir B” ifadəsi alınmış olur.

Qeyd etməliyik ki, əqli nəticə məntiqi təfəkkür forması olmaq etibarilə, müvafiq çıxarılış qaydasına istinad etməklə, verilmiş ilkin biliklərdən yeni biliklərin əldə olunmasını nəzərdə tutur.

Özü-özlüyündə əqli nəticə əsasında hasil olunmuş yeni bilik verilmiş ilkin biliklərdən aşağıdakı xüsusiyyətlər üzrə fərqlənir:

1. Əqli nəticə əsasında hasil olunan yeni bilik verilmiş müqəddəm şərtlərin

hər hansı birində ümumi əlamətlərinə görə xarakterizə olunan predmetlərdən, yekunda məxsusi əlamətlərinə görə səciyyələndirilən predmetlər qismində müəyyənləşdirilir.

2. Əqli nəticə üzrə hasil olunan yeni biliklər əsasında verilmiş müqəddəm

şərtlərin hər hansı birində fərdi, məxsusi əlamətlərinə görə xarakterizə olunan predmetlərdən yekunda ümumi əlamətlərinə görə səciyyələndirilən predmetlərə keçid müəyyən edilir.

3. Əqli nəticə üzrə hasil olunan yeni biliklər əsasında müqəddəm şərtlərdən

məlum olan predmetlərə (predmetlər sinfinə) yekunda yeni əlamətlər şamil etmiş oluruq.

Özü-özlüyündə əqli nəticələrdə baxılan hallarda yekun nəticənin çıxarılış prosesi məxsusi xarakterinə görə aşağıdakı istiqamətlər üzrə realizə edilmiş olur:

- Deduktiv
- İnduktiv
- Traduktiv (analoji)

Əqli nəticələrdə bu istiqamətlər üzrə həyata keçirilən çıxarışları ayrı

ayrılıqda xarakterizə edək.

1. Deduktiv əqli nəticələr

Tərif: Deduktiv əqli nəticələrdə müvafiq nəticənin çıxarışı müəyyən

ümumilik dərəcəsinə malik bilikdən daha kiçik ümumilik dərəcəsinə malik biliyə keçidi nəzərdə tutur.

2. İnduktiv əqli nəticələr

Tərif: İnduktiv əqli nəticələrdə müvafiq nəticənin çıxarışı müəyyən

ümumilik dərəcəsinə malik bilikdən daha geniş ümumilik dərəcəsinə malik yeni biliyə keçidi nəzərdə tutur.

3. Traduktiv əqli nəticələr

Tərif: Traduktiv əqli nəticələrdə müvafiq nəticənin çıxarışı zamanı müəyyən ümumilik dərəcəsinə malik bilikdən eyni ümumilik dərəcəsinə malik yeni biliyə keçid təmin olunur.

Əqli nəticələr tərkibinə görə sadə və mürəkkəb növlərə təsnif olunurlar.

Tərif: Tərkib etibarilə bir neçə sadə əqli nəticədən ibarət olan əqli nəticələrə “mürəkkəb əqli nəticələr” deyilir.

Tərif: Tərkib etibarilə heç bir sadə əqli nəticəyə bölünməyən əqli nəticələrə “sadə əqli nəticələr” deyilir.

Əqli nəticələr müqəddəm şərtlərin sayına görə iki növə bölünürlər:

- bilavasitə əqli nəticələr
- bilavasitə əqli nəticələr

Tərif: Yekun nəticə bir müqəddəm şərt əsasında hasil olduqda, belə əqli nəticəyə “bilavasitə əqli nəticə” deyilir.

Tərif: Yekun nəticə bir neçə müqəddəm şərt əsasında hasil olduqda, belə əqli nəticəyə bilavasitə əqli nəticə deyilir.

Əqli nəticələr məntiqi çıxarış əsasında əldə olunmuş biliyin xarakterinə görə aşağıdakı qaydada təsnif olunurlar:

- ehtimali əqli nəticə
- səhih əqli nəticə

Tərif: Yekunda ehtimali bilik əldə edilməsini təmin edən əqli nəticəyə “ehtimali əqli nəticə” deyilir.

Tərif: Yekunda səhih bilik əldə edilməsini təmin edən əqli nəticəyə “səhih əqli nəticə” deyilir.

Baxılan halda hər hansı bir mülahizənin həqiqiliyini isbat etmək üçün, onun səhih əqli nəticələr əsasında həqiqi müqəddəm şərtlərdən alınması göstərilməlidir.

Yuxarıda əqli nəticələrin təsnifatında bilavasitə və bilavasitə əqli nəticələrin gnoseoloji təyinatı qısa şəkildə nəzərdən keçirildi.

Nəticə etibarilə belə bir məqamı xüsusi olaraq araşdırmaq lazım gəlir ki, biləvasitə əqli nəticə əsasında mülahizələrin müqəddəm şərtlərdə (mühakimələrdə) səciyyəsi əsasında baxılan predmetin yeni cəhətləri və xassələri müəyyən edilmiş olur.

Müasir Məntiq elmində bilavasitə əqli nəticələrin aşağıdakı əsas formaları müəyyən edilmişdir:

- çevrilmə;
- yönəlmə;
- mühakimələrin qarşıdurması.

Bilavasitə əqli nəticələrin bütöv konseptual xarakteristikasını tərtib etmək məqsədilə bilavasitə əqli nəticələrin aşağıdakı baxılan formalarını nəzərdən keçirək:

1. Çevrilmə

Tərif: Bilavasitə əqli nəticələrin çevrilmə formasına nəzərən verilmiş hər hansı bir mühakimədən ona eyniqiymətli, lakin keyfiyyətcə əks mühakimələrin alınması təsbit olunur.

Başqa sözlə desək, baxılan halda iqrari mühakimədən eyniqiymətli inkari mühakimə əldə etmiş oluruq.

Belə ki, bilavasitə əqli nəticələrin çevrilməsi formasında iqrari mühakimələrdə qeyri-aşkar şəkildə ifadə olunan fərqli münasibətlər, həmçinin inkari mühakimələrdə qeyri-aşkar şəkildə müəyyən edilən eyniyyət münasibətləri müəyyən edilir.

Burada bilavasitə əqli nəticələrin tərkibində müqəddəm mühakimələrdə bağlayıcını əks bağlayıcı ilə əvəz edərək, onun predikatını müvafiq tərzdə əks predikat (anlayış) ilə əvəz edirik.

Bilavasitə əqli nəticələrdə çevrilmə mühakimələrinə misal olaraq aşağıdakı simvolik yazılışda ifadə oluna bilər:

Misal: S, P-dir mühakiməsindən S qeyri P deyil almış oluruq. Həmçinin S, P deyil mühakiməsindən S qeyri P-dir mühakiməsi alınır.

Qeyd etməliyik ki, bilavasitə əqli nəticələrdə mühakimələrin çevrilmə proseduru, müqəddəm şərlər (mühakimələr) həqiqi olduqda, (doğru) həqiqi mühakimələrin alınması təmin edilmiş olur.

Bilavasitə əqli nəticələrin daha bir mühüm xüsusiyyəti ondan ibarətdir ki, burada çevrilmə vasitəsilə alınan mühakimələrdən ilkin hökm (mühakimə) alına bilər.

Bilavasitə əqli nəticələrin baxılan xassəsi aşağıdakı qayda şəklində ifadə oluna bilər.

Qayda: Hər hansı bir mühakimənin ikiqat inkarı, müqəddəm hökmün (mühakimənin) iqrarı kimi təsbit olunur.

2. Yönəltmə

Tərif: Bilavasitə əqli nəticələrdə yönəltmə dedikdə, elə yeni mühakimənin alınması nəzərdə tutulur ki, orada predikat əqli nəticənin subyekti, müqəddəm mühakimənin subyekti isə predikat halında çıxış etmiş olur.

Öz növbəsində bilavasitə əqli nəticələrdə yönəltmə aşağıdakı qaydada təsnif olunur:

a) Mənsubiyyət mühakimələrində yönəltmə:

- Bu növ yönəltmədə ümumiqrari mühakimələr “bütün S-lər P-dir”, ancaq P-lər S-dir, məxsusi fərqləndirici mühakiməyə çevrilir.
- Məxsusi iqrari mühakimə məxsusi iqrari mühakiməyə çevrilir.
- Müqəddəm mühakimələrdə predikatda göstərilən predmetin mövcud olub-olmaması müəyyən edildikdə ümumi inkari mühakimələr ya ümuminkari, ya da əlahiddə inkari mühakiməyə çevrilir.
- Məxsusi inkari mühakimələr praktik olaraq çevrilmirlər

b) Daxiledici mühakimələrdə yönəltmə

- Ümumdaxiledici mühakimələr yönəltmədə məxsusi fərqləndirici mühakiməyə çevrilir.
- Məxsusi daxiledici mühakimələr yönəltmədə məxsusi daxiledici mühakimələrə çevrilirlər.

c) Fərqləndirici mühakimələrdə yönəltmə

- Ümumfərqləndirici mühakimələr yönəltmədə ümumfərqləndirici mühakimələrə çevrilirlər.
- Müəyyən məxsusi fərqləndirici mühakimələr ümumi fərqləndirici mühakimələrə çevrilirlər.
- Məxsusi fərqləndirici mühakimələr ümummənsubiyyət mühakimələrinə çevrilirlər.

3. Predikata qarşı qoyma

Predikata qarşı qoyma dedikdə, elə yeni mühakimənin çıxarışı nəzərdə tutulur ki, orada onun subyekti qismində ilkin mühakimənin predikatına zidd olan anlayış, predikat qismində isə ilkin mühakimənin subyekti çıxış etməkdədir.

Baxılan halda ilkin mühakimə ümumiqrari xarakter daşıyırsa, onda nəticədə ümuminkari mühakimə almış oluruq.

Yuxarıda əqli nəticələrin qısa təsnifi və konseptual xarakteristikası şərh olundu.

Bu yönümdə əqli nəticələrə dair verilmiş prinsip və müddəalara əsaslanaraq, sillogizm nəzəriyyəsinin konseptual və metodoloji xüsusiyyətlərini nəzərdən keçirək.

İlk növbədə qeyd edək ki, özü-özlüyündə sillogizmlər bilavasitə əqli nəticələr qismində çıxış etməkdədirlər. Belə ki, sillogizmlərdə çıxarış iki müqəddiməyə istinadən formalaşmış olur.

Eyni zamanda sillogizmlərin digər mühüm xüsusiyyəti onların səhih əqli nəticə qismində çıxış etməsi ilə əlaqədardır.

Belə ki, sillogizmlərin bu şərh olunan xüsusiyyətləri çərçivəsində belə bir mühüm nəticə hasil olunur ki, sillogizmlərdə müqəddimələr doğrudursa, onda müvafiq səhih çıxarış qaydalarını tətbiq etməklə, doğru nəticələr əldə etmiş oluruq.

Özü-özlüyündə sillogizmlərin xarakterik cəhəti ondan ibarətdir ki, burada sillogizmlərin tərkibinə daxil olan mühakimələr yalnız ümumi səciyyə daşımış olurlar.

Belə ki, baxılan halda, sillogizmlərin özündə ehtiva etdiyi mühakimələr iki hal üzrə nəzərdə keçirilir.

I halda sillogizmlərin tərkibinə daxil olan mühakimələr hər hansı bir əlamətin baxılan predmetə malik olub-olmamasını iqrar və ya inkar edir.

II halda isə müvafiq olaraq sillogizmlərin tərkibinə daxil olan mühakimələrdə, baxılan predmetlərin fərqli və ya eyni səciyyə daşıması müəyyən edilir.

Nəticə etibarilə, sillogizmlərdə bütün hallarda həm onun tərkibinə daxil olan mühakimələr, həm də yekun nəticə adi mənsubiyyət mühakimələri qismində çıxış etmiş olurlar.

Sillogizmlərin məna etibarilə ümumi səciyyə daşıyan bu verilmiş xüsusiyyətlərinə istinad edərək, onun struktur xüsusiyyətlərini nəzərdən keçirək.

Sillogizmlərin qnoseoloji tərkibinə dair yuxarıda verilmiş şərhdən göründüyü kimi, baxılan halda sillogizmlərdə istifadə olunan anlayışların qnoseoloji təyinatı mühüm rol oynayır.

Sillogizmlərin tərkibində istifadə olunan anlayışların qnoseoloji təyinatını araşdırmaq məqsədilə aşağıdakı tərifi formulə edək:

Tərif: Sillogizmlərin tərkibinə daxil olan anlayışlar “terminlər” adlanır.

Tərif: Sillogizmlərdə yekun nəticənin subyekti “kiçik termin” adlanır və S hərfi ilə işarə olunur.

Tərif: Sillogizmlərdə yekun nəticənin predikatı “bazis termin” adlanır və P hərfi ilə işarə olunur. Baxılan halda, həm kiçik, həm də böyük terminlər “kənar terminlər” adlanır.

Sillogizmlərdə hər iki müqəddiməyə daxil olan, lakin yekun nəticəyə daxil olmayan, böyük və kiçik terminlər arasında əlaqələndirici rol oynayan terminlərə “orta terminlər” deyilir.

Sillogizmlərdə orta terminlər M hərfi ilə işarə edilir.

Baxılan halda, orta terminlərlə kənar terminlər arasında əlaqələrin mövcudluğu əsasında kənar terminlər arasında müəyyən münasibətlər qərarlaşmış olur.

Sillogizmlərin tərkib elementlərinin struktur-funksional xarakterinə dair yuxarıda verilmiş şərhə əsaslanaraq sillogizmləri aşağıdakı şəkildə formulə edə bilərik:

Bütün M-lər P-dirlər, S, M-dir. Onda S, P-dir.

Burada böyük terminin daxil olduğu müqəddimə isə “kiçik müqəddimə” adlanır.

Sillogizmlərə dair yuxarıda şərh olunan məxsusiyyətlərə istinad edərək, yekunda aşağıdakı tərifi formulə edə bilərik:

Tərif: Sillogizm dedikdə, elə səhih əqli nəticə nəzərdə tutulur ki, orada kənar terminlər arasında olan müqəddimələrin orta terminlərə münasibəti əsasında yekunda müvafiq əlaqə yaradılmış olsun.

Sillogizmlərə dair yuxarıda verilmiş tərifdən göründüyü kimi, sillogistik əqli nəticələrin əsasında baxılan predmetlərin və ya predmetlər sinfinin uyuşqanlığı və ya uyuşmazlığı orta termin vasitəsilə həyata keçirilir.

Nəticə etibarilə, sillogistik əqli nəticələrdə predmetlər və ya predmetlər sinfi arasında birləşmə və ya ayrılma münasibətləri qərarlaşmış olur.

Belə ki, eyni bir P xassəsinə malik olan predmetlər eyni bir sinfə mənsub olduğu halda, P xassəsinə malik olmayan predmetlər müxtəlif siniflərə paylanmış olurlar.

Baxılan halda bu iki sinfin predmetlərindən biri digəri ilə tam və ya qismən üst-üstə düşdükdə və ya fərqləndirdikdə müvafiq olaraq həmin siniflər tam şəkildə və ya qismən üst-üstə düşmüş və ya düşməmiş olurlar.

## İstifadə olunmuş ədəbiyyat

1. Müasir məntiq elminin formalaşmasının fəlsəfi-nəzəri və konseptual əsasları, Bakı, 2018
2. Aristotel. Analitika. Birinci kitab. 1.7.
3. Aristotel.Analitika. İkinci kitab. 1.10.
4. Богаров Б.А., Чаркин Б.И. ”Основы логики” М. 1997
5. Винделбанд В. История древней философии. Киев, 1995
6. Витгенштейн Л. Логико - философский трактат. М, 1971
7. Карри Х.Б. Основания математической логики. М., 1969.
8. Кулизаде З. Четко-нечеткое постижение логики бытия. Баку, 2017.
9. Маковельский А.О. История логики. М, 1967
10. Никифоров А.Л. Книга по логике. *М.,* 1995.
11. Никифоров А.Л. От формальной логики к истории науки. *М.*, 1983.
12. П.С.Новиков. Элементы математической логики. –М.: Наука, 1973.
13. Петнанова А.Д. Логика. М., 1998.
14. Попский Д.П. Логика. М.,1963.

15. Рассел Б. История западной философии. М., 1976.
16. РжегорчикА. Популярная логика. М., 1979.
17. Светлов В.А. Логика. Питер, 2006

## ОСОБЕННОСТИ ПРИМЕНЕНИЯ ТЕОРИИ СИЛЛОГИСТИКИ В ФОРМАЛЬНЫХ ДЕДУКТИВНЫХ ЛОГИЧЕСКИХ СИСТЕМАХ

**Парвана Юсифова**

**Резюме.** В данной статье рассматривается методологическое предназначение логической концепции Аристотеля, названная «Теорией силлогизмов». Концепция силлогистики представлена, в основном, в логическом произведении Аристотеля «Аналитики».

В статье дается дедуктивное умозаключение Концепции Силлогистики Аристотеля, которая была реализована в универсальной «специфичной» форме.

**Ключевые слова:** логика, силлогизм, аналитика, субъект, предикат, сказуемое, рассуждение, суждение, вывод

## THE FEATURES OF THE APPLICATION OF SYLLOGISTICS THEORY IN FORMAL DEDUCTIVE LOGICAL SYSTEMS

**Parvana Yusifova**

**Abstract.** In the reviewed article, the conceptual-methodological definition of Aristotle's teaching of logic has been studied within the framework of the theory of deductive syllogistics. The main provisions of Aristotle's teaching of Logic have been reflected in the work "Analytics". The main content of the work has been devoted to a broad, comprehensive and systematic analysis of mental conclusions. Thus, the conceptual-methodological determination of Aristotle's teaching of logic in the mentioned work is related to the application of deductive mental conclusions within the framework of the theory of syllogistics. In this work, Aristotel syllogisms have been characterized as a universal form of deductive reasoning.

**Keywords:** logic, syllogism, analytics, subject, predicate, reasoning, judgment, mental conclusion

**Rəyçi: prof. Arif Buniyatov**

SİYASİ ELMLƏR: NƏZƏRİYYƏ VƏ REALLIQLAR

**УДК 32**
**https://doi.org/10.30546/ifs.2024.1(42).037**

# АЗЕРБАЙДЖАНО - РОССИЙСКИЕ ОТНОШЕНИЯ: ОСНОВНЫЕ ТЕНДЕНЦИИ РАЗВИТИЯ

**Гюнель Меликли**
доктор философии по политическим наукам, доцент
Институт Философии и Социологии НАНА, **Азербайджан**
gunelmelikli88@gmail.com
https://orcid.org/0009-0000-6154-0009

**Резюме.** В условиях, когда политические процессы, происходящие в мире, сложны по форме и противоречивы по содержанию, характерные черты реализуемой политики имеют очень важное теоретическое и в то же время практическое значение.

Гейдар Алиев, возглавляющий независимый Азербайджан сыграл важную роль в установлении дружественных отношений с Россией, заложил основы стратегического партнерства между двумя странами.

Современные российско-азербайджанские отношения базируются на прочном фундаменте (таком как дружба, взаимопонимание, взаимная поддержка, целеустремленность) и являются одним из направлений политической стратегии президента Азербайджана Ильхама Алиева.

**Ключевые слова:** наука, международное отношение, культура, туризм, экономические отношения

Наука в различные времена по-разному находится в поиске истины, по существу, обосновывает реальность, которая становится неотъемлемой частью понимания мира. По мнению известного арабского философа Аль-Фараби: «Государство – это общество людей, которые объединяются для общего блага …идеальное государство построено по божественным законам, его граждане должны быть полностью счастливы».

Возникает сложнейшая и до сих пор неразрешимая проблема, и вопросы с неоднозначными ответами… Как относятся элиты к науке и какую роль отводят науке? Как к этой реальности относятся высшие классы?

Наука, как понятие, имеет свое содержание, которое меняется, имеет свои выходы в сферу применения (в том числе отношения со сферой сознания, идеологии, общественной сферой в целом). В настоящее время каждое государство создает национальную систему и национальную стратегию, определяющие политико-социальную, научно-культурную деятельность, а также определяющие характер и последовательность работ по воспроизводству этой системы. В условиях, когда политические процессы, происходящие в мире, сложны по форме и противоречивы по содержанию, характерные черты реализуемой политики имеют очень важное теоретическое и в то же время прикладное значение.

Курс, направленный на модернизацию Азербайджанской Республики, требует от научного сообщества раскрытия и понимания причин глубоких изменений, произошедших в мировой экономике, международных отношениях и культуре страны в период глобализации. Раскрытие и понимание причин этих изменений дает мощный импульс развитию модернизационных процессов.

Проблема лидерства в настоящее время, именно в периоды системных социокультурных и политических трансформаций, становится одной из самых актуальных. Причем необходимо отметить, что период трансформаций на сегодняшний день происходит не только в какой-нибудь определенной стране, но в целом мире и связан с назревшей потребностью коренного изменения мирового порядка [1].

Отдельные исследования феномена лидерства часто строятся на своеобразных и порой даже взаимоисключающих принципах и подходах. Поэтому крайне важно обратиться к сущностному аспекту изучения проблемы лидерства и определить место лидерства, силу воздействия на системы научных и философско-политических категорий.

Президент Азербайджана Ильхам Алиев признал, что нельзя бесконечно эксплуатировать в пропаганде исторические победы, надо думать о будущем, цели которого необходимо сформулировать в новой национальной идее. «Мне бы хотелось, чтобы дискуссии по вопросу нашей основной национальной идеи и представлений относительно нашего будущего развития происходили и в обществе — среди политиков, политологов, ученых, представителей интеллигенции. То есть какими должны быть основные национальные идеи в связи с нашим будущим развитием. Это должно быть темой общественных обсуждений», - отметил в своем выступлении президент. Это направление - очень верный стратегический ресурс Ильхама Алиева, его предложение к дискуссии свидетельствует о силе воздействия его идей не только в важное время, тут к месту будет отметить, что национальная идея, наука и идеология, становятся весьма сложным конструктом, и нужны совместные усилия лидера и ученых для того, чтобы выявлять что-то новое, стратегическое в развитии страны [2].

Сознание общества важный ресурс в исследованиях общественных наук, его так называемое прикладное значение. Нередко в философии спорят по поводу того, что есть прикладная философия, политология и социология; их прикладной характер, как они воздействуют на сознание элит, общества в целом, как измеряются. Эти вопросы исследуются, как в азербайджанской философско-политической литературе, так и в российской [3]. Анализ книги профессора Ильхама Мамедзаде свидетельствует еще и о том, что в развитии исследований особую роль обеспечивает диалог между учеными различных стран, что определенно ведет к инновациям и утверждению новых подходов. Инновация – это система научных, научно-технических и интеллектуальных потенциальных действий, направленных на получение новых и усовершенствованных не только товаров и услуг, но и идей, и новых форм способов их производства для удовлетворения спроса на инновации в обществе, а также спроса общества на них. Понятно, что для диалога ученых необходима политическая воля, а также дипломатические шаги.

Дипломатические отношения между Азербайджанской Республикой и Российской Федерацией были установлены на основании соответствующего протокола, подписанного в Баку 4 апреля 1992 года. Согласно этому протоколу, посольство России в Баку официально начало работу 25 сентября 1992 года. Основным документом, формирующим договорно-правовую базу двусторонних отношений, является Соглашение «О дружбе, сотрудничестве и взаимной безопасности», подписанное 3 июля 1997 года между Российской Федерацией и Азербайджанской Республикой. С момента установления дипломатических отношений между Азербайджанской Республикой и Российской Федерацией подписано более 200 двусторонних документов о дружбе, сотрудничестве и безопасности [4].

Мощный импульс всестороннему развитию российско-азербайджанских отношений дали визиты глав государств начиная с 2008 года. В ходе очередного делового визита в Азербайджан Президента России Владимира Путина 8 августа 2016 года Президент Азербайджана Ильхам Алиев сказал: «Частые встречи, конечно, придают новый импульс развитию наших отношений. Эти отношения, уже давно вышедшие на уровень стратегического партнерства, охватывают практически все сферы нашей жизни. Мы активно взаимодействуем на международном пространстве, активизируется политический диалог, укрепляются экономические связи, есть хорошие результаты в сфере транспорта и энергетики, развивается гуманитарное сотрудничество» [5]. В ходе встреч Президента Азербайджанской

Республики Ильхама Алиева с Президентом Российской Федерации Владимиром Путиным был затронут и обсужден ряд важных моментов, связанных с развитием двусторонних отношений [6]. Следует отметить, что Россию и Азербайджан связывают многовековые традиции дружбы, общая история и культура, где переплетены судьбы миллионов людей.

Инновационная структура экономики считается одним из основных требований современного общества. Итак, по мере модернизации и изменения спроса групп, охватывающих все слои общества, меняются и формы производства и представления предоставляемых им товаров, и услуг. Улучшение экономической структуры постоянно обновляется во времени. В целом экономика – это область, которая служит сохранению и укреплению принципов экономического развития любого государства, поддержанию баланса между производственным и непроизводственным сектором, повышению экономической активности граждан. Одной из основных задач экономики является увеличение экономической мощи государства. Но экономика сказывает серьезное воздействие и на развитие науки, обеспечивая бюджет, выделяемый на её развитие. Поэтому, когда мы анализируем основные тенденции развития в азербайджано-российских отношениях, то в основе всего фундамента оказываются экономические связи, а они по всем направлениям растут неудержимо. Однако в философско-политическом контексте важно выделить темы имеющие концептуальное значение.

Развитие экономических отношений между Россией и Азербайджаном зависит от реальности, от ряда глубоких факторов, условий и здесь возникает сфера философского и политического сознания как понятия создающего, описывающего и трансформирующего эту реальность. Понятно, что преимущественно речь идет о том, как эту реальность создают лидеры государств (это то, что относится к государственной мысли обоих государств, представлений лидеров о союзнических отношениях) и лишь затем то, что называется «дружеские традиции память, восприятие сторон элитами».

Сотрудничество в сфере нефти и газа является традиционным и очень важным звеном экономических отношений между Азербайджаном и Россией. Еще одним важным направлением успешного экономического сотрудничества между Азербайджаном и Россией является электроэнергетический сектор. Положительно оцениваются интеграция энергетических сетей двух стран и ее практические результаты. Существует широкий потенциал для углубления сотрудничества между двумя странами в сфере туризма. Туристические маршруты Азербайджана набирают все большую популярность в России. Особое место в двусторонних отношениях занимает продвижение туристического потенциала российских регионов в Азербайджане, и в то же время Азербайджан, приобретает большую известность в России как важная туристическая зона. Особый вклад в динамичность отношений вносит установление дружественных отношений между регионами России и регионами Азербайджана, осуществление взаимных визитов. Было выражено удовлетворение развитием транспортного коридора «Север-Юг», расширением его потенциала и общим увеличением объёмов грузоперевозок по этому маршруту как железнодорожным, так и автомобильным транспортом.

Отношения между двумя государствами не ограничиваются только политическим и экономическим уровнем. Поддержка и развитие русского языка, как языка межнационального общения в нашей стране, деятельность Славянского университета в Баку, в том числе внимание, уделяемое Русской Общине Азербайджана, всегда высоко ценилось руководством Российского государства. Кроме того, условия, созданные для взаимного обучения молодежи двух стран в России и Азербайджане, считаются одними из важнейших приоритетов в межгосударственных отношениях (в российских вузах учатся более 15 тысяч граждан Азербайджана) [7].

Следует отметить что, помимо этого в Баку с 2009 года успешно функционирует филиал Московского государственного университета имени М.В. Ломоносова. Так же успешно вносит свой вклад в развитие медицинского образования в Азербайджане, филиал Первого Московского государственного медицинского университета имени И.М. Сеченова. В

Азербайджане в 340 школах имеется русский сектор, действуют 18 школ с русским языком обучения. Самая большая Русская Община на Южном Кавказе находится в Азербайджане.

Вице-президент Фонда Гейдара Алиева Лейла Алиева подчеркивала, что, российско-азербайджанские отношения имеют глубокие исторические корни и успешно развиваются сегодня. «Азербайджанский народ бережно хранит традиции культурного, гуманитарного сотрудничества с Россией, - отметила она, - памятник гениальному русскому поэту Александру Сергеевичу Пушкину установлен в центре Баку, как символ глубокого уважения азербайджанского народа к великой русской культуре, литературе, искусству» [8].

Являясь председателем Азербайджанской молодежной организации России, вице-президент Фонда Гейдара Алиева Лейла Алиева регулярно проводит мероприятия среди азербайджанской молодежи, проживающей в России по интеграции в общество и по обеспечению культурного, гуманитарного, физического развития.

Еще в 1993 году Гейдар Алиев, возглавляющий независимый Азербайджан сыграл важную роль в установлении дружественных отношений с Россией, заложил основы стратегического партнерства между двумя странами. Как председатель Верховного Совета Азербайджанской Республики Гейдар Алиев в своем первом выступлении на заседании Милли Меджлиса 15 июня 1993 года прокомментировал важность установления отношений между двумя странами: «Россия – очень большая страна, она наш северный сосед. Несомненно, отношения между Россией и Азербайджаном на основе независимых принципов должны быть лучше, шире и эффективнее» [9].

Добрососедское отношение России было видно и во время Второй Карабахской войны, завершившейся нашей исторической победой. Именно Россия инициировала подписание Трехсторонней декларации 10 ноября 2020 года и стала одной из сторон соглашения. Очередным выражением дружественных отношений между двумя странами стала деловая поездка президента Ильхама Алиева в Москву по приглашению президента России Владимира Путина. «Сегодня отрадно, что современные российско-азербайджанские отношения базируются на прочном фундаменте, таком как дружба, взаимопонимание, взаимная поддержка и целеустремленность, - отметил на встрече глава государства Ильхам Алиев, - в настоящее время существуют двусторонние отношения между Россией и Азербайджаном, которые находятся на самом высоком уровне и развиваются день ото дня» [10].

## Использованная литература


**1.** И.Мамедзаде От кризиса к взаимодействию культур и будущему миропорядку в кн. Философие взаимодействие культур и новый Щелковый путь. Баку 2020, «Алманах» с.8-9

2. Мамедзаде И, Перспективы нашей идентичности "br.az"

3. Ильхам Мамедзаде Философия о современности, истории и культуре (О контурах историко-культурной эпистемологии) Баку 2020

4. Философия, ее предмет и роль в жизни человека \ https://www.google.com/search?q=%D0%9A%D0%B0%D0%BA+%D0%B8%D0%

**5.** Азербайджано-российские отношения\https://ru.wikipedia.org/wiki/%D0%-90%D0%B7%D0%B5%D1%80%D0%B1%D0%B0%D0%B9%D0%

6. Началась встреча Президента Азербайджана Ильхама Алиева с председателем Правительства России в расширенном составеhttp://www.anl.az/down/meqale/bakraboc-hiy/2022/noyabr/826151.htm

7. Шукуров К. Эпоха Ильхама Алиева в истории Азербайджана https://xalq-qazeti.az/az/siyaset/169225-azerbaycan-tarixinde-ilham-eliyev-epoxasi

8. Вице-президент Фонда Гейдара Алиева Лейла Алиева награждена медалью "За заслуги перед Волгоградской областью\https://azertag.az/ru/xeber/vice_prezident_fonda_gei-dara_alieva_leila_alieva_nagrazhdena_medalyu__quotza_zaslugi_pered_volgogradskoi_oblastyu_q

9. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri (2-4 iyul 1997-ci ilhttp://lib.aliyevheritage.org/az/20634858.html

10. Альянс, основанный на прочном фундаменте\ https://www.azerbaijan-news.az/az-/posts/detail/mohkem-temele-esaslanan-muttefiqlik-1713913335

11. Мамедзаде И. Азербайджан: от стабильности к модернизации\https://old.-xalqqazeti.com/az/news/social/5856

12. Мамедзаде И. О философии: современные подходы, тенденции и перспективы. Баку: Текнур, 2011\http://ejsr.orgfiles/arxiv/Jurnal_Nomre_1_2017/1.JSIT-1-7-20.pdf.

13. Мамедзаде И. Феномен патриотизма национального лидера, Газета «Халг».- 2009.- 9 мая.- с. 3.

14. Маликли Г Проблемы изучения политологии в вузах Социосфера Москва 2010 №1 s.56-62

15. Маликли Г Сущность и историческое развитие государственности // «Вопросы истории» ежемесячный журнал, Москва: 2020, №5, с.110-118.

## AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ: İNKIŞAF MƏRHƏLƏLƏRİ VƏ MEYİLLƏRİ

**Günel Məlikli**

**Xülasə.** Dünyada baş verən siyasi proseslərin formaca mürəkkəb və məzmunca ziddiyyətli olduğu şəraitdə həyata keçirilən siyasətin xarakterik cəhətləri çox mühüm nəzəri və eyni zamanda praktik əhəmiyyət kəsb edir.

Müstəqil Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında mühüm rol oynamış, iki ölkə arasında strateji tərəfdaşlığın əsasını qoymuşdur.

Müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və qətiyyət kimi möhkəm təməllər üzərində qurulub və Azərbaycan Prezidenti İlham Əliyevin siyasi strategiyasının istiqamətlərindən biridir.

**Açar sözlər:** elm, beynəlxalq əlaqələr, mədəniyyət, turizm, iqtisadi əlaqələr.

## AZERBAIJANI - RUSSIAN RELATIONS: STAGES AND TRENDS OF DEVELOPMENT

**Gunel Malikli**

**Abstract.** In conditions when the political processes taking place in the world are complex in form and contradictory in content, the characteristic features of the policy being implemented are of very important theoretical and at the same time practical significance.

Heydar Aliyev, who began to lead independent Azerbaijan, played an important role in establishing friendly relations with Russia and laid the foundations for a strategic partnership between the two countries.

Modern Russian-Azerbaijani relations are based on a solid foundation such as friendship, mutual understanding, mutual support and determination and are one of the directions of the political strategy of Azerbaijani President Ilham Aliyev.

**Keywords:** science, international relations, culture, tourism, economic relations

**Rəyçi: f.e.d., prof. İlham Məmmədzadə**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2024.1(42).040**

# AZƏRBAYCAN — CƏNUBİ QAFQAZDA VƏ XƏZƏRYANI BÖLGƏDƏ YENİ REALLIQLARIN AKTORU KİMİ

**Əsədullah Süleymanov**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Dəniz Akademiyası, **Azərbaycan**
https://orcid.org-009-0005-2595-1110

**Xülasə.** XXI əsrin ötən onilliklərində Qafqazda gedən siyasi proseslər güc mərkəzlərinin və region ölkələrinin xarici siyasətində yeni hədəflər müəyyən edib. Tam əsasla deyə bilərik ki, bu proses Azərbaycanın ağıllı gücü ilə müəyyən olunmuş yeni siyasi aktorluq amilini reallaşdırıb. Çünki inkişafın və əməkdaşlığın ən etibarlı konsepsiyası məhz Azərbaycandan başlayan siyasi iradə, ideoloji müdriklik, mütərəqqi ideyalar və nəhayət, möhkəm dövlətçilik təməlləri ilə bərqərar olmuşdur. Ona görə də həm Cənubi Qafqazda, həm də Xəzər bölgəsində Azərbaycan siyasi aktorluğu ələ almaqla, həm də dövlətlərin inkişaf strategiyasında nümunə rolunu oynamışdır. Bu baxımdan məqalə xüsusi aktuallıq və əhəmiyyət kəsb edir.

**Açar sözlər:** geosiyasət, dövlət, milli maraqlar, Cənubi Qafqaz, sabitlik, Xəzər hövzəsi, nəqliyyat dəhlizləri, enerji resursları

**Giriş.** Yeni reallıqlarda regional əməkdaşlıq platformasının yaradılması Azərbaycanın geosiyasi maraqlarının prioritet istiqamətlərindəndir. Əslində, Sovet İttifaqının dağılmasından sonra dövlətlərarası münasibətlər sistemində yeni baxışlar və yeni tələblər meydana çıxmışdır. Fikrimizcə, bu zərurət yeni dünya nizamında daha çox coğrafi qonşuların qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı məsələsi fonunda daha böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Bizi dünyanın ən həssas geosiyasi mövqeyə malik regionlarından olan Cənubi Qafqazda gedən proseslərin, xüsusilə Azərbaycanın maraqlarında birləşən hadisələrin düşündürməsi tam təbiidir. Tarixən bu coğrafiyada regional və qlobal güc mərkəzlərinin maraqları toqquşub. Qafqazda yeni əməkdaşlıq münasibətləri Sovet İttifaqının dağılmasından sonra yaranmağa başlasa da, Ermənistanın təhlükəli siyasi addımları hərtərəfli və çoxşaxəli əməkdaşlıqdan danışmağa imkan verməmişdir. Bu isə, ilk növbədə, Ermənistanın, demək olar ki, bütün qonşularına qarşı əsassız ərazi iddiaları ilə çıxış etməsinin nəticəsidir. Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarına, Türkiyənin Anadolu bölgəsinə, Gürcüstanın isə Cavaxetiya regionuna iddia etməsi Qafqazlarda sabitliyin yaranmasını əngəlləyən əsas faktor kimi, çoxtərəfli əməkdaşlıq layihələrindən onu təcrid etmişdir.

Azərbaycan Cənubi Qafqazda və Xəzəryanı bölgədə yeni reallıqların aktoru kimi özünün strateji xəttini müəyyənləşdirdiyindən deməliyik ki, regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarı, iştirakçısı və aktorudur. Gedən proseslərin nəticəsi göstərdi ki, belə formatlar regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin inkişafı, birgə layihələrin həyata keçirilməsi baxımından regiona dividend gətirdi, əməkdaşlığı çoxtərəfli formata keçirdi və əhəmiyyətli təşəbbüslər üçün yollar açdı. Buna sübut kimi, Xəzəryanı dövlətlərin su sərhədlərinin razılaşdırılması haqqında imzalanan müqaviləni, Ermənistanın təcavüzkar ölkə kimi dünyada ifşa olunması və Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq platformasında Cənubi Qafqazdan əlavə, Xəzər-Qara-Aralıq dənizi hövzələrini birləşdirən strateji bölgədə vahid iqtisadi məkanın yaradılması siyasətini göstərmək zəruridir.

**Azərbaycan Cənubi Qafqazda yeni reallıqların aktorudur**

Bu gün Cənubi Qafqaza dair aparılan tədqiqatların əksəriyyətində 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlaması və bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizinin Ermənistan tərəfindən zəbt edilməsi, 1 milyondan çox azərbaycanlının öz doğma torpağından didərgin salınması, Ermənistanın Azərbaycana

qarşı soyqırımı törətməsi əsas təhlil mövzusudur. Məlumdur ki, beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləsə də, məsələ öz həllini ona görə tapmırdı ki, dünyada sülhə və ədalətə münasibət qeyri-formal olaraq beynəlxalq hüququn prinsiplərindən kənarda idarə olunurdu. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum 4 qətnamənin də yerinə yetirilməməsi, Ermənistanın danışıqlardan imtina etməsi, Ermənistan rəhbərinin "Qarabağ Ermənistandır və nöqtə" deməsi ilə sülhə zərbə vurması faktiki olaraq dünyada ədalətsizliyin himayə olunduğu kimi bir tendensiyanı üzə çıxarmışdı. Məhz bu zəruri qlobal məsələlərin dünyaya təhlükə mənbəyi olmasından, onun qarşısının alınması istiqamətində beynəlxalq birliyin fəaliyyətsizliyindən narazı qalan Azərbaycan dövləti yaratdığı yeni reallıqlarla sabitliyin, təhlükəsizliyin təmin olunması üçün öz konsepsiyasını irəli sürərək onu dünyadakı narahat regionlarda sabitlik üçün tətbiq olunacaq nümunəyə çevirdi. Türkiyə və Rusiyanın regiondakı sabitləşdirici rolunu yüksək dəyərləndirən Azərbaycan bu dövlətlərlə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığın prinsiplərini balanslaşdıraraq elə tətbiq etmişdır ki, o regionda həmin ölkələrin sülhə dair potensialının yüksək dərəcəsini müəyyənləşdirmişdir. İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bəli, biz regional əməkdaşlıq platformasına dair Türkiyə Prezidentinin təklifini dəstəklədik. Ermənistan hələ ki, cavab verməyib. Görürsünüz, Ermənistan yenə də qeyri-konstruktiv mövqe sərgiləyir. Lakin biz bu təklifi tam dəstəkləyirik. Bu, nəinki müharibədən sonrakı məsələlərə, eləcə də ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək. Çünki əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək" **(1).** Təbii ki, Birgə əməkdaşlıq kommunikasiyaların açılmasına zəmin yaradır, region ölkələri arasında ticarət dövriyyəsini artırır, regionun gərginlik məkanından sabitlik, sülhün bərpası olduğu bir məkana çevrilməsini təmin edir. Azərbaycanın siyasətinin prioritet məsələsi də bundan ibarət olmuşdur. Azərbaycan Prezidentinin Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə dediyi kimi, “bu gün regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə - Rusiya əməkdaşlığı regionda sabitliyin təminatçısıdır. Bölgədə sabitliyin bərqərar olunmasında Türkiyə və Rusiyanın rolunu isə yüksək qiymətləndiririk...Yəni, bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. Yəni bizim üçün bu format kifayətdir — Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda, bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir**” (2).** Azərbaycanın Vətən müharibəsində hərbi və siyasi iradəsi bütün dünyaya məlumdur. Dünya tarixində xalqın iradəsi ilə liderin iradəsinin vəhdətində ədaləti bərpa edən çox nadir müharibələr mövcuddur. Yeni reallıqlarda Azərbaycanın aktorluğunu müəyyənləşdirən əsas amillərdən biri bu nümunənin sivil formasını yaratmaq oldu. Digər tərəfdən qalib ölkənin məğlub ölkəyə sülh təklifi və onu əməkldaşlığa dəvət etməklə bütün dünyaya təlqin etməsi yolunda möhkəm iradəsi olmuşdur. Maraqlıdır ki, regionda separatizmin hökm sürdüyü zaman öz missiyalarından qaçan qüvvələr indi sülhün bərpası üçün dəstək göstərmək, minaların təmizlənməsi və sərhədlərin delimitasiyasında yardım etmək təklifləri ilə çıxış etməyə başladılar. Halbuki müharibə olmadan regionda sülhə nail olmaq ücün kifayət qədər imkanlar var idi. Bu imkanlardan istifadə olunmamışdır.

**Xəzəryanı bölgənin yeni geosiyasi reallıqları**

Məlumdur ki, yeni dünya düzənində də Xəzər hövzəsi Avrasiyada və dünyanın transmilli nəqliyyat-kommunikasiya sistemində, o cümlədən geosiyasi vəziyyətində ən vacib və həlledici məkanlardan birinə çevrilmişdir. Təhlil göstərir ki, XX əsrin 90-cı illərinin sonlarından başlayaraq bölgənin quru, su və dəmiryolu şaxələri vasitəsilə ətraf ölkələrin bir-birilə və transmilli dünya ilə reallaşdırdığı geoiqtisadi əlaqələrinin əsas ağırlıq mərkəzinə çevrilməsi Şərq-Qərb, Şimal-Cənub nəqliyyat-kommunikasiya sisteminin fəaliyyətinə, geoiqtisadi əlaqələrə dinamizm gətirdi, hövzə beynəlxalq aləmin transmilli fəaliyyət meydanına çevrildi. Bu baxımdan bütün dövrlərdə xarici aləmin və regionun xüsusi hərbi-geostrateji rəqabətinə və qarşıdurmalarına meydan olmuş Xəzəryanı bölgənin Rusiya, Türkiyə, İran kimi böyük region dövlətlərinin və onların beynəlxalq müttəfiqlərinin strateji maraq mübarizəsini şərtləndirməsi heç də təsadüfi deyildir. Çünki Xəzər hövzəsi özünün beynəlxalq dəyəri, zəngin və əhəmiyyətli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji resursları ilə

yanaşı, həm də regionun müxtəlif xalqlarının yaşadığı ölkələrin mövcud olduğu konkret bir sivilizasiya meydanı, milli-etnik yaşayış məskəni və coğrafi məkandır. Buna görə də yeni reallıqlar fonunda məlum oldu ki, Xəzər hövzəsi ölkəsi bölgədə milli maraqlarını təmin etmək məqsədilə daxili və xarici siyasət prioritetlərini formalaşdırır, başqa dövlətlərlə siyasi, iqtisadi, hərbi və mədəni qurumlar yaradır, transmilli və regional inteqrasiya proseslərində fəal iştirak edir **(3).** Təbii ki, bu zaman ölkələrin bəzən bir-biri ilə və regionda marağı olan digər dövlətlərlə geosiyasi, hərbi-strateji və geoiqtisadi maraqları toqquşmuş, bəzən də üst-üstə düşmüşdür. Xəzər hövzəsinin ümumi geosiyasi münasibətlərin mürəkkəbliyi, ilk növbədə bölgə ölkələri arasındakı inkişaf istiqamətlərinin fərqliliyi, regional münaqişələrin mövcudluğu, transmilli və milli maraqların kəsişməsi xarici geosiyasi güclərin təsiri ilə izah edilməlidir. Beləliklə, göründüyü kimi, Xəzər hövzəsi hazırda bir tərəfdən beynəlxalq güclərin, ABŞ, Avropa İttifaqı, Rusiya, Türkiyə, İran, Çin və Yaponiya kimi böyük ölkələrin maraqlarının təmsil olunduğu, digər tərəfdən isə yerli dövlətlərin yerləşdiyi və öz maraqlarını təmin etməyə çalışdığı mürəkkəb bir geosiyasi məkan kimi təhlil edilməlidir. Azərbaycanın Xəzər bölgəsindəki xarici siyasətinin prioritetlərinin mahiyyətində dayanan əsas məsələ bu idi ki, Xəzər bölgəsində sülh və əməkdaşlıq konsepsiyası formalaşmalıdır. Xəzər hövzəsi nəinki regionun, hətta dünyanın geosiyasi taleyində əhəmiyyətli məkanlardan biri kimi dəyərləndirilməlidir **(4).** İlk vaxtlar Azərbaycanın bu istiqamətdəki siyasəti qonşu dövlətləri ciddi narahat etməyə başlasa da, Ulu Öndər Heydər Əliyevin region dövlətləri ilə strateji və müdrik siyasi xətti regiona yeni əməkdaşlıq xətti açdı. Biz açıq deməliyik ki, Xəzər hövzəsinin regional geosiyasi vəziyyətini və ölkələrarası münasibətlərin mürəkkəb xarakterini müəyyən edən səciyyəvi cəhətlərdən ən əsası da bölgədə Rusiya, İran kimi ölkələrin öz maraqlarını irəli sürməsi və reallığı nəzərə almadan müzakirələrə rəvac verməkləri idi. Azərbaycan Xəzər hövzəsində ayrı-ayrılıqda və tərəfdaşları ilə birlikdə fərqli maraq çərçivəsi və strateji hədəfləri olan ölkələri bir araya gətirməklə qlobal əməkdaşlıq platforması yaratmağa nail olmuşdur. İlk vaxtlar Rusiyanın geosiyasi, geostrateji və geoiqtisadi mövqeləri digərləri ilə müqayisədə daha üstün görünsə də, bütövlükdə regionun və yerli müstəqil ölkələrin malik olduğu beynəlxalq status onu da yeni geosiyasi şəraitlə üz-üzə qoymuş və bölgəyə artan xarici maraqlarla hesablaşmaq məcburiyyəti ilə üzləşdirmişdir. Burada Azərbaycanın mövqeyi və hadisələrə təsir imkanları Ulu Öndər Heydər Əliyevin müdrikliyi ilə regionda yeni bir sülh və əməkdaşlıq meydanı açmışdır. Xəzər hövzəsi ölkələrinin yüksələn dinamika ilə bir-biri ilə kifayət qədər intensiv ikitərəfli və çoxtərəfli regional münasibətlərinin formalaşması da məhz bu müdrik siyasətin təzahüri idi **(5).**

2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda Azərbaycanın yaratdığı yeni geosiyasi reallıq formalaşıb. Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq, Ermənistanın 30 illik işğalına son qoyub, müharibə yolu ilə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu müharibədə Azərbaycan xalqımıza qarşı 1992-ci il fevralın 26-da Xocalı kimi dəhşətli soyqırımı həyata keçirmiş Ermənistan ordusunu və bəşəriyyət üçün ən təhlükəli meyillərdən olan erməni faşizmini məhv edib. Hələ İkinci Qarabağ müharibəsinin gedişində Prezident İlham Əliyev postkonflikt dövründə Cənubi Qafqazın siyasi arxitekturasını şərh edərkən gələcəkdə bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin yaradılmasının vacibliyini bildirib. Bunun üçün Azərbaycan təkliflərlə çıxış edib və bu təkliflər Ermənistanın kapitulyasiyası hesab olunan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda əks olunub **(6).** İkinci Qarabağ müharibəsindən sonra Prezident İlham Əliyev bölgədə nəqliyyat kommunikasiyalarının bərpasının, iqtisadi əlaqələrin yaradılmasının Cənubi Qafqazdakı uzunmüddətli sülh və təhlükəsizliyə, o cümlədən inkişaf və inteqrasiyaya töhfə olacağını bəyan edib. Bu, Azərbaycanın bölgədə sülh siyasətinin tərkib hissəsi və gələcəyə baxış konsepsiyasının mahiyyətidir. Muharibədən sonra yeni reallıqları nəzərə alaraq Azərbaycan 3+3 formatını təklif etmiş, ölkəmizin bu təşəbbüsü, Ermənistan istisna olmaqla, regionun digər dövlətləri (Gürcüstan, Rusiya, Türkiyə, İran) tərəfindən dəstəklənmişdir. Müharibədən bir neçə il keçməsinə baxmayaraq, Ermənistan hələ də Cənubi Qafqazda Azərbaycanın yaratdığı geosiyasi reallığı qəbul edə bilməmiş, azərbaycanofobiya, türkofobiya və revanşizm məzmunlu ritorika Ermənistanda iqtidarla müxalifəti birləşdirən yeganə amilə çevrilmişdir. Bu həm də son otuz ildə Ermənistana rəhbərlik etmiş hərbi-siyasi xunta rejimi

rəhbərlərinin, siyasi cəhətdən qeyri-yetkin, qeyri-adekvat və irrasional birinin bütöv bir cəmiyyətə bəxş etdiyi fəlakətin mənzərəsidir. Revanşizmin hətta səsləndirilməsinin belə Ermənistan üçün nə qədər fəlakətli ola biləcəyini deyən Prezident İlham Əliyev müxtəlif səviyyəli çoxsaylı görüşlərində bu ölkəni bölgədə yaranmış geosiyasi reallıqları qəbul etməyə, regional inkişafa töhfə verməyə dəvət edib və bu vəziyyəti Ermənistan Respublikası üçün itirilmiş 30 ildən sonra son şans kimi dəyərləndirib. Yeni reallıqlar onu tələb edir ki, hazırda Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın hərbi-siyasi qələbəsi ilə bitdiyi üçün vaxtilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə yaradılmış ATƏT-in Minsk qrupuna üzv dövlətlər, xüsusən də ABŞ, eyni zamanda Rusiya, Türkiyə, Avropa İttifaqı Cənubi Qafqazın bu iki dövləti arasında münasibətlərin normallaşması, icmalara iki xalqın yanaşı yaşamalı olduğunu izah etmək istiqamətində səy göstərə bilərlər **(7).** Bu cür yanaşma uzun illər guya iki xalqın yaxınlaşmasına səy göstərən, daha çox qarşılıqlı güzəştlərdən danışan, münaqişənin nizamlanması istiqamətində isə səmərəsiz fəaliyyəti ilə yaddaşlarda qalan ATƏT-in Minsk qrupunun, postkonflikt dövründə də mövcudluğunu saxlamağa çalışan, lakin bundan sonrakı fəaliyyətlərinin nədən ibarət olacağını deməkdə çətinlik çəkən bir qurumun fəaliyyətində mühüm istiqamət ola bilər. Əslində, Ermənistandakı bugünkü mənzərə xalqların sülhə və yanaşı yaşamağa hazırlanması istiqamətində Azərbaycanın qarşılaşdığı ciddi problemlərdən biridir. Çünki uzun illər Ermənistan cəmiyyətində uydurma və saxta tarixə əsaslanan milli ideologiya dövlət səviyyəsində təbliğ edilib. Bu ideologiyanın əsasını milli kimliyin üstünlüyü, faşizm ideyaları, türkofobiya və azərbaycanofobiya təşkil edib. Uzun illər erməni cəmiyyətində azərbaycanlılara qarşı nifrət təbliğ olunub. Bu gün "azərbaycanlı" erməni siyasi lüğətində ən pis təhqirdir. Onlar bir-birini təhqir etmək istəyəndə bir-birini "azərbaycanlı" adlandırırlar. Bu cür saxta ideoloji təbliğatın nəticəsidir ki, indi erməni cəmiyyəti yeni reallığa uyğunlaşa bilmir və bu, həmin cəmiyyət üçün ciddi psixoloji faciədir. Son 30 ildə Cənubi Qafqazın bu iki dövləti arasında nəyin baş verməsindən asılı olmayaraq, Azərbaycan regionun və xalqların inkişafı naminə gələcəyə baxmağı təklif edir. Bununla bağlı olaraq Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, istənilən potensial hərbi qarşıdurma riskini minimuma endirmək və ya aradan qaldırmaq üçün Azərbaycanın Ermənistanla sülh razılaşması üzərində işləməyə, sərhədlərin delimitasiya və demarkasiyasına ehtiyac var **(8).** Əlbəttə, bütün bu işlər birgə səylər tələb edir və bunlar birtərəfli qaydada həyata keçirilə bilməz. Bunun üçün Vətən müharibəsi dayandıqdan sonra Azərbaycan tərəfi birgə səylərə hazır olduğunu və etimad mühitinin yaradılması üçün Ermənistan tərəfə humanitar məsələlərlə bağlı bir neçə dəfə mühüm jest edib. Əvvəlcə, Azərbaycan tərəfi müharibə zamanı saxlanılanların hamısını, o cümlədən Ermənistan qoşunları qaçıb gedərkən tərk edilən mülki şəxsləri dərhal azad edib. Beləliklə, təhlil göstərir ki, bugünkü Ermənistan Qafqazın əsl mənada siyasi "nekroz"udur. Nə Ermənistanın hazırkı vəziyyəti, nə də bu ölkənin siyasətçilərinin "iltihabi" ritorikası bundan sonra davam edə bilməz; bu toplum ya ağır bir katarsisdən keçərək regiondakı inteqrasiya proseslərinə qoşulmalı, ya da bir dövlət kimi, öz varlığını məhv etməlidir. Azərbaycanın Cənubi Qafqazda və Xəzəryanı bölgədə yaratdığı yeni reallıqların elmi mahiyyəti məhz bu zərurəti qaçılmaz etmişdir.

### İstifadə olunmuş ədəbiyyat


1. Güclü liderin qurduğu dövlət də güclüdür. "Azərbaycan" qəzeti, 11 yanvar 2022-ci il, № 009

2. Heydər Əliyev-İlham Əliyev: Müasir Azərbaycanın liderlik fəlsəfəsi və dövlətçilik təcrübəsi (müəllif heyəti). Bakı, Elm və Təhsil-2023, 345 s.

3. Adıgözəlov Z. "Azərbaycan Respublikasının Avropa ölkələri ilə siyasi əlaqələri (1991-2006). Bakı, 2015, səh. 196

4. Məmmədzadə İ., Həsənov S. Heydər Əliyev-İlham Əliyev: Sabitlik, Qələbə və Böyük Qayıdış. Bakı, Elm və Təhsil, 2002, səh 137

5. Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, 2016

6. İsmayılov M. İnformasiya müharibəsində qələbə — Müzəffər Ali Baş Komandan İlham Əliyev. Bakı, 2021, 310 səh, səh 36.

7. Müasir Azərbaycanın liderlik fəlsəfəsi və dövlətçilik təcrübəsi (müəllif heyəti). Bakı, 2023. Bakı, Elm və Təhsil, 348 səh.

8. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru. Bakı, Şərq-Qərb, 2021, 345 s.

## АЗЕРБАЙДЖАН КАК АКТОР НОВЫХ РЕАЛИЙ НА ЮЖНОМ КАВКАЗЕ И В ПРИКАСПИЙСКОМ РЕГИОНЕ

**Асадулла Сулейманов**
**Резюме.** В статье рассматриваются актуальность и значимость политических процессов, происходивших на Кавказе за последние десятилетия XXI века и определившие новые цели во внешней политике силовых стран региона. Начиная именно с Азербайджана была заложена надежная концепция развития и сотрудничества, идеологическая мудрость, прогрессивные идеи и прочные основы государственности. Соответственно, политическая роль Азербайджана на Южном Кавказе и в Прикаспийском регионе стала образцом в стратегии развития государств.
**Ключевые слова:** геополитика, государство, национальные интересы, Южный Кавказ, стабильность, Каспийский бассейн, транспортные коридоры, энергетические ресурсы

## AZERBAIJAN AS AN ACTOR OF NEW REALITIES IN THE SOUTH CAUCASUS AND THE CASPIAN REGION

**Asadullah Suleymanov**
**Abstract.** The political processes taking place in the Caucasus in the last decades of the XXI century have set new goals in the foreign policy of the Centers of power and the countries of the region. It is fully justified that this process has realized a new political acting factor determined by the rational power of Azerbaijan. Because the most reliable concept of development and cooperation was established precisely with the political will, ideological wisdom, progressive ideas, starting from Azerbaijan, and finally with solid foundations of statehood. Therefore, both in the South Caucasus and in the Caspian region, Azerbaijan has played an important role in the development strategy of the states by gaining political actorship. In this regard, the article is of particular relevance and importance.
**Keywords:** geopolitics, state, national interests, South Caucasus, stability

**Rəyçi: s.e.f.d., dos. Sənan Həsənov**

**UOT 327; 930**
**https://doi.org/10.30546/ifs.2024.1(42).042**

# BOSNİYA VƏ HERSEQOVİNADA HİBRİD SÜLH QURUCULUĞU PROSESLƏRİNDƏ ALİ NÜMAYƏNDƏNİN İŞTİRAKI

**Elmar İsmayılzadə**
doktorant, Azərbaycan Turizm və Menecment Universiteti, **Azərbaycan**
e-mail: ismaylzadelmar@gmail.com
https://orcid.org/0009-0005-7789-3956

**Xülasə.** Məqalə hibrid sülh quruculuğu paradiqması və bunun Bosniya və Herseqovinada Ali Nümayəndə tərəfindən tətbiq olunmasının nəticələrindən bəhs edir. Müasir dövrdə Bosniya və Herseqovinada sülh quruculuğuna yeni çağırışlar Bosniya və Herseqovinada Ali Nümayəndənin legitimliyi probleminin aktuallaşmasına səbəb olmuşdur. Bu da hibrid sülh quruculuğu sahəsində Ali Nümayəndənin fəaliyyətinin araşdırılmasını zəruri etmişdir.

**Məqsəd:** Bosniya və Herseqovinada Ali Nümayəndənin hibrid sülh quruculuğu sahəsində fəaliyyətini dəyərləndirmək.

**Metodologiya:** Tədqiqatın aparılması zamanı analiz və sintez metodları istifadə olunmuşdur.

**Elmi yenilik:** Tədqiqat ilk dəfə hibrid sülh quruculuğu konsepsiyası əsasında Bosniya və Herseqovinada Ali Nümayəndənin beynəlxalq və lokal legitimliyi problemini ortaya qoymuşdur.

**Açar sözlər:** hibrid sülh quruculuğu, Bosniya və Herseqovina, Ali Nümayəndə, legitimlik, beynəlxalq

**Giriş.** 1995-ci ildə Bosniya və Herseqovinada müharibəni başa çatdırmış Deyton sazişinin imzalanmasından sonra sülh quruculuğuna cəlb olunmuş aktorlardan biri də Ali Nümayəndə Ofisi institutu oldu. 11 sentyabr hadisələrindən sonra ABŞ-ın Bosniya və Herseqovina konfliktinə diqqətinin azalması nəticəsində Avropa İttifaqı burada başlıca sülh quruculuğu aktorlarından birinə çevrildi. Avropa İttifaqının liberal sülh quruculuğundan hibrid sülh quruculuğuna üstünlük verməsi Ali Nümayəndənin siyasətində dəyişikliklərə səbəb oldu.

Eyni zamanda 2022-ci ildən başlanmış Ukrayna müharibəsi nəticəsində dəyişən beynəlxalq geosiyasi vəziyyət Ali Nümayəndənin beynəlxalq legitimliyinin sorğulanmasına səbəb oldu. Beynəlxalq ictimaiyyətin Bosniya və Herseqovina probleminə, eyni zamanda Ali Nümayəndənin legitimliyi məsələsinə həll yolu kimi hibrid sülh quruculuğu təklif etməsi siyasi elmlər üzrə tədqiqatçılar arasında debatlara səbəb oldu.

Tədqiqatın hazırlanmasında I.P.Watts "Peace or democracy: peacebuilding dilemmas to transition from civil wars"; J.Kustermans, T.Sauer və B.Segaert "A Requiem for peacebuilding?" və J.Graef "Practicing post-liberal peacebuilding: legal empowerment and emergent hybridity in Liberia" kitablarına, N.Beglerović "The Role, expectations and challenges of High Representative in Bosnia and Herzegovina" və A.Orosz "High Representative in Bosnia and Herzegovina: is the more interventionist way the right way to go?" məqalələrinə üstünlük verilmişdir.

Tədqiqat Bosniya və Herseqovinada Ali Nümayəndənin fəaliyyəti ilə lokal və beynəlxalq dinamikaları əlaqələndirərək hibrid sülh quruculuğunun elementlərini özündə birləşdirmişdir. Məlumatların əldə olunmasında son dövrdə Bosniya və Herseqovinada baş verən siyasi proseslər nəzərə alınmışdır.

Tədqiqat beynəlxalq ictimaiyyətin Bosniya və Herseqovina konfliktində qarşılaşdığı dilemmaları Ali Nümayəndə və hibrid sülh quruculuğu timsalında izah etməklə elmi-təcrübi əhəmiyyət daşıyır.

**Hibrid sülh quruculuğu post-liberal sülh quruculuğu paradiqması kimi** Post-münaqişə dövründə istifadə edilən yanaşmalardan biri olan sülh quruculuğu insanlar arasında rifah və inamı

yüksəltmək və sülhü möhkəmlətməyə xidmət edəcək strukturları müdafiə və müəyyən etməyə ətraflı cəhdlər kimi başa düşülür (19, s. 8). İlk sülh quruculuğu praktikalarında liberal yanaşmalara üstünlük verilsə də, bəzilərindən gözlənilən nəticə əldə olunmadı (5, s. 212-213). Bu, post-liberal sülh quruculuğu paradiqması kimi, hibrid sülh quruculuğunun önə çıxmasına səbəb oldu.

Hibrid sülh quruculuğu özündə beynəlxalq və lokal, liberal və illiberal (liberal olmayan) amilləri birləşdirir (12, s. 50). Bu anlayışın formalaşmasında post-kolonial tətqiqatların rolu da qeyd edilməlidir (9, s. 24). Bu tip sülh quruculuğunun effektiv həyata keçirilməsi xarici və daxili aktorlar arasında konsensusun qurulmasından asılıdır (12, s. 50). Hibrid sülh quruculuğuna keçid dörd bir-biri ilə əlaqəli olan elementdən asılıdır: riayət etmək; liberal strukturların təşviqedici gücləri; liberal sülhyaratma proseslərinə lokal aktorların münasibəti; alternativ fikirlər təqdim etməsi və öz sülhyaratma formalarını saxlaması (12, s. 104).

Hibrid sülh quruculuğunu dəstəkləyən və tənqid edən yanaşmalar mövcuddur. Tənqidi yanaşmanın tərəfdarları hibrid sülh quruculuğunu liberal sülhə qarşı çıxan yanaşma kimi dəyərləndirirlər. Onlar daha çox Əfqanıstan və Kamboca nümunələrinə diqqət çəkirlər (7, s. 15). Dəstəkləyən yanaşma isə “hibrid sülh idarəetməsi” ideyasını irəli sürür (9, s. 25-26). Bu yanaşma hibrid sülh quruculuğunun lokal legitimlik yaradaraq konfliktdə sabitliyə gətirib çıxardığı fikrini müdafiə edir (9, s. 26).

Hibrid sülh quruculuğuna nəzərən iki əsas yanaşma mövcuddur: pozitiv və neqativ hibrid sülh quruculuğu yanaşmaları. Pozitiv hibrid sülh quruculuğu Qərb siyasi dəyərləri ilə ənənəvi formaları özündə ehtiva edir. Neqativ hibrid sülh quruculuğu isə liberal və hibrid sülh quruculuğunun bir-birindən kəskin fərqləndiyini göstərir (6, s. 311).

Hibrid sülh quruculuğunun həyata keçirilməsi zamanı bir sıra risklər ola bilər. Hibrid sülh quruculuğunun vətəndaş müharibəsindən sonra tətbiq olunması anokratiyanın yaranmasına səbəb ola bilər (20, s. 5). Hibrid sülhün təşkil etdiyi liberal olmayan dəyərlər bəzən klientelizm və neopatrimonalizm meyillərini artıra bilər (20, s. 49). Hibrid sülh quruculuğunda “lokal amilləri şişirdici” yanaşmalar riski vardır. Bu yanaşmalarda “beynəlxalq amilləri pisləmə” mövqeyi önə çıxır. Bununla belə, xarici müdaxilənin bir sıra hallarda arzuolunan olduğu fikirləri də mövcuddur (10, s. 43).

**Ali Nümayəndə Ofisi Bosniya və Herseqovinada hibrid sülh quruculuğu aktoru kimi**. Bosniya və Herseqovinada Ali Nümayəndə Ofisi (The Office of High Representative) institutunun hüquqi əsasları 1995-ci ildə Deyton sazişinin imzalanması ilə qoyuldu. Bu sazişə görə, Ali Nümayəndənin səlahiyyəti sülh quruculuğunun mülki aspektlərini əhatə edirdi. Bu təşkilat Sülhü Həyata Keçirmə Şurası tərəfindən formalaşdırılmışdır. Ali Nümayəndə fəaliyyətinin ilkin dövrlərində məhdud səlahiyyətlərə malik idi və kompromis strategiyasına daha çox üstünlük verirdi. 1997-ci ildə keçirilmiş Bonn konfransında Ali Nümayəndəyə əlavə səlahiyyətlər verildi. Bununla da bu təşkilatın Bosniya və Herseqovinaya müdaxilə imkanları artırıldı (3, s. 403-404).

Bosniya və Herseqovinada post-münaqişə dövründə əvvəl liberal sülh quruculuğuna üstünlük verilmişdir. Liberal sülh quruculuğunun “qeyri-demokratik” vasitələr istifadə etməsi (8, s. 22), ölkəni “protektoratı”na çevirməsi və “qeyri-legitim” sayılması kimi iddialar beynəlxalq ictimaiyyətin və onun təmsilçisi sayılan Ali Nümayəndənin hibrid sülh quruculuğu strategiyalarına meyillənməsinə səbəb olmuşdur (1, s. 93).

Bosniya və Herseqovinada Ali Nümayəndənin hibrid sülh quruculuğunu həyata keçirməsində məcburetmə strategiyası başlıca rol oynayır. Bu strategiya “Bonn səlahiyyətləri” vasitəsilə həyata keçirilir. Bu strategiyanın mənfi məqamlarını lokal sistemə maneə törədilməsində və lokal müqavimət meyillərində görmək olar (18, s. 36). Bosniya və Herseqovinada ilk Ali Nümayəndə vəzifəsini daşımış K. Bildt “Bonn səlahiyyətləri”nin məcburedici cəhətini tənqid edənlərdən idi (3, s. 408). Bu strategiyanın müsbət məqamlarına isə 2002-2006-cı illərdə Ali Nümayəndə olmuş P. Eşdaunun bir sıra uğurlu fəaliyyətlərini daxil etmək olar (14, s. 138).

Bosniya və Herseqovinada hibrid sülh quruculuğunda beynəlxalq və lokal amillərin rolu qeyd edilməlidir. Ali Nümayəndənin beynəlxalq və lokal legitimliyi problemi bu amillərin təsir etdiyi məsələlər daxilindədir (14, s. 141). İslahatların vaxtında və effektiv tətbiq olunması üçün ABŞ və Avropa İttifaqının “Serb Respublikası”na, Avropa İttifaqının isə Ali Nümayəndəyə təzyiqlər etməsi

hibrid sülh quruculuğunda beynəlxalq amillərin rolunu göstərir. Konfliktdə hibrid sülh quruculuğuna münasibətdə baş vermiş Qərb dövlətləri və siyasi elitalar arasında fikir ayrılığı bu amillərin mənfi cəhətlərinə daxildir (14, s. 143).

Bosniya və Herseqovinada Ali Nümayəndənin apardığı hibrid sülh quruculuğu zamanı uğurlu və uğursuz məqamlar ortaya çıxmışdır. Seçki qanununun qəbul olunması və Ali Nümayəndənin qurumlararası vasitəçi rolunu oynaması hibrid sülh quruculuğunun uğurlarından sayılır (3, s. 403). İslahatların tətbiq olunmasına vaxtında əməl etməmək hibrid sülh quruculuğunun effektiv həyata keçirilməsinə əngəl törədir.

Bosniya və Herseqovinada hibrid sülh quruculuğunun həyata keçirilməsində bir sıra çatışmazlıqlar vardır. Ali Nümayəndə lokal aktorları təşviqetmə baxımından məhdud rol oynayır. Bu rol əsasən Bosniya və Herseqovinanın Avropa İttifaqına üzvlüyü ilə məhdudlaşır. Lokal aktorların isə alternativ fikirlər təqdim etməkdə razılaşa bilməməsi hibrid sülh quruculuğunun effektiv həyata keçirilməsinə şərait yarada bilmir.

Çin və Rusiya son zamanlarda Ali Nümayəndə Ofisinin beynəlxalq legitimliyinə zərbə vuran dövlətlər sayılır. Hər iki dövlətin BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olması təşkilata təsir mexanizmini artırır. 2021-ci ildə Çin və Rusiya BMT Təhlükəsizlik Şurasına Ali Nümayəndə Ofisinin ləğv olunması haqqında qətnamə layihəsi irəli sürdülər. Hər iki dövlət təşkilatın Bosniya və Herseqovinada sülh quruculuğunun effektiv nəticələnməsi üçün kifayət qədər çalışmadığını və ləğv olunmasının vacib olduğunu irəli sürdülər. Tənqidlər “Bonn qüvvələri”nə qarşı da yönəldilirdi. Qətnamə layihəsi Qərb dövlətləri tərəfindən dəstəklənmədi (13). Bu qərar Ali Nümayəndə Ofisinə münasibətdə beynəlxalq çoxtərəfliliyin azalmasına və bu məsələ ətrafında dövlətlər arasında siyasi qütbləşmənin artmasına səbəb oldu.

2022-ci il Ukrayna müharibəsinin başlanmasından sonra Bosniya və Herseqovinada Ali Nümayəndə Ofisinin səlahiyyətləri daha çox sorğulanmağa başlamışdır. Bu təşkilata qarşı tənqidi mövqedə duran əsas aktor Bosniya və Herseqovinanın tərkib hissəsi sayılan Serbiya Respublikası olmuşdur. 2023-cü ilin iyununda Bosniyada Serbiya Respublikası rəhbərliyinin Ali Nümayəndə Ofisinin qərarlarını heçə saymaq haqqında qərar qəbul etməsi ölkə daxilində siyasi ziddiyyətləri daha da artırmışdır (15).

2023-cü ilin iyulunda Ali Nümayəndə X. Şmidt Bosniya və Herseqovinada cinayət məcəlləsində dəyişiklik etmək üçün “Bonn qüvvələri”ni istifadə etdi. Bu qərarın tətbiq olunmasına maneə törədən dövlət məmuru 6 ay ilə 5 il arası müddətə həbs olunacaqdı. Bosniya serblərinin lideri M. Dodikin bu qanunu imzalamaqdan imtina etməsi ona qarşı məhkəmə işinin açılmasına səbəb oldu (4). Məhkəmə prosesi hələ də davam edir.

2024-cü ilin martında Ali Nümayəndə X.Şmidtin Bosniya və Herseqovinanın seçki haqqında qanununda dəyişiklik etmək haqqında qərar qəbul etdi. Bu qanuna düzəliş etməkdə məqsəd kimi seçki prosesini daha effektiv həyata keçirmək müəyyənləşmişdir. Diplomat açıqlamasında Ali Nümayəndə Ofisinin Bosniya və Herseqovinanın Avropa İttifaqına üzv olduqdan sonra ləğv olunacağı fikrini söyləmişdir. Bu fikirdən belə nəticə çıxarmaq olar ki, Ali Nümayəndə Ofisinin fəaliyyət göstərməsi Bosniya və Herseqovinanın Avropa İttifaqına üzvlük standartlarına özünü uyğunlaşdırması və Avropa İttifaqının bu yolda ölkəni dəstəkləməsindən asılıdır (16).

X.Şmidt yeni seçki qanununa dəyişiklik zamanı seçkilərə namizədlikdə müharibə canilərinin iştirakını qadağan etmişdir. Bosniya serblərinin lideri M. Dodik qərara mənfi yanaşdı və “dövlətdən ayrılmaq” təhdidindən istifadə etdi (11). Avropa İttifaqı qərara münasibətində islahatların “xarici məcburetmə” yolu ilə deyil, siyasi rəhbərliklər tərəfindən dəstəklənərək həyata keçirilməsinin vacib olduğunu qeyd etdi (2).

Bosniya və Herseqovinada baş verən son siyasi proseslərdən belə nəticə çıxarmaq olar ki, Ali Nümayəndə Ofisi ləğvinə gətirib çıxaracaq islahatların tətbiq olunmasında xüsusilə serblər tərəfindən lokal müqavimətlə qarşılaşır və bu təşkilatın beynəlxalq legitimliyi sual altındadır. Bu siyasi gərginlikdə ABŞ Avropa İttifaqına nisbətən daha çox Ali Nümayəndəni dəstəkləyən siyasət həyata keçirir. Avropa İttifaqı sülh quruculuğunun lokal dinamikaları nəzərə alaraq tədricən tətbiq olunmasını müdafiə edir.

Yuxarıdakı müzakirə edilən fikirlərə əsasən müəyyən etmək olar ki, Bosniya və Herseqovina neqativ hibrid sülh quruculuğu modelinə malikdir. Bu modelin xüsusiyyətləri öz əksini konfliktdə lokal və beynəlxalq amillər arasında rəqabətdə (17, s. 67-68) və 1999-2002-ci illər arası dövrdə Ali Nümayəndə olmuş Petrişin “asılılıq sindromu” ifadəsində tapır (3, s. 409).

**Nəticə.** Nəticədə, Bosniya və Herseqovinada neqativ hibrid sülh quruculuğundan pozitiv sülh quruculuğuna keçmək üçün beynəlxalq və lokal aktorlar arasında əməkdaşlığın olması zəruridir. Ali Nümayəndə Ofisinin hibrid sülh quruculuğunu həyata keçirməkdə məcburedici strategiyalara üstünlük verməsi tənqid olunur. Bu aktorun fəaliyyətində konfliktə münasibətdə uzlaşdırma və əməkdaşlıq strategiyalarına da yer ayırması lazımdır.

Müasir dövrdə Qərb və qeyri-Qərb blokları arasında ziddiyyətlərin kəskinləşməsi bu halın gerçəkləşməsinə maneə törədən amillərdən biridir. Ali Nümayəndə 1990-cı illərdəki beynəlxalq siyasi nüfuzunu hal-hazırda itirib. Qərb dövlətləri onu “müvəqqəti keçid orqanı” olduğunu, Rusiya və Çin isə bu təşkilatın gərəkli olmadığını vurğulayırlar. Ancaq təşkilat konfliktdə tənzimləyici rolunu oynadığına görə fəaliyyətini hələ də davam etdirir. Beləliklə, Bosniya və Herseqovinanın Avropa İttifaqı üzvlüyünəqədərki tarixində bu təşkilatın hibrid sülh quruculuğunda rol oynacağı aşkardır.

## İstifadə olunmuş ədəbiyyat

1. Ambarkov, N. Role of The Office Of The High Representative (OHR) in The Security Sector Reforms (SSR) in Bosnia following The Dayton Agreement –lessons learned from the army and police reforms // International Scientific Conference: Security System Reforms as Precondition for Euro-Atlantic Integrations, Skopje: University “St. Kliment Ohridski” Bitola Faculty of Security,- 04 - 06 June 2018, - 2018,- p. 90-102.
2. Baccini, F. Cold EU reaction to electoral reforms imposed by High Representative for Bosnia: “measures of last resort”: [Electron resource] / eunews.it. – 2024. - URL: https://www.eunews.it/en/2024/03/27/cold-bosnia-measures-of-last-resort/.
3. Beglerović, N. The Role, expectations and challenges of High Representative in Bosnia and Herzegovina // Prague: Politics in Central Europe,- 2022. Vol. 18, No. 3, - p. 397-432.
4. Belton, P. Bosnia ‘on brink of collapse’ as EU watches on: //brusselssignal.eu.–2024.- URL: https://brusselssignal.eu/2024/01/bosnia-on-brink-of-collapse-as-eu-watches-on/.
5. Campbel, S. A Liberal peace?: the problems and practices of peacebuilding / S. Campbell, D. Chandler and M. Sabaratnam ; - London & New York: Zed Books,- 2011. – 272 p.
6. Carey, H. F. Peacebuilding paradigms: the impact of theoretical diversity on implementing sustainable peace / H. F. Carey.- Cambridge: Cambridge University Press,2020.403 p.
7. Cogan, M. S. Alternative perspectives on peacebuilding: theories and case studies / M. S. Cogan, H. Sakai ; - Cham: Palgrave Macmillan,- 2022. – 355 p.
8. Džuverović, N ‘To romanticise or not to romanticise the local’: local agency and peacebuilding in the Balkans // Conflict, Security & Development, - 2021. Vol. 21, No. 1,- p. 21-41.
9. Graef, J. Practicing post-liberal peacebuilding: legal empowerment and emergent hybridity in Liberia / J. Graef. – London: Palgrave Macmillan UK,- 2015.- 208 p.
10. Hellmüller, S. The Interaction between local and international peacebuilding actors: partners for peace / S. Hellmüller.- Cham: Palgrave Macmillan,- 2018.- 233 p.
11. Kurtic, A. Bosnia’s international overseer imposes new rules to curb election fraud: [Electron resource] / balkaninsight.com. – 2024. - URL: https://balkaninsight.com/2024/03/26/bos-nias-imposes-new-rules-to-curb-election-fraud/.
12. Kustermans, J. A Requiem for peacebuilding ? / J. Kustermans, T. Sauer, B. Segaert ; - Cham: Springer International Publishing Palgrave Macmillan, - 2021.- 247 p.
13. Lederer, E. M. Russia and China try to end Bosnia’s international overseer: [Electron resource] / apnews.com. - 2021. - URL: https://apnews.com/article/europe-russia-china-united-nations-0ca800a4fb55c22962415d64bc6ffa14.
14. Orosz, A. High Representative in Bosnia and Herzegovina: is the more interventionist way the right way to go? // Budapest: Foreign Policy Review,- 2023. Vol. 16, No. 1,- p. 134-145.

15. Ozturk, T. Bosnian Serb leader reiterates his refusal to accept legality of Bosnia's High Representative: [Electron resource] / aa.com.tr. – 2023. -URL: https://www.aa.com.tr/en/europe/-reiterates-his-refusal-to-accept-legality-of-bosnias-high-representative-/3075219.

16. Ozturk, T. Bosnia's high representative makes ‘technical changes’ to election law: [Electron resource] / aa.com.tr. – 2024. - URL: https://www.aa.com.tr/en/europe/bosnias-high-representative-makes-technical-changes-to-election-law/3175833.

17. Richmond, O. P. Liberal peace transitions : between statebuilding and peacebuilding / O. P. Richmond and J. Franks; Edinburgh: Edinburgh University Press,- 2009.- 230 p.

18. Tepšic,´ G. and Džuverovic, N., Bosnia and Herzegovina: [Electron resource] / - 2018. -URL: https://www.elgaronline.com/configurable/content/edcoll$002f97817834-00010.xml.

19. Waldman T. , Conflict resolution, peacebuilding and youth: [Electron resource] / academia.edu. – 2009. – URL: https://www.academia.edu/3200682/Conflict_and_Youth.

20. Watts, I. P. Peace or democracy: peacebuilding dilemmas to transition from civil wars / I. P. Watts.- London & New York: Routledge,- 2023.- 311 p.

## УЧАСТИЕ ВЫСОКОГО ПРЕДСТАВИТЕЛЯ В СМЕШАННЫХ ПРОЦЕССАХ МИРОСТРОИТЕЛЬСТВА В БОСНИИ И ГЕРЦЕГОВИНЕ

**Эльмар Исмаилзаде**

**Резюме.** В статье рассматривается парадигма гибридного миростроительства и последствия ее реализации Высоким Представителем в Боснии и Герцеговине. Новые призывы к миру в Боснии и Герцеговине подняли вопрос о легитимности Высокого Представителя, что потребовало изучения деятельности Высокого Представителя в области смешанного миростроительства.

**Цель:** оценить деятельность Высокого Представителя в области смешанного миростроительства в Боснии и Герцеговине.

**Методология:** в исследовании использовались методы анализа и синтеза.

**Научная инновация:** впервые исследование выявило проблему международной и местной легитимности Высокого Представителя в Боснии и Герцеговине на основе концепции гибридного миростроительства.

**Ключевые слова:** гибридное миростроительство, Босния и Герцеговина, Высокий Представитель, легитимность, международное

## THE PARTICIPATION OF THE HIGH REPRESENTATIVE IN HYBRID PEACEBUILDING PROCESSES IN BOSNIA AND HERZEGOVINA

**Elmar Ismayilzadeh**

**Abstract**. The article deals with the paradigm of the hybrid peacebuilding and the consequences of its implementation by the High Representative in Bosnia and Herzegovina. New calls for peace in Bosnia and Herzegovina have raised the issue of the legitimacy of the High Representative in Bosnia and Herzegovina. This required to research the activities of the High Representative in the field of hybrid peacebuilding.

**Purpose:** to assess the activities of the High Representative in the field of hybrid peacebuilding in Bosnia and Herzegovina.

**Methodology**: Analysis and synthesis methods have been used in the study.

**Scientific novelty**: For the first time, the study has revealed the problem of the international and local legitimacy of the High Representative in Bosnia and Herzegovina based on the concept of hybrid peacebuilding.

**Keywords:** hybrid peacebuilding, Bosnia and Herzegovina, High Representative, legitimacy, international

**Rəyçi: dos. Zeynəddin Şabanov**

**Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər**

Məqalələr Azərbaycan, rus,türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 10-12 səhifə, xülasələrin 15-18 sətir olması tövsiyə olunur.

Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.

Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə yaxud istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s.119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 12 şrift ilə 1intervalla yığılmalıdır.

Məqalələr antiplagiat proqramı ilə yoxlanıldıqdan, rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.

Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.

Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, elmi dərəcəsi və elmi adı (əgər varsa), müəllifin elektron poçt ünvanı göstərilməlidir.

Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.

Jurnalda müvafiq elm sahəsində qabaqcıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.

Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

---

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya heyəti tərəfindən qəbul edilmir.

## Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации

Статьи должны быть представлены на азербайджанском, русском, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на двух языках. Рекомендуется представлять статьи объемом 10-12 страниц, а резюме 15-18 строчек.

Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точки зрения.

Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи, должен быть дан в алфавитном порядке или пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как, например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.

Статья должна быть обсуждена на кафедре или в отделе, где работает автор, а выписка из протокола собрания должна быть представлена редакции.

Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом, на русском языке – кириллицей, на английском языке – английским алфавитом (США), Times New Roman – 12 шрифтом, 1интервала.

Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов Редакционного совета.

В конце статьи автор должен сказать о цели, методологии, научной новизне работы, ее прикладном значении и экономической пользе, соответствующей характеру статьи.

В каждой статье должны быть даны индексы типа УДК и PACS, а также ключевые слова на трех языках.

В статье должны быть указаны имя и фамилия автора, его место работы, адрес и электронная почта.

В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.

В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.

Журнал печатает статьи, соответствующие его профилю.

---

Статьи, не отвечающие вышеизложенным требованиям, не принимаются редакционным советом.

**Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication**

Articles should be submitted in Azerbaijani, Russian, English languages in printed form and electronic version. In addition to the article written in one language, two summaries of it in other languages are to be presented. It is recommended to present 10–12-page articles and summary in 15-18 lines.

Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given either alphabetically or numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 12 font, 1 line spaced.

Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

In the journal there is a room for the articles coming in from the different countries of the world with advanced science.

The journal publishes only those articles which are in conformity with its profile.

---

Articles not meeting the above mentioned requirements are not accepted by the editorial board.

**ELMİ ƏSƏRLƏR**
**Beynəlxalq elmi-nəzəri jurnal**
**№ 1 (42) 2024**

**Redaktorlar:**

Rahilə Həsənova
Elnarə Əliyeva
Hafizə İmanova

**Kompüter tərtibatı və dizayn:**
Səbinə Mustafazadə
Oktay Yusifov

**Texniki redaktor:**
Adil Həşimov

---

**SCIENTIFIC WORKS**
**The international scientific and theoretical journal**
**№ 1 (42) 2024**

**Editors:**
Rahila Hasanova
Elnara Aliyeva
Hafiza İmanova

**Printing and design:**
Sabina Mustafazade
Oktay Yusifov

**Technical editor:**
Adil Hashimov

---

Yığılmağa verilmişdir: 27.06. 2024
Çapa imzalanmışdır: 03.07.2024
Kağız formatı: 60x84 16/1.
Çap vərəqi: 10,9. Tirajı 200.
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Redaksiya-Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Şöbə müdiri: fəlsəfə doktoru Adil Həşimov
Tel:(050)337-74-33.Ünvan: H.Cavid pr-ti 117.
Tel.: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com

Submitted to collection: 27.06.2024
Sent to the press: 03.07.2024
Paper format: 60x84 16/1
Print sheet: 10,9. Copies: 200
Published in the Editorial-Publishing department of IPS of ANAS, department chief: doctor of philosophy Adil Hashimov
Phone: (050) 337-74-33. Address: H.Javid ave.117.
Phone: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com